18 sentyabr 2020-ci il
№30 (8894)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*



# Prezident İlham Əliyevin yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciəti

**– Əziz müəllimlər, tələbələr, şagirdlər.**
**Mən sizi yeni dərs ili münasibətilə ürəkdən təbrik edirəm. Bu il yeni dərs ili yeni şəraitdə, pandemiya dövründə başlayır. Bunu nəzərə alaraq, yeni dərs ili yeni formatda təşkil ediləcəkdir. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, Azərbaycan xalqını bu bəladan qoruyaq və qəbul edilmiş bütün qərarlar bu məqsədi güdür.**

➩Ardı səh.2

## Əminəm ki, yeni şəraitdə başlanan dərs ili uğurlu olacaq

## 10 illik iştirak tarixində ən yaxşı nəticə

Sentyabrın 9-13-də virtual formatda Yeniyetmələrin 24-cü Balkan riyaziyyat olimpiadası keçirilib. 18 ölkədən 108 iştirakçının qatıldığı müsabiqədə iştirak edən şagirdlərimiz uğurlu nəticə əldə ediblər. Belə ki, yarışa qatılan 6 məktəblinin hər biri medala layiq görülüb. Bununla da məktəblilərimiz Yeniyetmələrin Balkan riyaziyyat olimpiadalarından 2020-2021-ci tədris ilinədək ümumilikdə 2 qızıl, 17 gümüş və 22 bürünc medal qazanıb. Qaliblər Bakı məktəbliləri - Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü liseyin, 257 nömrəli tam orta məktəbin və Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin şagirdləridir.

### Bu yarışın qızıl medalçısı

Toğrul Abbasov bu yarışın qızıl medalçısıdır. Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 10-cu sinif şagirdidir. 7-ci sinifdən olimpiadalara qatılır. Ölkə əhəmiyyətli və beynəlxalq olimpiadalardan qazandığı çoxlu uğurları var. İndiyədək 3 qızıl, 2 gümüş, 2 bürünc və 1 həvəsləndirici mükafata layiq görülüb. Virtual yarışda qazandığı bu son uğur o birilərdən fərqlənir: "Beynəlxalq müsabiqələrə əyani şəkildə qatılmaq daha maraqlıdır. Müxtəlif ölkələrə gedirik, çoxlu həmyaşıdlarımızla, ayrı-ayrı ölkələrin şagirdləri ilə tanış oluruq. Bu isə bizim dünyagörüşümüzə müsbət təsir edir. Olimpiada imtahanlarında isə yerindən, formatından asılı olmayaraq, stress, həyəcan olur. Bu baxımdan, onlayn keçirilən bu yarış da mənim üçün əvvəlkilər qədər həyəcanlı, stresli, qazandığım uğur isə əvvəlkilər qədər dəyərlidir".

### 3 gümüş medal

Yeniyetmələrin 24-cü Balkan riyaziyyat olimpiadasında ölkəmizi təmsil edən komandanın tərkibində bir qız da var - Fidan Qarayeva. Hələ IX sinif şagirdi olsa da, təhsil ictimaiyyəti onu yaxşı tanıyır.

➩Ardı səh.14

## Uğurlu universitet modeli

Qloballaşan dünyanın gündən-günə kəskinləşən yeni çağırışları şəraitində hər bir ölkənin mövqeyi onun yetişdirdiyi yüksəkixtisaslı insan potensialı ilə sıx bağlıdır. Bu çağırış, şübhəsiz ki, hər bir ali təhsil müəssisəsindən yeniləşmə, dövrün sürətlə dəyişən reallıqlarına, əmək bazarının zəruri tələblərinə çevik uyğunlaşmağı tələb edir. Bu mənada ali təhsil sisteminin inkişafın yeni müstəvisində inamlı irəliləyişi və uğurlar qazanması çox vaxt qəbul olunan qərarlarla bağlı olur.

2015-ci ilin sentyabrında dövlət başçısı İlham Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət Neft Akademiyasının adı dəyişdirilərək Azərbaycan Dövlət Neft və Sənaye Universiteti adlandırıldı və bununla da ali məktəbin həyatında keyfiyyətcə yeni, inkişaf və tərəqqiyə aparan mərhələnin əsası qoyulub. Universitet qarşısında yalnız neft sahəsi üçün deyil, bütövlükdə yerli sənaye sahələri üçün ixtisaslı kadrlar hazırlamaq vəzifəsi qoyulub. Qısa müddət ərzində ölkənin ən qocaman ali məktəblərindən olan ADNSU-nun nüfuzunun artırılması, tələbələrin yüksəkixtisaslı mütəxəssislər kimi yetişməsi istiqamətində atılan addımlar öz bəhrəsini verib.

Son 5 ilə nəzər salındıqda ADNSU-da həyata keçirilən məqsədyönlü islahatlar, tətbiq olunan innovasiyalar 100 illik yubileyinə hazırlaşan ali məktəbin modern və yeniliklərə açıq bir ali təhsil ocağına çevrilməsinə ciddi zəmin yaradıb. İnnovativ dəyişikliklərin sürətlə inkişaf etdiyini nəzərə almaqla, bu illərdə ölkəmizin ali təhsil sistemində beynəlxalq standartlara cavab verən, yeni, nümunəvi bir universitet quruculuğunun uğurlu nəticələrindən danışa bilərik. Həyata keçirilən işlər həm də bunun göstəricisidir ki, ADNSU qloballaşma dövrünün çağırışlarına öz fəaliyyətində adekvat surətdə cavab verməklə yanaşı, həm də uğurlu bir universitet modeli olaraq yeni trendlər yaradır.

➩Ardı səh.9

## Heydər Əliyev Fondu tərəfindən 62 təhsil müəssisəsi istifadəyə verilir

Son illərdə Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Prezident İlham Əliyevin qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Ulu Öndərin təhsil siyasətinin uğurlu davamının göstəricisidir. Azərbaycan təhsilində ən uğurlu nəticələrdən biri də məktəb tikintisinin geniş vüsət almasıdır. Dövlətimizin başçısının yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciətində deyildiyi kimi, bu il ölkə üzrə 147 məktəbin tikintisi nəzərdə tutulur. Onların böyük hissəsi Bilik Gününə hazır vəziyyətə gətirilib.

Heydər Əliyev Fondu Azərbaycanın sosial-iqtisadi inkişafının ən mühüm və zəruri sahələrindən biri kimi müəyyən edilmiş təhsil sahəsinin inkişafına daim xüsusi diqqət və qayğı ilə yanaşıb, bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirib. Fond bütün ölkədə böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı, "İnternat məktəblərinin inkişaf proqramı", "Təhsilə dəstək", ümumiyyətlə, dövlət maraqları baxımından müstəsna əhəmiyyətə malik bir sıra layihələri uğurla gerçəkləşdirib.

Fondun təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd Azərbaycanda bu sahəni inkişaf etdirərək beynəlxalq səviyyəyə çatdırmaqdır. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi həyata keçiriləndən sonra hətta respublikamızın ən ucqar regionlarında da hər cür ləvazimatla təchiz olunmuş, müasir tələblərə cavab verən məktəblər tikilib istifadəyə verilib. Müasir tipli məktəblərin inşası, tədris prosesində normal şəraitin yaradılmasının zəruriliyi və digər sahələrdə çoxlu sayda uğurlar qazanılıb.

Təkcə bu tədris ilində Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə ölkəmizdə, o cümlədən Bakı, Gəncə və Mingəçevir şəhərlərində, eləcə də müxtəlif rayonlarda 62 təhsil müəssisəsi inşa və əsaslı təmir olunaraq müəllim və şagirdlərin ixtiyarına verilib.

➩Ardı səh.6



**"Atam təhsilə çox böyük önəm verirdi"**

➩səh.10




**"Virtual məktəb"lə bağlı alternativ müraciət vasitələri**

➩səh.10



**"Bir baxışda təhsil"**

➩səh.16

# Prezident İlham Əliyevin yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müraciəti

## Əminəm ki, yeni şəraitdə başlanan dərs ili uğurlu olacaq



⇦ Əvvəli səh.1

Bildirməliyəm ki, Azərbaycan pandemiyanın ilk günlərindən çox operativ, çevik addımlar ataraq xalqımızı böyük bəladan qurtara bilmişdir. Bildiyiniz kimi, mart ayının əvvəlindən məktəblər, ali məktəblər, bütün təhsil müəssisələri bağlandı və bunun əsas məqsədi uşaqları, yeniyetmələri xəstəlikdən qorumaq idi. Təbii ki, bu, təhsil sahəsinə mənfi təsir göstərmişdir. Ancaq hesab edirəm ki, biz görülmüş tədbirlər nəticəsində pandemiyanın təhsilə olan mənfi fəsadlarının böyük hissəsini aradan qaldıra bildik. Əminəm ki, yeni şəraitdə başlanan dərs ili uğurlu olacaq, bizim şagirdlərimiz, tələbələrimiz yaxşı biliklər alacaqlar, müəllimlər də öz vəzifə borcunu şərəflə yerinə yetirəcəklər.

Biz hazırda postpandemiya dövrünə hazırlaşırıq. Əlbəttə ki, peyvənd icad olunandan sonra artıq biz deyə bilərik ki, bu dövr arxada qalıbdır. Bildiyiniz kimi, Azərbaycan peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar bir neçə şirkətlə danışıqlar aparır. Əlbəttə ki, əldə ediləcək peyvənd bütün sınaq mərhələlərindən keçməlidir və eyni zamanda, beynəlxalq sertifikatlar almalıdır. Daha sonra peyvənd Azərbaycana gətiriləcək və əminəm ki, ondan sonra biz normal, adi həyata qayıda bilərik, o cümlədən təhsil sahəsində ənənəvi tədris prosesi bərpa olunacaqdır.

Biz pandemiyanın fəsadlarına, iqtisadi tənəzzülə, neft gəlirlərimizin azalmasına baxmayaraq, məktəb tikintisini, ali məktəblərin tikintisini davam etdirdik, eyni zamanda, bir dənə də sosial layihə ixtisar edilməmişdir. Bildiyiniz kimi, biz keçən il və bu il vətəndaşlara böyük sosial paket təqdim etdik. Bu il 5 milyona yaxın Azərbaycan vətəndaşı dövlət tərəfindən dəstəkləndi və bu dəstək bu gün də davam etdirilir.

Məktəb tikintisi ilə bağlı deyə bilərəm ki, bu il 147 məktəbin tikintisi nəzərdə tutulur. Onların böyük hissəsi artıq hazırdır və Bilik Gününə hazır vəziyyətə gətirilibdir. Bir neçə məktəbin açılışı bu ilin sonuna qədər nəzərdə tutulur. Onu da bildirməliyəm ki, 147 məktəbin 45-i Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilibdir. Artıq 17 ildir ki, Heydər Əliyev Fondu bu sahədə çox böyük işlər görür. Bildiyiniz kimi, Azərbaycanda yeni məktəblərin tikintisinin geniş vüsət alması Heydər Əliyev Fondu tərəfindən başlanmış “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində həll olunmuşdur.

Son 2-3 il ərzində biz kiçik kəndlərdə modul tipli məktəblər inşa edirik. Bu il modul tipli 60 məktəbin tikintisi təmin edilir və ediləcəkdir. Beləliklə, cəmi bir il ərzində 150-yə yaxın məktəb tikilir və əsaslı təmir edilir. Bildirməliyəm ki, son 17 il ərzində bütövlükdə Azərbaycanda 3700-ə qədər məktəb tikilib və əsaslı şəkildə təmir edilib. Bu, bizim məktəb fondumuzun böyük əksəriyyətini təşkil edir. Çünki Azərbaycanda hazırda 4500-ə qədər məktəb var, onların 3700-ü tam yeni görkəm almışdır və yenidən inşa edilmişdir.

Bu il, eyni zamanda, ali məktəblərin korpuslarının tikintisi təmin edilmişdir. İyun ayında Gəncədə Dövlət Aqrar Universitetinin yeni tədris korpusu mənim iştirakımla istifadəyə verilmişdir. Bu korpusun sahəsi 22 min kvadratmetrdir. Sentyabr ayında isə Azərbaycan Dövlət İqtisad Universitetinin yeni korpusu. Bu korpusun sahəsi 13 min kvadratmetrdir. ADA-nın yeni iki korpusu istifadəyə verilmişdir və bu korpusların sahəsi 35 min kvadratmetrdir. Beləliklə, cəmi bir il ərzində üç ali məktəbin 70 min kvadratmetr sahəsi olan yeni korpusları tikilib. Təbii ki, bu, böyük vəsait tələb edir və biz bu vəsaiti ayırırıq. Çünki təhsilə ayrılan vəsait gələcəyə ayrılan vəsaitdir. Mən hələ 2004-cü ildə demişdim ki, biz “qara qızıl”ı insan kapitalına çevirməliyik və bunu əldə etmişik. Çünki son illərdə Azərbaycanda nəinki təhsilin maddi-texniki bazası möhkəmlənib və bu gün bizim bütün ali məktəblərimiz təmirli binalarda yerləşir, eyni zamanda, təhsilin keyfiyyəti artır. Bu, çox vacib məsələdir və biz bunu müxtəlif sahələrdə görürük. Bizim məktəblilərimiz beynəlxalq olimpiadalarda yüksək yerlər qazanırlar, olimpiadaların qalibləri olurlar. Deyə bilərəm ki, müəllim peşəsinə maraq bərpa olunub və artır, bu da özünü rəqəmlərdə göstərir. Müəllim peşəsini seçən gənclərimizin sayı hər il artmaqdadır. Qəbul imtahanlarında yüksək bal toplamış bir çox gənclərimiz müəllim olmaq istəyirlər. Çünki müəllimlərin iş şəraiti yaxşılaşıbdır, müəllimlər gözəl məktəblərdə, ali məktəblərdə dərs deyirlər, müəllimlərin əməkhaqları artırılıb və diaqnostik qiymətləndirmədən keçən müəllimlərimiz yüksək maaş alırlar. Əlbəttə ki, bu, gənclərimizin müəllim olmaq istəyini əsaslandırır, eyni zamanda, müəllim peşəsi bütün dövrlərdə Azərbaycanda ən hörmətli peşələrdən biri olmuşdur. Mən çox şadam ki, bu gün biz bu peşənin prestijini bərpa edirik və bu, eyni zamanda, gələcəkdə Azərbaycanda bilikli, savadlı insanların sayının artmasına gətirib çıxaracaq. Çünki müasir dünyada hər bir ölkənin uğurlu inkişafını onun intellektual potensialı müəyyən edəcəkdir, bu, şübhəsizdir. Sadəcə olaraq, inkişaf etmiş ölkələrin təcrübəsinə baxmaq kifayətdir və sual vermək lazımdır, bu ölkələr nəyin hesabına inkişaf etmiş ölkələr sayılır. Məhz biliyin, savadın, texnologiyaların hesabına. Bu gün dünya üçün yeni texnologiyaları təqdim edən, icad edən ölkələr inkişaf etmiş ölkələrdir və bu ölkələrin bir çoxunda təbii resurslar yoxdur. Ona görə, hər bir ölkənin inkişafı onun təbii resursları ilə ölçülmür və gələcəkdə bu, özünü daha da qabarıq şəkildə büruzə verəcək. Odur ki, təhsilə qoyulan vəsait hər bir ölkənin gələcəyinə, müstəqilliyinə, təhlükəsizliyinə qoyulan vəsaitdir. Təsadüfi deyil ki, Azərbaycanda büdcə xərcləri arasında təhsil sahəsinə ayrılan xərclər ikinci yerdədir. Əgər biz müharibə şəraitində olmasaydıq, birinci yerdə olardı. Çünki hazırda ən böyük xərclərimiz müdafiə sahəsi ilə bağlıdır. Bu da təbiidir. Yəni, bu, özlüyündə bir göstəricidir, bizim siyasətimizin təzahürüdür, bizim niyyətimizi əks etdirir. Mən şadam ki, bu gün bizim gənclərimiz biliklərə çox meyillidirlər. Gənclərimiz bilikli, savadlı olmalıdırlar ki, gələcəkdə ölkəmizi idarə etsinlər. Bizim gələcəyimiz bu gün məktəblərdə, ali məktəblərdə oxuyan uşaqların, şagirdlərin, tələbələrin əlində olacaqdır. Onların bilikləri, savadı, əlbəttə ki, bizim ölkəmizin gələcəyini şərtləndirəcək. Eyni zamanda, onu da xüsusi qeyd etməliyəm ki, bizim gənclərimiz, uşaqlarımız vətənpərvərlik ruhunda, milli ruhda, milli dəyərlər - ənənəvi Azərbaycan dəyərləri əsasında tərbiyə almalıdırlar. Burada, əlbəttə ki, ailələrin rolu müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda, bütün məktəblərdə müəllimlər şagirdləri milli ruhda, ənənəvi dəyərlər ruhunda tərbiyə etməlidirlər.

Bu gün biz qloballaşma adı altında böyük siyasətin təzahürlərini görürük - gənclərin beyini bəzi xarici dairələr tərəfindən zəhərlənir, gənclər yoldan çıxarılır, onlar yalan informasiyalarla, böhtan, şər, təxribat xarakterli məlumatlarla üzləşirlər. Gənclər bəzi hallarda yəqin edə bilmirlər ki, hansı informasiya yalandır, hansı informasiya doğrudur. Ona görə müəllimlərdən çox şey asılıdır. Biz uşaqlarımızı, yeniyetmələrimizi, gənclərimizi xalqımıza, milli adət-ənənələrimizə zidd olan, dırnaqarası dəyərlərdən qorumalıyıq. Bizim uşaqlarımız Vətənə bağlı olmalıdır, xalqa bağlı olmalıdır, müstəqilliyi hər şeydən üstün tutmalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır, əsrlər boyu qoruduğumuz milli adət-ənənələrimizi qorumalı və onları müdafiə etməlidirlər. Belə olan halda Azərbaycan bundan sonra da müstəqillik və inkişaf yolu ilə gedəcək.

Biz bu gün müstəqil ölkə kimi böyük uğurlara imza atmışıq. İstənilən sahədə Azərbaycan xalqı görür ki, müstəqilliyin üstünlükləri nədən ibarətdir. Bu gün Azərbaycan ləyaqətli ölkədir, özünü beynəlxalq müstəvidə ləyaqətlə aparır. Azərbaycan azad ölkədir, vətəndaşlarımız azadlıq şəraitində yaşayırlar. Azərbaycan iqtisadi sahədə inkişaf edən ölkədir, güclü orduya sahib olan ölkədir. Biz bütün bunları müstəqillik dövründə əldə etmişik. Bu gün Azərbaycan nadir ölkələrdəndir ki, tam müstəqil siyasət aparır - həm xarici, həm daxili. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir. Mən bu dəstəyi hər zaman, hər gün hiss edirəm. Bu dəstək mənə əlavə güc verir. Biz bu dəstəyə arxalanaraq Azərbaycanı inamla irəliyə aparırıq. Bizim uşaqlarımız, gənclərimiz gələcəkdə ölkəmizi bu yolla - müstəqillik yolu ilə aparmalıdırlar ki, Azərbaycan xalqı bundan sonra da heç vaxt heç kimdən asılı olmasın. Biz bundan sonra da heç vaxt heç kimin təsiri altına düşməyək. Dediyim kimi, burada bilik, savad, vətənpərvərlik, milli ruh, ləyaqət xüsusi rol oynayır.

Mən şadam ki, bu gün Azərbaycanda yetişən gənclər məhz bu yüksək meyarlara cavab verir. Əminəm ki, bu müsbət meyillər davam edəcək və bizim uşaqlarımız, gənclərimiz bilik, savad əldə edərək gələcəkdə Vətənə dəyərli vətəndaşlar kimi xidmət edəcəklər və ümumi inkişafımıza öz töhfələrini verəcəklər.

Mən sizi yeni dərs ilinin başlaması münasibətilə bir daha təbrik edirəm, sizə uğurlar arzulayıram.

- Məktəb tikintisi ilə bağlı deyə bilərəm ki, bu il 147 məktəbin tikintisi nəzərdə tutulur. Onların böyük hissəsi artıq hazırdır və Bilik Gününə hazır vəziyyətə gətirilibdir. Bir neçə məktəbin açılışı bu ilin sonuna qədər nəzərdə tutulur. Onu da bildirməliyəm ki, 147 məktəbin 45-i Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilibdir. Artıq 17 ildir ki, Heydər Əliyev Fondu bu sahədə çox böyük işlər görür.
- Mən hələ 2004-cü ildə demişdim ki, biz “qara qızıl”ı insan kapitalına çevirməliyik və bunu əldə etmişik. Çünki son illərdə Azərbaycanda nəinki təhsilin maddi-texniki bazası möhkəmlənib və bu gün bizim bütün ali məktəblərimiz təmirli binalarda yerləşir, eyni zamanda, təhsilin keyfiyyəti artır.
- Bizim məktəblilərimiz beynəlxalq olimpiadalarda yüksək yerlər qazanırlar, olimpiadaların qalibləri olurlar. Deyə bilərəm ki, müəllim peşəsinə maraq bərpa olunub və artır, bu da özünü rəqəmlərdə göstərir.
- Müəllimlərin iş şəraiti yaxşılaşıbdır, müəllimlər gözəl məktəblərdə, ali məktəblərdə dərs deyirlər, müəllimlərin əməkhaqları artırılıb və diaqnostik qiymətləndirmədən keçən müəllimlərimiz yüksək maaş alırlar.
- Təsadüfi deyil ki, Azərbaycanda büdcə xərcləri arasında təhsil sahəsinə ayrılan xərclər ikinci yerdədir. Əgər biz müharibə şəraitində olmasaydıq, birinci yerdə olardı. Çünki hazırda ən böyük xərclərimiz müdafiə sahəsi ilə bağlıdır. Bu da təbiidir.
- Bütün məktəblərdə müəllimlər şagirdləri milli ruhda, ənənəvi dəyərlər ruhunda tərbiyə etməlidirlər.
- Biz uşaqlarımızı, yeniyetmələrimizi, gənclərimizi xalqımıza, milli adət-ənənələrimizə zidd olan, dırnaqarası dəyərlərdən qorumalıyıq.



# Sumqayıt Kimya Sənaye Parkının nəzdində Peşə Təhsil Mərkəzinin açılışı olub

"Sumqayıt Kimya Sənaye Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində Peşə Təhsil Mərkəzinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı mərkəzdə yaradılan şəraitlə tanış oldu.

## Prezident İlham Əliyev açılışda iştirak edib









İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov Prezident İlham Əliyevə Təhsil Mərkəzi barədə məlumat verdilər.

Bildirildi ki, Peşə Təhsil Mərkəzinin binası 500 tələbənin təhsil alması üçün nəzərdə tutulub. Mərkəzin binası 6 korpusdan ibarətdir. Korpuslarda 23 tədris otağı, 13 laboratoriya, 154 nəfərlik akt zalı, 184 nəfərlik yeməkxana, kitabxana, kompüter otağı, idman zalı və 24 inzibati otaq var.

Hazırda Peşə Təhsil Mərkəzinə 2020/2021-ci tədris ili üzrə torna və frezer dəzgahlarının, proqramla idarə olunan dəzgahların operatorları, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, sənayedə quraşdırma işləri üzrə usta, veb-dizayner və proqram təminatçısı ixtisasları üzrə tələbə qəbulu həyata keçirilir.

Mərkəzin təhsil proqramı beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb. Tədris prosesinə Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin mütəxəssisləri cəlb olunub. Tələbələrin ixtisas fənləri üzrə dərslərinin 80 faizi Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində keçiriləcək. Həmçinin praktiki dərslərin təşkili məqsədilə mərkəzdə təlim avadanlıqları stendləri quraşdırılıb.

Qeyd edək ki, sənayeləşmə Prezident İlham Əliyevin iqtisadi siyasətinin mühüm tərkib hissəsidir. Əsas məqsəd tələbatın ödənilməsində yerli məhsulların payının artırılması, ixrac potensialının yüksəldilməsi, ümumilikdə neft-qaz amilindən asılılığın daha da azaldılmasıdır. Bu strategiyanın uğurlarını Sumqayıt Kimya Sənaye Parkının timsalında real rəqəmləri əks etdirən statistikada görmək olar. Belə ki, 2019-cu ilin birinci yarım ili ərzində burada 258 milyon manatlıq məhsul istehsal edilmişdisə, 2020-ci ilin müvafiq dövründə 2 dəfə çox - 534 milyon manatlıq məhsul buraxılıb. İxrac isə 2019-cu ilin ilk 6 ayındakı rəqəmlə (121 milyon manat) müqayisədə 1,5 dəfə artaraq 2020-ci ilin birinci yarısında 182 milyon manat təşkil edib.

**Prezident İlham Əliyev:** Hesablayın, ümumiyyətlə, illik ümumi daxili məhsul hansı həcmdədir.

**Mikayıl Cabbarov:** Möhtərəm cənab Prezident, Sizin tapşırığınızla hazırda Prezident Administrasiyasının aidiyyəti qurumları ilə hər bir bölgəmiz üçün ümumi daxili məhsulun, investisiyaların cəlb edilməsi, adambaşına düşən ümumi daxili məhsulun hamısının qiymətləndirilməsini aparırıq.

**Prezident İlham Əliyev:** Bəli, qiymətləndirin. Çünki mən dəfələrlə icra başçıları ilə görüşlərdə demişdim ki, onların fəaliyyətinin əsas istiqamətlərindən biri də məhz bunlar olmalıdır - investisiyaları cəlb etmək, iş yerləri yaratmaq, eyni zamanda, rayon və şəhərlərdə gedən işlərə təkan vermək.

Xatırladaq ki, hazırda Sumqayıt Kimya Sənaye Parkında məhsul istehsalı və ixrac istiqamətində müsbət dinamika mövcuddur. Ümumilikdə 2019-cu ildə Sumqayıt Kimya Sənaye Parkında 823 milyon manatlıq məhsul istehsal edilib ki, bunun da 276 milyon manatı - təqribən 33 faizi ixrac olunub. 2020-ci ilin ilk 6 ayı ərzində 534 milyon manatlıq məhsul istehsalı ilə Sumqayıt Kimya Sənaye Parkının ölkə sənayesinin qeyri-neft sektorunda (5,7 milyard manat) xüsusi çəkisi 9,3 faiz, 182 milyon manatlıq ixracla ölkə üzrə qeyri-neft sənaye məhsullarının ixracında (910 milyon manat) xüsusi çəkisi 20 faiz təşkil edib. Hazırda parkda fəaliyyət göstərən müəssisələrdə 5500-dən çox insan daimi işlə təmin olunub.

**Prezident İlham Əliyev:** Mən demişəm ki, Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir. Sumqayıtın potensialı daha da güclənir. Bu il burada şüşə istehsalı zavodu da fəaliyyətə başlayacaq. Oraya da böyük investisiyalar qoyulub və bizi şüşə ilə təmin edəcəkdir. Baxmayaraq ki, indi tikinti sektoru pandemiyaya görə bir qədər tənəzzülə uğrayıb, amma o, bərpa edilir və ediləcək. Biz özümüzü yerli şüşələrlə təmin edəcəyik. Bu da böyük nailiyyətdir.

Biz daxili tələbatı nə qədər mümkünsə, yerli məhsullar hesabına təmin etməliyik. Burada Sumqayıt şəhərinin və xüsusilə Kimya Sənaye Parkının mühüm rolu var. Çünki biz son illərdə bu işləri görməklə buna böyük dərəcədə müvəffəq olmuşuq. İndi əsas işimiz ondan ibarətdir ki, baxmalıyıq, harada bizdə idxaldan asılılıq daha böyükdür və bunu əvəzləmək mümkündürsə, bunun üçün xammal varsa, yaxud da texniki-iqtisadi əsaslandırma buna imkan verirsə, mütləq həmin sahələrə böyük diqqət göstərilməlidir. Belə təşəbbüs göstərən şirkətlərə həm rezident statusu verilməlidir, eyni zamanda, dövlət tərəfindən onlara kömək göstərilməlidir, güzəştli kreditlər ayrılmalıdır ki, biz idxaldan asılılığımızı maksimum dərəcədə azaldaq. Çünki hər bir ölkə buna çalışır və xüsusilə əhalisi artan ölkə - Azərbaycan buna mütləq çalışmalıdır.

Təbii ki, bizim neft yataqlarımız nə vaxtsa tükənəcək. Düzdür, biz yaxın müddətdə həm yeni neft, həm də qaz yataqlarının istismarına başlayacağıq, çalışacağıq ki, hasilat səviyyəsi sabit olaraq qalsın. Ancaq bizim əsas gəlir mənbəyimiz olan "Azəri", "Çıraq", "Günəşli" yataqlarında təbii tənəzzül də qaçılmazdır. Biz bu boşluğu məhz qeyri-neft sektoru hesabına təmin etməliyik. Tədiyə balansını müsbət səviyyədə saxlamaq üçün əlbəttə ki, bizə çox keyfiyyətli ixracyönümlü məhsul istehsal edən, valyuta gətirən müəssisələr lazımdır. Çünki bu gün tədiyə balansımızın müsbət səviyyədə saxlanmasının əsas səbəbi neft-qaz amilidir. Amma biz çalışmalıyıq ki, bu amili kənara qoymaqla ixrac-idxal əməliyyatlarında həmişə müsbət saldoya malik olaq. Ona görə ixracyönümlü və idxalı əvəzləyə biləcək istehsalat sahələri mütləq yaradılmalıdır. Burada siqaret fabriki fəaliyyətə başlayıb və artıq statistikada görürük ki, idxaldan asılılıq nə qədər azalıbdır. Elədirmi?

**Mikayıl Cabbarov:** Bəli.

**Prezident İlham Əliyev:** Çünki biz bu fabrik işə düşənə qədər daha çox idxaldan asılı idik. İndi biz 300 milyon manata qənaət etmişik. Eyni zamanda, bu fabrikin inkişaf potensialı da var. Mən fabrikin açılışında demişdim, çalışın ikinci, üçüncü xətləri də qurun ki, istehsalat artsın və biz bu məhsulu ixrac edə bilək. O vaxt da demişdim, mən elə onu istəyirəm ki, bu məhsulun hamısı ixraca getsin, Azərbaycanda heç kim siqaret çəkməsin və daxili tələbat olmasın. Amma əlbəttə ki, bu, mümkün deyil, ancaq buna çalışmalıyıq. O cümlədən təbliğat işlərimizi düzgün qurmalıyıq, bundan başqa, təbii ki, qadağalar qüvvəyə minibdir. Ona görə mən bu fabriki gələcəkdə sırf ixracyönümlü müəssisə kimi görürəm və belə misallar çox gətirmək olar. İndi bizim tütün istehsalımız, keyfiyyətli avadanlığımız var. Mən deyirdim ki, tütün istehsalı olmayan bəzi ölkələr nə üçün bizə məhsul ixrac edir. Onlar tütünü xaricdən alırlar və sonra onu emal edib satırlar. Düzdür, siz də bilirsiniz ki, siqaret istehsalında biz xarici tütündən də asılıyıq. Ancaq qarşıya vəzifə qoyulub ki, yerli tütünçülərdən də məhsul alınsın və beləliklə, kənd təsərrüfatının inkişafına da təkan verilsin.

Bu gün biz Sumqayıt Kimya Sənaye Parkının timsalında yeniləşən, güclənən Azərbaycanı görürük. Xüsusilə yada salmalıyıq ki, bu ərazidə nələr olub, biz bu qərarı verəndə bu ərazi hansı vəziyyətdə idi. Çürümüş, dağılmış, fəaliyyətini başa vuran müəssisələr, həm ekoloji fəlakət zonası, həm də ki, istifadəsiz qalan torpaqlar idi. İndi isə burada yüzlərlə hektar sahədə sənaye parkı qurulubdur. Sahəsi nə qədərdir?

**Mikayıl Cabbarov:** Ümumi ərazisi 508 hektardır.

**Prezident İlham Əliyev:** 508 hektar, amma yəqin ki, hələ genişlənəcək.

"Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru **Nazim Talıbov:** 80 faizdən çox məskunlaşıb, cənab Prezident.

**Prezident İlham Əliyev:** Yaxın iki-üç ildə tam dolacaq?

**Nazim Talıbov:** Bu dinamika ilə getsək bəli, yaxın iki-üç ildə tam dolacaq.

**Prezident İlham Əliyev:** Ona görə yeni ərazilər lazımdır. Burada, Sumqayıtın ətrafında belə ərazilər çoxdur. Siz bəlkə o ərazilər üçün də artıq indidən plan işləyib tərtib edəsiniz ki, - o yerlərin təmizlənməsi, kommunikasiyaların çəkilməsi və digər lazımi məsələlər, - bu iş dayanmasın. Çünki xarici investorların ölkəmizə marağı artır, mən yerli investorları da istiqamətləndirmişəm ki, Azərbaycana pul qoysunlar. Beləliklə, burada inkişaf o qədər sürətli olmalıdır ki, həm işsizlik aşağı səviyyədə olsun, həm idxaldan asılılıq minimuma endirilsin, həm də ixrac qabiliyyətli məhsullar istehsal edilsin.

**Mikayıl Cabbarov:** Möhtərəm cənab Prezident, biz Sizin çağırışınıza artıq sahibkarlardan reaksiya alırıq - həm Azərbaycanda, həm də ölkəmizdən kənarda fəaliyyət göstərən iş adamlarından. Baxmayaraq ki, biz hələ mövcud karantin dövründə yaşayırıq, amma əlaqə saxlanılıb, müraciətlər var. Mən güman edirəm ki, növbəti bir il ərzində bu çağırışın da real nəticələri barədə Sizə məruzə olunacaq.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Eyni zamanda, əlbəttə, mən çıxışımda xaricdə yaşayan azərbaycanlı iş adamlarına da müraciət edirdim ki, onlar da gəlib Azərbaycana vəsait qoysunlar. Azərbaycan onların vətənidir və onlar hər zaman Azərbaycanın dəstəyini görürlər, güclü Azərbaycan onların da gücünü artırır. Ona görə azərbaycanlılar müxtəlif ölkələrdə iqtisadiyyat, kommersiya, biznes sahələrində böyük uğurlar əldə ediblər. Onlar da öz vətəninə vəsait qoymalıdırlar, öz vətəni ilə daim əlaqə saxlamalıdırlar, öz uşaqlarını Azərbaycan dəyərləri əsasında, milli ruhda tərbiyə etməlidirlər ki, övladları həm Azərbaycan dilini bilsinlər, həm də bizim milli dəyərlərimizi yaşatsınlar. Əgər biz bütün bu amilləri düzgün istiqamətə səfərbər edə bilsək, onda Azərbaycana investisiya axını dayanmayacaq. Bizim də əsas məqsədimiz budur. Xüsusilə dünyada yaşanan, pandemiya nəticəsində dərinləşən böhran, əlbəttə ki, bir çox şirkətlərə mənfi təsir göstərib. Ancaq məhz bu şəraitdə biz elə addımlar atmalıyıq ki, postpandemiya dövrünə ən hazırlıqlı ölkələr sırasında olaq və dərhal, vaxt itirmədən yeni inkişaf dinamikasına sahib olaq.

Qeyd olunduğu kimi, Sumqayıt Kimya Sənaye Parkının ərazisinin təxminən 85 faizində müəssisələr yaradılıb. Bu templə yaxın 2-3 il ərzində parkın ərazisi tam dolacaq. Bu, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi sənayeləşmə strategiyasının uğur göstəricisi kimi də qiymətləndirilməlidir. Strategiya özündə gələcəyə aydın baxışı və daimi inkişafı ehtiva edir.

**Prezident İlham Əliyev:** Mən qeyd etdiyim kimi, Sənaye Parkının gələcək inkişafı ilə bağlı təkliflər hazırlayın, yerləri seçin. Çünki yenə də deyirəm, belə templə ki, biz gedirik 2-3 ilə bütün bu yerlər dolacaq və 508 hektarda yer qalmayacaq. Ona görə baxın, harada biz bunu davam etdirə bilərik. Şərt deyil ki, bu əraziyə bitişik olsun, buradan bir qədər kənarda ola bilər, amma əsas odur ki, bu yerə rezident statusu veriləcəkdir. Təmizlik, kommunikasiya işlərinə bəlkə də elə bu ildən, vaxt itirmədən başlamaq olar. Çünki bu da vaxt aparacaq. Biz o zaman bu ərazini təmizləyəndə buna təqribən bir il vaxt lazım oldu. Həm təmizləmə, ondan sonra kommunikasiya işləri. Ona görə bəlkə ilin sonuna qədər müəyyən vəsait də ayrıla bilər ki, yeni seçilmiş yerdə biz bu işləri görək, növbəti investorlar artıq maraq göstərəndə vaxt itirməsinlər.

***

Beləliklə, Sumqayıt Kimya Sənaye Parkının ümumi inkişaf tendensiyası yeniliklərə münasibətilə fərqlənir. Elə nəzdində açılışı olan Peşə Təhsil Mərkəzini də bu xüsusda fərqləndirmək olar. Çünki ilk dəfədir ki, ölkədəki sənaye parkı ərazisində peşə təhsili müəssisəsi yaradılır, bununla da bir neçə strateji hədəfə nail olunur: tələbələrə müasir infrastruktura malik mərkəzdə dövrün tələbinə uyğun bacarıqlar və peşə vərdişləri aşılanacaq. Təlim-tədris prosesində iştirak edəcək mütəxəssislər elə parkın rezidentlərinin yüksəkixtisaslı işçilərindən olacaq. Öz növbəsində tələbələr də Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində təcrübə keçməklə, iş yeri əldə etmək imkanı qazanacaqlar.





# Əmircan qəsəbəsindəki 154 nömrəli məktəbin açılışı olub

## Prezident İlham Əliyev açılışda iştirak edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində Milli Qəhrəman Albert Aqarunovun adını daşıyan 154 nömrəli məktəbin yeni binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Milli Qəhrəman, cəsur tankçı Albert Aqarunovun məktəbin həyətindəki büstünün önünə gül dəstəsi qoydu.

Məktəbdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə bu təhsil ocağı haqqında məlumat verildi.

Bildirildi ki, məktəbin əvvəlki binası 1936-cı ildə inşa edilmişdi. Məktəbin 460 şagird yerlik binasında 22 sinif otağı var idi. Məktəbin binası yararsız vəziyyətdə olduğundan söküləcək yerində 58 sinif otağından ibarət 960 şagird yerlik müasir bina inşa olunub və yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək.

Məktəbdə tikinti işləri 2019-cu ilin aprelində başlayıb və bu ilin avqust ayında başa çatdırılıb. Yeni binada sinif otaqları ilə yanaşı, kimya, fizika laboratoriyaları, informatika kabineti, kitabxana, bufet və idman zalı var. Yeni təhsil ocağında şagirdlərin təlim-tərbiyəsi ilə 52 nəfərdən ibarət pedaqoji heyət məşğul olacaq. Sinif otaqları və laboratoriyalar müasir zəruri avadanlıqlarla təchiz olunub. Məktəbin həyətində geniş abadlıq işləri aparılıb.

Qeyd edək ki, bu təhsil ocağının şərəfli həyat yolu hər bir məktəbli üçün nümunə olan Albert Aqarunovun adını daşıması gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi işində mühüm rola malikdir.





### “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları”nın təsdiq edilməsi barədə

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı**

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesini sanitariya-epidemioloji vəziyyətə uyğun olaraq təşkil etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 10 sentyabr 2020-ci il*

### “Dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 622 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 622 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2567; 2020, № 4, maddə 480) ilə təsdiq edilmiş “Dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi Qaydası”nın 2.1.11-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.1.12-ci yarımbənd əlavə edilsin:

“2.1.12. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq psixoloji xidmət təşkil olunur və “Psixoloji yardım haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməklə psixoloji yardım həyata keçirilir.”.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 12 sentyabr 2020-ci il*

# 2020/2021-ci tədris ilində ümumi təhsillə bağlı aktual məsələlər və hədəflər barədə

## Azərbaycan Respublikası Təhsil nazirinin əmri

"Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 avqust tarixli 312 nömrəli Qərarının icrası haqqında" Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 2020-ci il 2 sentyabr tarixli F-391 nömrəli əmrindən irəli gələn məsələlərin icrası məqsədi ilə və "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** 2020/2021-ci tədris ilində ilk dərslər ibtidai siniflərdə "Gigiyena qaydalarına necə əməl edirəm", V-IX siniflərdə "Müstəqil öyrənmə bacarıqlarına yiyələnmək zamanın tələbidir", X-XI siniflərdə "Məsuliyyətli vətəndaş qüdrətli dövlət deməkdir" mövzularına həsr olunsun.

**2.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının Ümumi və məktəbəqədər təhsil şöbəsi (V.Yaqublu), Nazirliyin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi (V.Xanlarov) və Azərbaycan Respublikasının Təhsil İnstitutuna (A.Nağıyev) tapşırılsın ki, 14 sentyabr 2020-ci il tarixində 2020/2021-ci tədris ilində tədris və təlim-tərbiyə prosesinin təşkilinə həsr olunan təhsil işçilərinin respublika videokonfransını təşkil etsinlər.

**3.** Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, Təhsil Nazirliyinin birbaşa tabeliyində olan ümumi təhsil müəssisələri aşağıda qeyd olunan əlavə tədbirlər əhatə olunmaqla fəaliyyət planı təsdiq edib icrasını ciddi nəzarətdə saxlasınlar:

3.1. 2019/2020-ci tədris ilinin 2-ci yarımilinə dair bütün siniflər üzrə proqram materiallarının şagirdlər tərəfindən mənimsənilməsi vəziyyətini diaqnostik qiymətləndirmə vasitəsilə öyrənib çatışmazlıqların yeni tədris ilində intensiv tədris yolu ilə aradan qaldırılması;

3.2. tabeliklərindəki təhsil müəssisələrində sanitar-epidemioloji vəziyyətin nəzarətdə saxlanılması, mütəmadi dezinfeksiya işlərinin aparılması üçün aidiyyəti dövlət qurumlarına müraciətlərin edilməsi;

3.3. müasir dövrün əsas kompetensiyalarından sayılan müstəqil öyrənmə bacarıqlarının inkişafı məsələsinin pedaqoji heyətin, eləcə də valideynlərin diqqətinə çatdırılması, məsuliyyətli təhsilalanların formalaşdırılması;

3.4. məsafədən öyrətmə və öyrənmənin metodikasının geniş təbliği;

3.5. pandemiya və post-pandemiya dövründə bütün şagirdlərin təlimə cəlb edilməsi üsullarının tətbiq edilməsi;

3.6. ümumi təhsil müəssisəsində sosial davranış qaydalarının təşviqi;

3.7. buraxılış imtahanlarının nəticələrinin təhlilinə əsasən şagird nailiyyətlərinin daha da yüksəldilməsi istiqamətində tədbirlərin görülməsi;

3.8. fənn olimpiadalarının nəticələrinin təhlili əsasında müvafiq tədbirlərin görülməsi;

3.9. xarici dillərin tədrisinin səviyyəsinin yüksəldilməsi;

3.10. "Rəqəmsal bacarıqlar" və "STEAM" pilot layihələri tətbiq olunan təhsil müəssisələrinə bu layihələrin icrası ilə bağlı əməli köməkliyin göstərilməsi;

3.11. ümumi təhsillə bağlı normativ hüquqi aktlardan, Təhsil Nazirliyinin kollegiya qərarlarından, əmrlərindən irəli gələn vəzifələrin təhsil şöbələrinin (idarələrinin) əməkdaşları və ümumi təhsil müəssisələrinin pedaqoji kollektivləri tərəfindən icrasına nəzarətin təmin edilməsi.

**4.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının Ümumi və məktəbəqədər təhsil şöbəsi (V.Yaqublu), Təhsilin inkişafı proqramları şöbəsi (N.Hüseynova), Nazirliyin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi (V.Xanlarov), Azərbaycan Respublikasının Təhsil İnstitutu (A.Nağıyev):

4.1. Koronavirus (COVID-19) pandemiyası ilə bağlı mövcud vəziyyəti və zəruri ehtiyacları nəzərə alaraq distant (məsafədən) təhsilin təşkili ilə bağlı məktəb rəhbərləri və müəllimlərin kurslara cəlb olunması məsələlərini həll etsinlər;

4.2. "Dərs vaxtı" teledərs layihəsinin davam etdirilməsini, "Virtual məktəb" platformasının genişləndirilməsini təmin etsinlər.

**5.** Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri, Təhsil Nazirliyinin birbaşa tabeliyində olan ümumi təhsil müəssisələri:

5.1. bu əmrdə nəzərdə tutulan məsələlərin pedaqoji kollektivlərə çatdırılmasını, müəyyən olunmuş vəzifələrin icrasını həyata keçirmək məqsədilə icra mexanizmlərinin yaradılmasını təmin etsinlər;

5.2. əmrin icrası ilə əlaqədar 2020-ci ilin dekabr və 2021-ci ilin may ayında təsdiqedici sənədlər (protokollar, fotoşəkillər, cədvəllər və s.) əlavə olunmaqla arayış təqdim etsinlər.

**6.** Azərbaycan Respublikası Təhsil Nazirliyi Aparatının Vətəndaşların müraciətləri ilə iş və kommunikasiya şöbəsi (S.Hacıyeva) bu əmrin "Azərbaycan müəllimi" qəzetində dərc edilməsini, Təhsil Nazirliyinin internet səhifəsində yerləşdirilməsini, Naxçıvan MR Təhsil Nazirliyinə, yerli təhsili idarəetmə orqanlarına, Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumi təhsil müəssisələrinə çatdırılmasını təmin etsin.

**7.** Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunsun.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının**
**Təhsil naziri**

*10 sentyabr 2020-ci il*

# Təhsil naziri Emin Əmrullayevin "Bilik günü" münasibətilə təbriki



Əziz şagirdlər, tələbələr, müəllimlər və valideynlər!

Bu gün, yeni tədris ilinin ilk günü hər birinizi salamlayır və 2020-2021-ci tədris ilində uğurlar arzulayıram. Qlobal pandemiya səbəbindən bu il dünyada, eləcə də ölkəmizdə yeni tədris ilinə fərqli formada başlamalı oluruq. Bu, təhsilalanlar, təhsilverənlər, eləcə də təhsil idarəçiləri üçün bir sıra çağırışlar və imkanlar yaradır.

Dövlət başçımız tərəfindən pandemiyanın yayılmasının qarşısının alınması və təsirinin məhdudlaşdırılması istiqamətində mühüm qərarlar verilib. Hökumətimiz tərəfindən bu sahədə bir sıra səmərəli tədbirlər həyata keçirilməkdədir. Görülmüş tədbirlər nəticəsində təhsil ilimizi və tədrisimizi ehtiyatla və inamla bərpa edə bilirik.

Bildiyimiz kimi, karantin rejimində təhsil müəssisələrində tədrisin və təlim-tərbiyə prosesinin təşkili üzrə müvafiq qaydalar və təlimatlar hazırlanıb. Mövcud şəraitdə tədrisin bərpası və uğurlu davamı, təhsil sisteminin bütün iştirakçıları, o cümlədən şagirdlər, tələbələr, müəllimlər və valideynlərin bu qaydalara və təlimatlara riayət etməsindən asılı olacaq.

Yaranmış çətinliklərin öhdəsindən yalnız bir-birimizə dəstək olaraq gəlmək olar. İnanıram ki, hamılıqla qaydalara riayət etməklə hər bir şagirdin təhsilinə nail olacağıq.

Yeni tədris iliniz mübarək olsun!

# Məktəblərdə sağlam sosial-psixoloji mühitin yaradılması əsas şərtlərdən biridir

## Respublika üzrə təhsil işçilərinin ənənəvi sentyabr konfransı keçirilib



Sentyabrın 14-də respublika üzrə təhsil işçilərinin ənənəvi sentyabr konfransı keçirilib.

Konfrans Təhsil naziri Emin Əmrullayev, nazirin müşaviri Rüstəm Ağayev, nazirliyin şöbə müdirləri, nazirlik yanında İctimai Şuranın üzvləri, məktəb direktorları və yerli təhsili idarəetmə orqanlarının rəhbərlərinin iştirakı ilə "Microsoft Teams" platforması üzərindən virtual təşkil edilib.

Təhsil naziri Emin Əmrullayev yeni dərs ili ilə bağlı məlumat verərək bildirib ki, məktəblərdə sağlam sosial-psixoloji mühitin yaradılması əsas şərtlərdən biridir. Pandemiya dövründə şagird-şagird, şagird-müəllim, müəllim-valideyn arasında münasibətlər tənzimlənməlidir.

Müəllimlərin işə qəbulu imtahanlarından danışan Emin Əmrullayev son dönəmdə müəllimliyə marağın daha da artdığını və bu il imtahan verən namizədlər arasında yüksək bal toplayanların əvvəlki illərlə müqayisədə daha çox olduğunu qeyd edib.

Çıxışında "STEAM" və "Rəqəmsal bacarıqlar" layihələrinə də toxunan nazir deyib ki, sözügedən layihələrin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur.

Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Vəfa Yaqublu pandemiya dövründə tədrisin təşkili ilə bağlı çıxış edərək teledərslərdən də söz açıb. Vəfa Yaqublunun sözlərinə görə, dərs cədvəli pandemiya dövrü olduğu üçün fərqli formada hazırlanmalıdır, hansısa fənn onlayn şəkildə, hansısa fənn isə əyani şəkildə keçirilməlidir. Vəfa Yaqublu Təhsil İnstitutu tərəfindən şagirdlərin ötən tədris ilinin ikinci yarımilində əldə etdikləri biliklərin diaqnostik qiymətləndirilməsi ilə bağlı sualların hazırlanaraq yerlərə göndərildiyini də diqqətə çatdırıb. Vəfa Yaqublunun sözlərinə görə, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, övladlarının təhsilini əyani deyil, online formada davam etdirilməsini istəyən valideynlər üçün iltizam formaları hazırlanıb və yerlərə göndərilib.

Daha sonra çıxış edən Təhsil nazirinin müşaviri Rüstəm Ağayev sanitar-gigiyenik normalar haqqında ətraflı məlumat verib. Rüstəm Ağayev bildirib ki, məktəblərdə sosial məsafə gözlənilməli, hər bir müəllim məktəbə tibbi maska ilə gəlməli, hərarət normal olduqdan sonra siniflərə daxil olmalıdır.

Konfrans müzakirələrlə davam etdirilib.

# Heydər Əliyev Fondu tərəfindən 62 təhsil müəssisəsi istifadəyə verilir

⇦ Əvvəli səh.1

## Fondun təhsillə bağlı qarşıya qoyduğu əsas məqsəd bu sahəni inkişaf etdirərək beynəlxalq səviyyəyə çatdırmaqdır

### Gəncə

15 sentyabr - Bilik Günündə Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Təhsil naziri Emin Əmrullayev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov əvvəlcə ulu öndər Heydər Əliyevin Gəncə şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyublar.

Daha sonra Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə yenidən qurulan İdman liseyinə baxış keçirilib. İdman liseyində foyedə ümummilli lider Heydər Əliyevin Azərbaycan idmanının inkişafına göstərdiyi diqqət və qayğını özündə əks etdirən fotoguşə təqdim edilir.

İdman liseyinin dördmərtəbəli yeni binası Heydər Əliyev Fondu tərəfindən inşa olunub. 360 yerlik liseydə 18 sinif otağı var. Yeni istifadəyə verilən təhsil müəssisəsində güləş zalı, futbol, basketbol meydançaları, akt zalı və yeməkxana fəaliyyət göstərir.

Gəncədə idmanın, xüsusən də güləşin böyük ənənələrə malik olduğunu, gəncəli idmançıların isə həm respublika, həm də beynəlxalq səviyyəli yarışlarda böyük uğurlar qazandığını xatırladan Anar Ələkbərov idman liseyində yaradılmış ən müasir şəraitdən istifadə edən gənclərin gələcəkdə yeni-yeni uğurlar qazanacağına və ölkəmizin idman şərəfini ləyaqətlə qoruyacağına əminliyini ifadə edib.

### Samux

Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Samux rayonunda da olub. Burada Sərkar kənd Nizami Gəncəvi adına tam orta məktəbin və Sərkar kənd körpələr evi-uşaq bağçasının binaları istifadəyə verilib. Pandemiya şəraitində, karantin rejiminin tələblərinə uyğun olaraq həyata keçirilən açılış mərasimində, həmçinin Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, məktəbin və bağçanın kollektivi də iştirak ediblər.

Anar Ələkbərov Azərbaycan Prezidenti İlham Əliyevin, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın salamlarını və yeni tədris ilinin başlanması ilə əlaqədar təbriklərini çatdırıb.

1923-cü ildə tikilən binada fəaliyyətə başlayan məktəb üçün 1936-cı, 1959-cu və 1968-ci illərdə artan tələbata uyğun olaraq əlavə korpuslar tikilib. Məktəb sonuncu dəfə 2004-cü ildə təmir edilib, sinif otaqları çatışmadığı üçün bu vaxtadək tədris iki növbədə aparılıb. Məktəbin binası ötən illər ərzində köhnəlmiş və istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Heydər Əliyev Fondu tərəfindən yeni 800 şagird yerlik məktəbin inşasına 2019-cu ildə başlanılıb, tikinti işləri 2020-ci ilin avqust ayında yekunlaşıb.

Üçmərtəbəli 5 korpusdan ibarət məktəb binasında 39 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, iki informatika, hərbi təlim, tibb otaqları, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, qarderob, kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası var. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təchiz edilib.

Həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Məktəbin direktoru Afaq Möyləyeva müəllim kollektivi, şagirdlər və valideynlər adından Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təhsilə, onun inkişafına göstərdikləri diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.

Prezidentin köməkçisi Anar Ələkbərov qeyd edib ki, Heydər Əliyev Fondu fəaliyyətində təhsil sahəsini hər zaman diqqətdə saxlayır, bu sahədə müxtəlif layihələr və proqramlar icra etməklə təhsilin inkişafına öz töhfəsini verir. Fond yeni məktəblərin, məktəbəqədər təhsil müəssisələrinin tikilərək istifadəyə verilməsinə də öz dəstəyini əsirgəmir. Fondun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənib. Proqram çərçivəsində paytaxtda və ölkənin müxtəlif bölgələrində tikilən məktəblər müasir avadanlıq, laboratoriyalar, zəngin kitabxanalar, emalatxana, idman zalları, geniş meydançalar, əyani vəsait və kompüter avadanlığı ilə təchiz edilir.

Sərkar kənd körpələr evi-uşaq bağçası ilə tanışlıq zamanı isə bildirilib ki, bina 1987-ci ildə inşa olunub. 80 yerlik nəzərdə tutulan bağçanın binası qəzalı olduğu üçün 40 yerlik olaraq fəaliyyət göstərib. Bina ötən illər ərzində fiziki köhnəlib və istifadəyə yararsız vəziyyətə düşüb. Heydər Əliyev Fondu tərəfindən yeni körpələr evi-uşaq bağçasının inşasına 2019-cu ilin sonlarında başlanılıb. Tikinti işləri 2020-ci ilin avqust ayında yekunlaşıb.

Yüz yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı və digər inzibati və texniki otaqlar mövcuddur. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, əyləncə qurğuları quraşdırılıb.

Anar Ələkbərov qeyd edib ki, Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" layihəsi çərçivəsində respublika üzrə onlarla uşaq müəssisəsi əsaslı şəkildə təmir edilib, yeni avadanlıqla təchiz olunub, əlavə yardımçı binalar tikilib və kommunal şərait yaxşılaşdırılıb. Fond, həmçinin bu illər ərzində "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı çərçivəsində yeni uşaq bağçaları, körpələr evinin inşası və təmiri sahəsinə öz töhfəsini verib.

Daha sonra Samux rayonunda İmadəddin Nəsimi adına Ziyadlı kənd tam orta məktəbi və körpələr evi-uşaq bağçalarının da yeni binaları istifadəyə verilib.

Bildirilib ki, Ziyadlı kənd tam orta məktəbi 1979-cu ildə inşa olunmuş binada fəaliyyət göstərib. Bina sonuncu dəfə 2006-cı ildə təmir edilib. Məktəbin binası sonrakı illərdə köhnəldiyi üçün yararsız vəziyyətə düşüb.

Heydər Əliyev Fondu tərəfindən yeni 523 şagird yerlik məktəbin əsaslı təmirinə 2019-cu ilin sonlarında başlanılıb. Təmir işləri 2020-ci ilin avqust ayında yekunlaşıb. İkimərtəbəli 4 korpusdan ibarət məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəbin foyesində ümummilli lider Heydər Əliyevin ölkəmizdə təhsilin inkişafına göstərdiyi diqqət və qayğını özündə əks etdirən fotoguşə yaradılıb. Təhsil müəssisəsində 28 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb və əmək təlimi otaqları, kitabxana, yeməkxana və akt zalı, idman zalı və açıq idman meydançası var. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Ziyadlı kənd körpələr evi-uşaq bağçası ilə tanışlıq zamanı isə bildirilib ki, bina 1929-cu ildə inşa olunub. 60 yerlik nəzərdə tutulan bağça qəzalı olduğu üçün 20 yerlik olaraq fəaliyyət göstərib. Bina ötən illər ərzində köhnələrək yararsız vəziyyətə düşüb. Heydər Əliyev Fondu tərəfindən yeni körpələr evi-uşaq bağçasının inşasına 2019-cu ilin sonlarında başlanılıb. Tikinti işləri 2020-ci ilin avqust ayında yekunlaşıb.

Bina 2 mərtəbədən ibarətdir. Bağçada uşaqlar üçün yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı, digər inzibati və texniki otaqlar mövcuddur. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib.

Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, uşaq əyləncə qurğuları quraşdırılıb, söhbətgahlar inşa edilib.

### Ucar

Sentyabrın 15-də Ucar rayonunda da bir sıra təhsil müəssisələri istifadəyə verilib. Onlardan biri də Ucar rayonu, Qarabörk kənd tam orta məktəbinin yeni binasıdır.

Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov rayon icra hakimiyyətinin başçısı Mənsur Məmmədovla birgə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.

Sonra məktəbin yeni binası ilə tanışlıq olub. Bildirilib ki, məktəbin 1978-ci ildə tikilmiş köhnə binası ötən müddətdə yararsız hala düşmüşdü. Heydər Əliyev Fondu tərəfindən 2019-cu ildə 420 şagird yerlik məktəb binasının yenidən tikintisinə başlanılıb. Yeni tədris ilində istifadəyə verilən məktəb binası 2 mərtəbə və 3 korpusdan ibarətdir.

Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə tam təchiz edilib.

420 şagird yerlik ikimərtəbəli məktəb binasında 16 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb və əmək təlimi otaqları, kitabxana, bufet, akt və idman zalları, həmçinin açıq idman meydançası da var.

Həyətyanı sahədə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Həmin gün Ucar şəhər 6 saylı körpələr evi-uşaq bağçasının binasının da açılışı olub. Bildirilib ki, Ucar şəhər 6 saylı körpələr evi-uşaq bağçası 1954-cü ildən fəaliyyət göstərir. Bina istifadəyə yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondu tərəfindən yeni körpələr evi-uşaq bağçası tikilib. İkimərtəbəli, 80 yerlik körpələr evi-uşaq bağçasında uşaqlar üçün yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı və digər inzibati və texniki otaqlar var.

Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, uşaq əyləncə qurğuları quraşdırılıb.

Xatırladaq ki, Azərbaycanda hazırda 4500-ə qədər məktəb var. Son 17 ildə bütövlükdə Azərbaycanda 3700-ə qədər məktəb tikilib və əsaslı şəkildə təmir edilib. Bundan başqa, son 2-3 il ərzində kiçik kəndlərdə modul tipli məktəblərin inşasına da start verilib. Bu il modul tipli 60 məktəbin tikintisinə başlanılıb.

Bu il yeni dərs ili yeni şəraitdə, pandemiya dövründə başlayır. Mövcud vəziyyət nəzərə alınaraq, 2020-2021-ci tədris ili yeni formatda təşkil edilir.

**AZƏRTAC**













# Heydər Əliyev Fondu müxtəlif layihələr və proqramlar icra etməklə təhsilin inkişafına öz töhfəsini verir



Heydər Əliyev Fondu fəaliyyətində təhsil sahəsini hər zaman diqqətdə saxlayır, bu sahədə müxtəlif layihələr və proqramlar icra etməklə təhsilin inkişafına öz töhfəsini verir.

AZƏRTAC Tovuz, Qazax, Salyan və Neftçalada yeni istifadəyə verilən məktəb və məktəbəqədər təhsil müəssisələrinin açılışından xəbərləri təqdim edir.

## Fond tərəfindən Tovuz, Qazax, Salyan və Neftçala rayonlarında inşa və təmir edilən təhsil müəssisələrinin açılışı olub



### Tovuz

Sentyabrın 15-də Tovuz rayonunda Heydər Əliyev Fondunun dəstəyi ilə tikilən Ş.İ.Xətai adına Köhnəqala kənd orta məktəbin binasının əsaslı təmirdən sonra açılışı olub.

Tədbirdə iştirak edən Təhsil naziri Emin Əmrullayev və Heydər Əliyev Fondunun nümayəndəsi Ceyhun Aslanov əvvəlcə Tovuz şəhərində ulu öndər Heydər Əliyevin adını daşıyan parkda Ümummilli Liderin abidəsini ziyarət ediblər.

Sonra məktəb binası ilə tanışlıq olub. Məlumat verilib ki, 1980-ci ildə istifadəyə verilmiş Köhnəqala kənd orta məktəbinin binası köhnəlmiş və qəzalı vəziyyətə düşmüşdü. Məktəbin 624 şagird yerlik yeni binası Heydər Əliyev Fondu tərəfindən inşa olunub. Bina 2 mərtəbəli 4 korpusdan ibarətdir. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə tam təchiz edilib. Məktəb binasında 27 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim və tibb otaqları, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası da var.

Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Tovuz şəhəri A.Qasımov adına tam orta məktəbin əsaslı təmirdən sonra açılışı zamanı isə diqqətə çatdırılıb ki, məktəb binası 90 il bundan əvvəl tikilmişdi və qəzalı vəziyyətdə idi.

Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir olunmuş 624 şagird yerlik yeni məktəb binası sentyabrın 15-də istifadəyə verilib. Məktəb 3 mərtəbəli tədris korpusundan, idman zalından ibarətdir. Zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib. 21 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim və tibb otaqları, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, kitabxana, yeməkxana və akt zalı, məktəbin ərazisində idman zalı var. Məktəbin həyətyanı ərazisində abadlıq, yaşıllaşdırma işləri aparılıb.

Daha sonra Tovuz rayonu Dondar Quşçu kənd tam orta məktəbinin əsaslı təmirdən sonra istifadəyə verilməsi mərasimi olub.

Məlumat verilib ki, 1984-cü ildə orta məktəbin inşa olunmuş 2 mərtəbəli binası ötən illər ərzində fiziki köhnəlmişdi.

Heydər Əliyev Fondu tərəfindən 620 şagird yerlik məktəbin təmirinə 2019-cu ilin sonlarında başlanılıb. Təmir işləri 2020-ci ilin avqust ayında yekunlaşıb. Məktəbin ümumi ərazisi 1,5 hektar sahəni əhatə edir.

İkimərtəbəli məktəb binasında sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, informatika otağı, hərbi təlim, tibb və əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt zalı və idman zalı var. Məktəb otaqları zəruri mebel və avadanlıqlarla tam təchiz edilib.

Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, asfalt və qazon örtüyü döşənib, dekorativ kol və ağaclar əkilib.



### Qazax

Həmin gün Qazax rayonu İsmayıl Şıxlı adına Kosalar kənd tam orta məktəbi də əsaslı təmirdən sonra istifadəyə verilib.

Əvvəlcə Qazax şəhərində ulu öndər Heydər Əliyevin adını daşıyan parkda Ümummilli Liderin abidəsi ziyarət edilib.

Kosalar kənd tam orta məktəbinin yeni binası ilə tanışlıq zamanı bildirilib ki, məktəb 1987-ci ildə tikilib. Fiziki köhnəlmə nəticəsində binada əsaslı təmirə ehtiyac yaranmışdı.

Heydər Əliyev Fondu tərəfindən 2019-cu ilin iyun ayının sonlarında 1176 şagird yerlik məktəbdə əsaslı təmirə başlanılıb. Əsaslı təmir işləri 2020-ci ilin iyun ayının sonlarında yekunlaşıb. Məktəb iki korpusdan ibarətdir. Birinci korpus üç mərtəbəli, ikinci korpus iki mərtəbəlidir. Zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.

30 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, 2 informatika otağı, hərbi təlim, tibb və əmək təlimi otaqları, elektron kitabxana, akt zalı, idman zalı və 2 açıq idman meydançası, güləş zalı var.



### Salyan

Salyanın Aşağı Kürkənd kəndində yeni məktəb binası istifadəyə verilib. Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilən təhsil ocağı 360 şagird yerlikdir.

Məktəbin direktoru Sitarə Təhməzova bildirib ki, Azər Əliyev adına Salyan rayon Aşağı Kürkənd kənd tam orta məktəbi 1949-cu ildə tikilib və birmərtəbəli binada fəaliyyət göstərib. Ötən müddətdə məktəbin binası fiziki köhnəlmədən qəzalı vəziyyətdə olub. Son illər binada cari təmir işləri aparılsa da, müasir standartlara cavab vermirdi. İstilik sistemi, işıqlandırma normal olmadığı üçün tədrisə öz mənfi təsirini göstərirdi.

Bu məqsədlə Heydər Əliyev Fondu tərəfindən yeni 360 şagird yerlik məktəbin inşası həyata keçirilib. Üçmərtəbəli bina 3 korpusdan ibarətdir. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə tam təchiz edilib. 360 şagird yerlik binada 20 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, tibb otaqları, qızlar və oğlanlar üçün əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası var. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Məktəb binasının açılışında Heydər Əliyev Fondunun nümayəndələri, rayon icra hakimiyyətinin əməkdaşları iştirak ediblər. Yeni istifadəyə verilən bina ilə tanışlıq olub, həmçinin şagirdlərlə görüş keçirilib, onlara dərs ləvazimatlarından ibarət hədiyyələr verilib.

Məktəb direktoru göstərilən diqqət və qayğıya, məktəb üçün inşa edilən yeni binaya görə kollektiv və valideynlər adından Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Salyanda yenidən inşa edilərək istifadəyə verilən digər təhsil ocağı isə Salyan şəhər 9 saylı körpələr evi-uşaq bağçasıdır.

1975-ci ildə inşa olunan uşaq bağçası uyğunlaşdırılmış binada fəaliyyət göstərib. İstifadəyə yararsız vəziyyətə düşən körpələr evi-uşaq bağçası üçün Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa edilərək istifadəyə verilib.

Bağçanın müdiri Püstə Hacıyeva bildirib ki, əvvəllər tədris keçilən bina birmərtəbəli və 40 yerlik idi. Bina köhnə olduğu üçün bir sıra çətinliklər yaranırdı. Lakin Heydər Əliyev Fondunun dəstəyi ilə qısa müddətdə 60 yerlik ikimərtəbəli bina inşa olunub. Bağçada yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, anbar, tibb otağı, camaşırxana və digər inzibati və texniki otaqlar mövcuddur.

Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb.

Yeni istifadəyə verilən binada yaradılan şəraitə baxış keçirilib.



### Neftçala

Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilən Neftçala rayon Rafiq Gözəlov adına Xıllı qəsəbə 1 saylı tam orta məktəbi sentyabrın 15-də istifadəyə verilib.

Məktəb direktoru Cəmaləddin Gözəlov bildirib ki, məktəbin binası 1988-ci ildə inşa olunduğundan qəzalı vəziyyətdə idi. Bina istifadə müddətini başa vurduğu üçün istilik sistemi sarıdan da çətinliklər olurdu. Həmçinin otaqların işıqlandırma sistemi zəif olduğu üçün tədrisdə problemlər yaranırdı. Lakin qəzalı vəziyyətə düşən məktəbin binası Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunub. Bina 4 korpusdan ibarətdir. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə tam təchiz edilib.

864 şagird yerlik məktəbdə 38 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, iki informatika otağı, hərbi təlim, tibb və əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası da var. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

İstifadəyə verilən binada yaradılan şəraitə baxış keçirilib. Məktəb direktoru təhsil ocağında yaradılan şəraitə görə pedaqoji kollektiv və qəsəbə sakinləri adından Prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya təşəkkürünü ifadə edib.

Xıllı qəsəbə sakini Rauf Əliyev də qəsəbədə məktəb binasının əsaslı təmir olunmasını ölkəmizdə təhsil infrastrukturunun gücləndirilməsi istiqamətində atılan addımların bariz nümunəsi olduğunu vurğulayıb. O, köhnə binanın tədrisə də mənfi təsir göstərdiyini bildirib. "Amma artıq qəsəbəmizin şagirdləri əsaslı təmir olunan məktəb binasında təhsil alacaqlar. Bu, tədrisə də öz müsbət töhfəsini verəcək. Yaradılan şəraitə görə bu işdə əziyyəti keçənlərə minnətdarlığımızı bildiririk", - deyə o qeyd edib.



# Gəncədə yeni inşa olunmuş 28 saylı məktəbin binası istifadəyə verilib



2020-2021-ci tədris ilində Gəncə şəhərində Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən Azərbaycan Bayrağı küçəsində salınan yaşayış kompleksində inşa edilmiş 28 saylı tam orta məktəbin binasının açılışı olub.

AZƏRTAC xəbər verir ki, pandemiya şəraitində karantin rejiminin tələblərinə uyğun olaraq həyata keçirilən açılış mərasimində Təhsil naziri Emin Əmrullayev, Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov iştirak ediblər.

Mərasim iştirakçıları əvvəlcə binanın girişində ümummilli lider Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafına göstərdiyi diqqət və qayğını özündə əks etdirən fotoguşə ilə tanış olublar.

Məktəbin direktoru Esmira Qaraxanova bildirib ki, 28 saylı tam orta məktəbin ümumi ərazisi 6,23 hektardır. 1170 şagird üçün nəzərdə tutulan məktəbdə hazırda 840 nəfər şagird təhsil alır. Məktəb binası 4 mərtəbədən, 5 korpusdan, 56 sinif otağından (1 ədəd məktəbəqədər, 15 ədəd ibtidai, 29 adi sinif otağı) ibarətdir.

Qeyd edilib ki, məktəbdə kitabxana, fizika, kimya, biologiya laboratoriyaları, informatika, əmək və hərbi kabinetlər yaradılıb. Məktəb üçün həmçinin 136 yerlik yeməkxana, 387 yerlik akt zalı, 540 kvadratmetrlik idman zalı ən müasir tələblər səviyyəsində qurulub.

Müasir təhsil standartlarının yaradıldığı yeni məktəb binasının və buradakı mövcud maddi-texniki bazanın gələcəkdə şagirdlərin bilik və bacarıqlarının inkişafına müsbət təsir göstərəcəyini deyən Esmira Qaraxanova məktəbin pedaqoji kollektivi, şagirdlər və valideynlər adından Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlığını ifadə edib.

Təhsil naziri Emin Əmrullayev 15 sentyabr - Bilik Günü və 28 saylı tam orta məktəb üçün tikilmiş yeni binanın açılışı münasibətilə müəllim və şagirdləri təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

# 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin yeni tədris binası əsaslı təmirdən sonra

Sentyabrın 11-də Təhsil Nazirliyinin 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti, 89 ünvanında yerləşən tədris binasının əsaslı təmirdən sonra açılış mərasimi keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Firudin Qurbanov iştirak edib.

Bildirilib ki, Mərkəzdə uşaq və gənclərin yaradıcı təxəyyülünün inkişafı üçün hər cür şərait yaradılıb. Layihəyə uyğun olaraq, binanın 1-ci mərtəbəsində məşğələ və inzibati otaqlar, akt zalı, mətbəx, 2-ci mərtəbəsində isə məşğələ və köməkçi otaqlar fəaliyyət göstərir.



Təhsil nazirinin müavini Firudin Qurbanov yeni tədris binasının şəraiti ilə tanış olub, mərkəzin fəaliyyətinə uğurlar arzulayıb. Nazir müavini məktəbdənkənar təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərin uşaq və gənclərin yaradıcılıq imkanlarına, bilik və bacarıqlarının inkişaf etdirilməsinə, onların hərtərəfli inkişafına əhəmiyyətli təsir edəcəyini vurğulayıb. Firudin Qurbanovun sözlərinə görə, uşaq, yeniyetmə və gənclərin maraq, meyl, bacarıqlarının müəyyənləşdirilməsi və onların yaradıcılıqlarının, asudə vaxtlarının təşkilinin, fiziki inkişafının dəstəklənməsi, məktəbdənkənar təhsilin istiqamətləri üzrə keyfiyyətin yüksəldilməsi, qazanılan nailiyyətlər ölkəmizdə təhsil sahəsinə, o cümlədən məktəbdənkənar təhsilə göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Nazir müavini xüsusi karantin rejimi dövründə inkişaf mərkəzində təlim-tərbiyə prosesinin, distant təhsil formasının təşkili ilə bağlı tövsiyələr verib, habelə təhsilverənlərin yaşı və sağlamlıq vəziyyətinə görə koronavirus (COVID-19) xəstəliyinə yoluxma riskinin yüksək olmasından asılı olaraq, təlim-tərbiyə prosesinə cəlb edilməsi məsələlərinin təlimin və tədrisin təşkili zamanı nəzərə alınmasını xüsusi qeyd edib.

Qeyd edək ki, 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzində müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərən 22 dərnəkdə 2000 uşaq məşğul olur, 78 nəfər pedaqoji işçi çalışır. 1992-ci ildən fəaliyyət göstərən Mərkəz respublika və beynəlxalq səviyyəli tədbirlərdə uğurla iştirak edib, müəssisənin yetirmələri müsabiqə, sərgi və festivallarda diplom, fəxri fərman və sertifikatlara layiq görülüb.

# Mingəçevirdə məktəb açılışı



Sentyabrın 12-də Mingəçevir şəhəri 16 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılış mərasimi keçirilib.

Açılışda Təhsil nazirinin müşaviri Elnur Nəsibov, Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov və Mingəçevir Şəhər Təhsil Şöbəsinin müdiri Sahib Məmmədov iştirak edib.

Bildirilib ki, məktəb 1176 şagird yerlikdir. Tədris binasında 36 sinif otağı, 6 laboratoriya, 2 texnologiya, informatika, hərbi hazırlıq kabineti və məktəbəhazırlıq otağı var. Məktəbdə 668 şagird, məktəbəhazırlıq qrupunda 45 uşaq təhsil alır. Təhsil müəssisəsinin 59 nəfər pedaqoji, 23 nəfər texniki işçisi var.

Açılış mərasimindən sonra qonaqlar məktəbdə yaradılmış şəraitlə yaxından tanış olublar.

# Nazir müavini Kürdəmir və Sumqayıtda məktəb açılışlarında

Sentyabrın 11-də əsaslı təmir olunmuş Kürdəmir şəhəri 1 nömrəli tam orta məktəbin açılış mərasimi keçirilib.

Açılış mərasimində Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Kürdəmir Rayon Təhsil Şöbəsinin müdiri Rəfail Məmmədov və məktəb direktoru iştirak edib.

Qeyd olunub ki, sözügedən məktəb 1250 şagird yerlikdir. Hazırda məktəbdə 1174 şagird təhsil alır. Təhsil müəssisəsində 35 sinif otağı, 3 laboratoriya, 2 informatika, 2 texnologiya kabineti, 2 məktəbəqədər hazırlıq qrupu üçün otaq, 10 inzibati otaq, 64 yerlik bufet, yeməkxana, 180 yerlik akt zalı və idman zalı var. Məktəb üçün iki geniş, açıq və qapalı idman meydançaları da istifadəyə verilib.

Açılış mərasimindən sonra qonaqlar məktəbin sinif otaqları, fənn kabinetləri, laboratoriya və idman zalı ilə tanış olublar.



***

Sentyabrın 15-də Sumqayıt şəhəri İnşaatçılar qəsəbəsində yerləşən 9 nömrəli tam orta məktəb üçün yeni tikilmiş tədris binasının açılış mərasimi keçirilib.

Açılış mərasimində Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Sumqayıt Şəhər Təhsil Şöbəsinin müdiri Arzu Alızadə və məktəb direktoru iştirak edib.

Açılışda məlumat verilib ki, ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə məktəbin binası tam sökülərək yerində müasir tələblərə cavab verən 1176 şagird yerlik yeni bina inşa edilib. 4 korpusdan ibarət olan məktəb binasında 69 sinif otağı, müasir istilik sistemi ilə təchiz olunmuş fənn kabinetləri, laboratoriyalar, yeməkxana, qapalı idman və akt zalı, kompüter otaqları fəaliyyət göstərəcək. Məktəbdə şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb.

Daha sonra məktəbdə yaradılmış şəraitlə tanışlıq olub.

# Beyləqanda daha bir yeni məktəb

Sentyabrın 14-də Beyləqan rayonu Dünyamalılar kənd 1 nömrəli tam orta məktəb üçün yeni tikilmiş tədris binasının açılış mərasimi keçirilib.

Açılış mərasimində Təhsil nazirinin müavini İdris İsayev, Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, Beyləqan Rayon Təhsil Şöbəsinin müdiri Suliddin Əsgərov iştirak edib.

Bildirilib ki, yeni tikilmiş məktəb 624 şagird yerlikdir. 24 sinif otağından ibarət ümumi təhsil müəssisəsində 6 laboratoriya, 2 texnologiya, informatika, gənclərin çağırışaqədərki hazırlığı kabineti, məktəbəhazırlıq otağı, 240 yerlik akt zalı, idman zalı, kitabxana və bufet fəaliyyət göstərəcək.Təhsil müəssisəsi müasir istilik və işıqlandırma sistemi ilə təchiz edilib, həyətində kiçik idman meydançası və müasir qazanxana sistemi quraşdırılıb.

2020-2021-ci tədris ilində təhsil müəssisəsində 522 şagird, məktəbəhazırlıq qrupunda isə 52 uşağın təhsil prosesinə cəlb olunması planlaşdırılır. Təhsil müəssisəsində 55 nəfər pedaqoji, 19 nəfər texniki işçi çalışır. Beyləqan rayonunda 1 lisey, 48 tam orta, 5 ümumi orta və 2 ibtidai olmaqla, ümumilikdə 55 ümumtəhsil müəssisəsi, 2 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir.

Açılış mərasimindən sonra qonaqlar məktəbdə yaradılmış hər bir şəraitlə yaxından tanış olublar.

# Ağstafa və Tovuzda

Sentyabrın 11-də Ağstafa rayonu, Muğanlı kənd tam orta məktəbinin əsaslı təmir işlərindən sonra açılış mərasimi keçirilib.

Mərasimdə Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdir müavini Orxan Abbasov, Ağstafa Rayon Təhsil Şöbəsinin müdiri Kamran Abbasov və məktəb direktoru iştirak edib.

Bildirilib ki, Muğanlı kənd tam orta məktəbinin əsaslı təmir olunmuş binası 624 şagird yerlikdir. 2019-2020-ci tədris ilində məktəbdə 359 şagird və 20 uşaq məktəbəhazırlıq qrupunda təhsil alıb. Şagirdlərin təlim-tərbiyəsi ilə 49 müəllim çalışır.

Təhsil müəssisəsində müasir sinif otaqları, fizika-kimya laboratoriyaları, biologiya, texnologiya kabineti var. İdman zalı yenidən qurulub, yeni idman qurğuları ilə təchiz olunub. Akt zalı müasir formada düzəldilərək 180 yerlik oturacaqla təmin edilib.100 şagird yerlik bufet müasir avadanlıqlarla təchiz edilib, müasir kitabxana yaradılıb.

Məktəblilər üçün futbol, voleybol, basketbol stadionları da istifadəyə verilib. Məktəb üçün müasir istilik qazanxanası tikilib. Qazla təchiz edilib.

Açılış mərasimindən sonra qonaqlar məktəbdə yaradılmış hər bir şəraitlə yaxından tanış olublar.

***

Sentyabrın 11-də Tovuz rayonu, Aşağı Quşçu kənd tam orta məktəbinin əsaslı təmir olunmuş tədris binasının da açılışı baş tutub.

Açılışda Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdir müavini Orxan Abbasov, Tovuz Rayon Təhsil Şöbəsinin müdiri Elmira Mürşüdlü və məktəb direktoru iştirak edib.

Bildirilib ki, məktəb 1176 nəfər şagird yerlikdir. Məktəbdə müasir tipli kitabxana, idman zalı, 100 nəfərlik yeməkxana, avadanlıqlarla təchiz edilmiş 3 laboratoriya, 192 nəfərlik akt zalı, müasir infrastrukturla təchiz edilmiş sinif otaqları, müəllimlər otağı və digər yardımçı otaqlar yeni tədris ilində şagirdlərin istifadəsinə veriləcək. Məktəbdə 850 şagirdin təlim-tərbiyəsi ilə 93 müəllim məşğul olacaq.

Daha sonra qonaqlar məktəbdə əsaslı təmirdən sonra yaradılmış şəraitlə tanış olublar.

ADNSU - 100

# Uğurlu universitet modeli

## ADNSU yeni inkişaf trendləri yaradır



⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

### Elmi işlərdə ən böyük uğur

Bu illər ərzində ali məktəbin yenilənməsi yönündə atılan ən mühüm addımlardan biri, şübhəsiz ki, ADNSU alimlərinin publikasiya aktivliyinin yüksəlməsi və elmi tədqiqatların keyfiyyət göstəricilərinin yaxşılaşmasıdır. Son 5 il ərzində elm sahəsində əldə olunan uğurlar ADNSU -nun tədris müəssisəsi olmaqla yanaşı, böyük elm mərkəzinə çevrilməsinə zəmin yaradıb. "Web of Science" elmi bazasına daxil olan məqalələrin sayında ciddi artımın əldə olunması isə ADNSU-nun elmi işlərdə ən böyük uğuru sayıla bilər. 2015-ci ildə Təhsil Nazirliyi ilə "Clarivate Analytics" şirkəti arasında əməkdaşlıq sazişinin imzalanmasından sonra ADNSU "Clarivate Analytics" kimi nəhəng elmi məlumat platformasına açıq giriş imkanı əldə edib. Nəticədə 2015-ci ildə ADNSU-nun professor-müəllim heyətinin beynəlxalq jurnallarda 144 (9-u "Thomson Reuters"də) məqaləsi çap olunduğu halda, 2016-cı ildə bu rəqəm 378-ə (51-i "Thomson Reuters"də) çatıb. 2020-ci ildə isə bu rəqəm 420 təşkil edir. Bu, kifayət qədər yüksək nəticədir və bu göstəriciyə görə ADNSU Azərbaycan universitetləri arasında ikinci yeri tutub.

Son illərdə bu müsbət dinamika inkişaf edib və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti "Web of Science" elmi bazası üzrə statistik təhlilə görə uğurlu nəticələr göstərib. 2018-ci ildə ADNSU Azərbaycan universitetlər arasında "Web of Science"da nəşr liderləri sırasında qərarlaşıb. Bu cür keyfiyyət dəyişiklikləri universitet alimlərinin, eləcə də gənc tədqiqatçıların publikasiya fəallığına yol açıb.

ADNSU-da ənənəvi tədqiqat sahələri ilə yanaşı, kompüter elmləri və süni intellekt, kompüter elmləri və sahələrarası tətbiqlər, kompüter elmlərinin nəzəri metodologiyası, mühəndislik istiqamətləri ən çox tədqiq olunan elm sahələrindəndir ki, bu sahədə universitet alimlərinin məqalələri nüfuzlu elmi bazalarda indekslənir. ADNSU-da dünyanın bir sıra nüfuzlu universitetlərinin elmi məhsulların nəşri sahəsində müsbət təcrübəsi nəzərə alınaraq son illərdə "Azerbaijan Journal of High Performance Computing" jurnalının dərcinə başlanılıb. Elmi tədqiqat məhsullarının tanıdılmasında mühüm innovasiyalardan biri olan jurnal universitetin HPC mərkəzi tərəfindən hazırlanır, redaksiya heyəti HPC istiqamətində dünyanın və Azərbaycanın müxtəlif elmi mərkəzlərində fəaliyyət göstərən mütəxəssislərdən təşkil olunub. Jurnalın sonuncu sayı, ümumilikdə isə 3-cü cildi Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyinə həsr olunub. Jurnalda nəşr olunan bütün məqalələr doi identifikasiya nömrəsi ilə təmin olunur və Crossref bazasına daxil edilir. Jurnalın bütün sayları Index Copernicus beynəlxalq indeks bazasına, həmçinin 2019-cu ildən başlayaraq nəşr olunan məqalələr riyaziyyat üzrə, 2020-ci ildən isə texnika elmləri üzrə AAK-ın tövsiyə edilən elmi nəşrlər siyahısına daxil edilib.

### "eazi-START" Startap və İnnovasiya Mərkəzi

Məlumdur ki, son illər dünyanın ali təhsil palitrasında universitet və iş, sənaye, istehsal sahələri ilə əməkdaşlığın gücləndirilməsi və bu kontekstdə tələbələrin yaradıcı ideyalarının təşviq olunması və dəstəklənməsi mühüm yeniliklərdən biri kimi çıxış edir. Bu istiqamət ADNSU-da keyfiyyətcə yeni məzmun və çalar almaqdadır. 2015-ci ilin payızında rektor Mustafa Babanlı tərəfindən Azərbaycan Dövlət Neft və Sənaye Universitetində tələbələrin yaradıcılığı və təşəbbüslərinin reallaşdırılması məqsədilə startap mərkəzinin yaradılması ilə bağlı təşəbbüs irəli sürülüb. İstedadlı tələbələr və magistrlərlə yanaşı, doktorantların, universitet müəllimləri və professorların iştirak etdiyi Startap mərkəzinin məqsədi elmdə olan yeniliklərin əsasında minimal investisiya qoyuluşu tələb edən biznes layihələrinin hazırlanması və istehsalın qurulmasıdır. "eazi START" adı almış bu mərkəz özündə startap məktəbini, kovorkinq məkanını və laboratoriyanı əhatə edir. Startap məktəbində ilkin olaraq ən kreativ tələbələrə startap, ixtiraçılıq və biznes haqqında ən əsas biliklərin verilməsi məqsədilə təlim aparılması üçün Ukrayna və İsraildən olan mütəxəssislər cəlb olunub. Məktəbə qeydiyyat 29 dekabr 2015-ci ildə başlanıb, iştirakla bağlı 247 nəfər müraciət edib. Müvafiq yoxlamadan sonra məktəbin ilkin mərhələsində iştirak üçün 100 nəfərin namizədliyi təsdiqlənib. Onlar arasında yerli tələbələrlə yanaşı, digər ali məktəblərin nümayəndələri, həmçinin, əcnəbi vətəndaşlar da var idi.

### UFAZ layihəsi

ADNSU-nun son illərdə akademik həyatında baş verən ən əhəmiyyətli hadisələrdən və həm də əldə etdiyi uğurlardan biri 2016-2017-ci tədris ilində universitetin nəzdində Azərbaycan-Fransız Universitetinin (UFAZ) fəaliyyətə başlamasıdır. Azərbaycan və Fransa Prezidentlərinin birgə təşəbbüsü ilə yaradılan UFAZ layihəsi Fransanın nüfuzlu Strasburq Universiteti (Unistra) və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti tərəfindən idarə olunan birgə proqramdır. UFAZ-da təhsil 4 ildir. Birinci il tələbələrə intensiv ingilis və fransız dili dərsləri ilə bərabər, əsas texniki fənlər keçirilir.

UFAZ layihəsinin unikallığı onun azərbaycanlı tələbələrə ölkə ərazisini tərk etmədən dünyanın ən qabaqcıl ali məktəblərindən olan Strasburq və Ren 1 universitetlərinin təhsil proqramları əsasında fransalı professorlardan dərs almaq və müvafiq olaraq adıçəkilən universitetlərin diplomlarını qazanmaq imkanı yaratmasıdır. Strasburq Universitetinin dəstəyi ilə UFAZ-da yaradılan laboratoriyalar ən müasir standartlara, mühəndislik, təhlükəsizlik qaydalarına cabab verir. Laboratoriyalardan həm Strasburq, həm də ADNSU tələbələri, dünyanın müxtəlif ölkələrindən professorlar istifadə edir. UFAZ-ın təhsildə uğur qazanmış tələbələri ötən illər ərzində Strasburq Universitetinin təşkil etdiyi iki həftəlik yay məktəbində iştirak ediblər. Bu, Strasburq Universiteti və ADNSU-nun təşkilatçılığı ilə UFAZ layihəsi üçün nəzərdə tutulmuş bir layihədir. 2018-ci ildə ADNSU-nun rektoru, professor Mustafa Babanlının təşəbbüsü ilə Strasburq Universitetinin birinci kursunda oxuyan tələbələrlə UFAZ-ın birinci kursunda oxuyan tələbələrin həm səviyyəsi, həm də tədris ilinin sonunda göstərdikləri nəticələrin müqayisəli təhlili aparılıb. Nəticədə UFAZ tələbələrinin imtahan nəticələrinin Strasburq Universitetinin tələbələrinin nəticələrindən daha yüksək olduğu müəyyənləşib.

Onu da qeyd edək ki, 2019/2020-ci tədris ilində UFAZ-ın ilk məzun buraxılışı reallaşıb. Bu il, eyni zamanda, ilk dəfə UFAZ-ın magistraturasına qəbul imtahanları keçirilib.

- 2015-ci ildə ADNSU-nun professor-müəllim heyətinin beynəlxalq jurnallarda 144 (9-u "Thomson Reuters"də) məqaləsi çap olunduğu halda, 2016-cı ildə bu rəqəm 378-ə (51-i "Thomson Reuters"də) çatıb. 2020-ci ildə isə bu rəqəm 420 təşkil edir. Bu, kifayət qədər yüksək nəticədir və bu göstəriciyə görə ADNSU Azərbaycan universitetləri arasında ikinci yeri tutub.
- 2018-ci ildə ADNSU-nun rektoru, professor Mustafa Babanlının təşəbbüsü ilə Strasburq Universitetinin birinci kursunda oxuyan tələbələrlə UFAZ-ın birinci kursunda oxuyan tələbələrin həm səviyyəsi, həm də tədris ilinin sonunda göstərdikləri nəticələrin müqayisəli təhlili aparılıb. Nəticədə UFAZ tələbələrinin imtahan nəticələrinin Strasburq Universitetinin tələbələrinin nəticələrindən daha yüksək olduğu müəyyənləşib.
- Ali məktəbin beynəlxalq nüfuzunun tanınması istiqamətində mühüm yeniliklərdən biri cari ilin iyununda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dünyanın 118 ölkəsində fəaliyyət göstərən 990 ali təhsil müəssisəsini özündə birləşdirən genişmiqyaslı Frankofoniya Universitetləri Agentliyinə (Agence Universitaire de la Francophonie) üzv qəbul edilməsidir.

### AzİI-İT Akademiya

Məlumdur ki, ali təhsilin keyfiyyətinin yüksəldilməsi, yeni tədris mühitinin yaradılması, mühəndislik üzrə ixtisaslaşan tələbələrin İT üzrə sertifikatlaşması bu gün vacib hədəflərdən hesab olunur. Bu mənada ADNSU-da həyata keçirilmiş ən mühüm innovativ yeniliklərdən biri tələbələrin informasiya texnologiyalarına dərindən yiyələnmələrini dəstəkləmək üçün yaradılmış AzİI-İT Akademiyadır. Azii IT Academy-nin məqsədi peşəkar müəllimlərin və təlimçilərin dəstəyi ilə tələbələrin müasir İT biliklərə yiyələnməsinə şərait yaratmaqdır. Azii IT Academy tələbələrin təhsil müddəti ərzində beynəlxalq sertifikatların alınmasında köməklik göstərir. Akademiyanın tərkibində müasir İT avadanlıqlarla təchiz edilmiş 5 auditoriya mövcuddur. Tələbələrin kurslardan əlavə asudə vaxtlarında İT biliklərinin tətbiqi üçün xüsusi vaxtlar ayrılmışdır. Hazırda Akademiyada Microsoft Academy, Oracle Academy, Bentley Academy, Cisco Academy və SAP Academy fəaliyyət göstərir. Dünya şöhrətli Oracle, Microsoft, Autokad resursları üzərində qurulan İT Akademiyasını artıq yüzlərlə gənc bitirib və müxtəlif səviyyələr üzrə sertifikatlar alıblar. Akademiyanın əsas məqsədi innovativ texnologiyaların təhsilə gətirilməsidir. Eyni zamanda, burada tələbələrin biliklərinin inkişaf etdirilməsi və beynəlxalq sertifikatla təmin edilməklə əlavə imkanların yaradılması nəzərdə tutulub. Azii IT Academy -lara bütün fakültələrdən axın var. Təlimlərdə iştirak edən ən yaxşı tələbələrə sertifikatlar təqdim olunur.

### e-Azi Elektron Kitab Evi

Müasir inkişaf yolunu seçən dünya universitetlərini tələbələrinin 24 saat ərzində istifadəsində olan zəngin kitabxanasız təsəvvür etmək çətindir. Ötən illər ərzində Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələri üçün diqqətəlayiq hadisələrdən biri "AzİI Elektron Kitab Evi" unikal kitabxananın istifadəyə verilməsi olub. "AzİI Elektron Kitab Evi" 7 gün, 24 saat fəaliyyət göstərir. 800 kv.m-lik sahəni əhatə edən kitabxana universitetin elektron şəbəkəsinə qoşulub. Kitabxananın ikinci mərtəbəsi oxucu zallarından ibarətdir. Burada məşhur kitabxanaların elektron resurslarına, o cümlədən xarici universitetlərin bazalarına daxil olmaq mümkündür. "ADNSU AzİI e-Kitab Evi" 5 əsas funksiyanı-elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə funksiyalarını yerinə yetirməyə çalışaraq ixtisaslaşmış və təsnifləşdirilmiş çox sahəli kitab fondları, oxucu zalları və elektron kataloqla, "EBSCO" və "One Petro" beynəlxalq nəşriyyat bazalarının universitet üçün açıq olan kitab və jurnal məqalələri bazaları ilə oxuculara differensial xidmət göstərir. "AzİI e Kitab Evi" 2017-ci il ildən kitabxanalararası Konsorsiumun üzvüdür. Konsorsiumun xətti ilə "EBSCO" beynəlxalq nəşriyyat bazasının 9000 jurnalı, 25000 jurnal məqaləsi universitet əməkdaşlarının və kitabxana oxucularının tam istifadəsindədir. "One Petro" beynəlxalq nəşriyyat bazasına daxil olan 21 nəşriyyat və onun resursları da oxucuların istifadəsindədir. "ADNSU AzİI e-Kitab Evi" "EBSCO" bazası üzrə Azərbaycan Kitabxana İnformasiya Konsorsiumu çərçivəsində oxuculara elektron informasiya təminatçısı kimi fəaliyyət göstərir.

### Beynəlxalq əməkdaşlıq

Uğurlu universitet modeli olaraq ADNSU-nun fəaliyyətində beynəlxalq aspekt mühüm əhəmiyyət daşıyır. Hazırda Azərbaycan Neft və Sənaye Universiteti Corciya Dövlət Universiteti (ABŞ), Zigen Universiteti (Almaniya), Ploeşti Neft və Qaz Universiteti (Rumıniya), Tronheym Şəhər Elm və Texnologiya Universiteti (Norveç), Rusiya Dövlət Neft və Qaz Universiteti, Tümen Dövlət Neft və Qaz Universiteti (Rusiya), Genuya Universiteti (İtaliya), Nitsa Sofiya-Antipolis Universiteti (Fransa), Afina Milli Texniki Universiteti (Yunanıstan), Xəzər Dövlət Texnologiya və Mühəndislik Universiteti (Qazaxıstan) kimi xarici ali məktəblərlə sıx əməkdaşlıq edir. Eyni zamanda, Almaniyanın Zigen Universiteti ilə Biznesin təşkili üzrə birgə bakalavr (BBA), ABŞ-ın Corciya Dövlət Universiteti ilə Biznesin təşkili üzrə birgə magistr proqramları da (MBA) xüsusi qeyd oluna bilər.

Ali məktəbin beynəlxalq nüfuzunun tanınması istiqamətində mühüm yeniliklərdən biri cari ilin iyununda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dünyanın 118 ölkəsində fəaliyyət göstərən 990 ali təhsil müəssisəsini özündə birləşdirən genişmiqyaslı Frankofoniya Universitetləri Agentliyinə (Agence Universitaire de la Francophonie) üzv qəbul edilməsidir. ADNSU-nun nəzdində Azərbaycan-Fransız Universitetinin (UFAZ) uğurlu fəaliyyəti ali məktəbin təşkilata üzvlüyünə zəmin yaratmaqla yanaşı, hər iki institutun Frankofoniya Universitetləri Agentliyinin qlobal şəbəkəsinə daxil olmasına və təşkilatın təklif etdiyi layihələrdən faydalanmasına imkan verir. 1961-ci ildə Kanadanın Monreal şəhərində yaradılan Frankofoniya Universitetlər Agentliyi fransız dilində elm və tədqiqat sahələri üzrə fəaliyyət göstərən institutlar arasında şəbəkələşməni təmin etməklə yanaşı, tədrisin, tədqiqatın və idarəetmənin keyfiyyətinin yaxşılaşdırılması, məzunların işə qəbulu və inkişafa təkan verən layihələrin təşviqi istiqamətində fəaliyyət göstərir, davamlı inkişaf, səhiyyə və digər sahələrdə mövcud problemlərin həllinə yönələn layihələrə də dəstək verir.

### İşlə təmin olunma faizinə görə ilk pillələrdə...

Məlumdur ki, mövcud qlobal dəyişikliklər əmək bazarının zəruri ehtiyaclarını ödəyən yüksəkixtisaslı mütəxəssislərin hazırlanması ilə şərtlənir. Bu, digər tərəfdən, daha hazırlıqlı və bilikli mütəxəssislərə üstünlük verən işəgötürənlərin tələbləri ilə də bağlıdır. Əmək bazarının tələblərinə cavab olaraq hazırda ADNSU-da müasir sənaye və iqtisadiyyatın tələblərinə uyğun kadrlar yetişdirilir. Məzunların işlə təmin olunmasını dəstəkləmək məqsədilə ADNSU-da 2016/2017-ci tədris ilindən etibarən Məzun-Karyera Mərkəzi yaradılıb. Universitetdə ənənəvi olaraq keçirilən Məzun-Karyera sərgiləri gənc mütəxəssislərin birbaşa şirkət nümayəndələri ilə təmas qurmasında və işlə təmin olunmasında mühüm vasitəçi rolunu oynayır. Məzun-Karyera Mərkəzi gənclərin işə düzəlmə zamanı üzləşdikləri məsələlərlə bağlı onlara yerli və əcnəbi mütəxəssislərin, şirkət nümayəndələrinin iştirakı ilə təlimlər təşkil edir, ildə iki dəfə - dekabr və may aylarında işəgötürənlərin vakant yerlərlə bağlı informasiya təqdim etdikləri Məzun-Karyera Sərgiləri təşkil edir.

2020-ci ildə dünyanı bürümüş koronavirus pandemiyası ilə mübarizə məqsədilə ölkəmizdə elan edilmiş karantin rejimi şəraitində yuxarı kurs tələbələri və məzunlar üçün VIII Məzun-Karyera Sərgisi keçirilib. Onlayn formatda baş tutan sərgidə 37 dövlət qurumu və özəl şirkət tərəfindən 217 vakant iş yeri təqdim olunub. Tədbir çərçivəsində ADNSU və SOCAR-STP birgə müəssisəsi arasında əməkdaşlığa dair müqavilə imzalanıb. Sənəd ADNSU tələbələrinin bu müəssisədə geniş tərkibdə təcrübə, o cümlədən ödənişli təcrübə keçmələrində, eləcə də gələcəkdə işlə təmin olunmalarında mühüm rol oynayacaq. Tədbir çərçivəsində *career.asoiu.edu.az* saytının təqdimatı olub.

Qeyd edək ki, ADNSU-da ali təhsilin keyfiyyətinin yüksəldilməsi, yeni tədris mühitinin yaradılması, mühəndislik üzrə ixtisaslaşan tələbələrin İT üzrə sertifikatlaşması və digər yeniliklər öz bəhrəsini verməkdədir. Məhz bu dəyişikliklərin nəticəsidir ki, işlə təmin olunma faizinə görə ADNSU ölkənin ali təhsil müəssisələri arasında ilk pillələrdə yerləşib.

### ADNSU təhsil xidmətlərini ixrac etməyə başladı

Qloballaşma universitetlər qarşısında bir sıra mühüm vəzifələr qoyur ki, bunların arasında təhsil xidmətlərinin coğrafiyasının ölkə hüdudlarından kənara çıxması və geniş yayılmasıdır. Universitetlərin beynəlmiləlləşməsi yolunda mühüm addımlardan biri kimi bu hədəfə nail olmaq üçün ADNSU-nun səyləri öz bəhrəsini verib. Cari il iyulun 24-də Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə Banqladeşin Center for İnternational Studies (CİS) təhsil müəssisəsi arasında müqavilə imzalanıb. Onlayn formatda ADNSU-nun rektoru, professor Mustafa Babanlı və Banqladeşin CİS tədris müəssisəsinin rəhbəri Xorşed Alam tərəfindən imzalanmış françayzinq müqaviləsinə əsasən Dəkkədə ASOİU İnstitute of Asia-nın fəaliyyətə başlanması nəzərdə tutulur. Müqaviləyə görə ASOİU İnstitute of Asia ADNSU-nun əmtəə nişanından, (ASOİU - ingiliscə ADNSU-nun abreviaturasıdır), tədris proqramlarından, professor-müəllim heyətinin tədris imkanlarından, e-Azi Elektron Kitab Evinin bazasından, idarəetmə sistemindən istifadə hüququ qazanaraq bakalavr təhsil pilləsi üzrə təhsil verəcək. 2020/2021-ci tədris ilində ASOİU İnstitute of Asia-ya Cənubi Asiyanın müxtəlif ölkələrindən olan 100-dən artıq tələbənin qəbulu planlaşdırılıb və müqaviləyə əsasən onlar 4 illik tədris müddətinin 2 ilini ADNSU-da alacaqlar. Tədris müəssisəsinin bakalavr pilləsi üzrə ilk məzunlarının magistratura təhsilini 1il +1il sistemi ilə Bakıda və Dəkkədə alacaqları nəzərdə tutulur.

Beləliklə də 100 illik yubileyinə ali təhsilimizə verdiyi mühüm töhfələrlə gedən Azərbaycan Dövlət Neft və Sənaye Universiteti qarşısına qoyduğu hədəflərə inamlı irəliləməkdədir.



Əhmədiyyə Cəbrayılov - 100

# "Atam təhsilə çox böyük önəm verirdi"

*Cavanşir Cəbrayılov:*
"Partizan hərəkatında çiyin-çiyinə döyüşən silahdaşları atamla bağlı xatirələrini mənimlə bölüşdülər"

Niyazi RƏHİMOV

Elə qəhrəmanlar var ki, onlar haqqında nə qədər yazılsa, nə qədər danışılsa da kifayət etmir. Belə qəhrəmanlardan biri də xalqımızın igid oğlu Əhmədiyyə Cəbrayılovdur. Qəzetimizin ötən nömrələrinin birində Armed Mişel, Xarqo ləqəbi ilə bütün Fransanın qəhrəmanlıq nümunəsinə çevrilən həmyerlimiz Əhmədiyyə Cəbrayılov haqqında geniş məqalə dərc etmişdik. Həmin məqalədə daha çox Əhmədiyyə Cəbrayılovun döyüş yolundan, igidliklərindən söhbət açmışdıq. Bu dəfə isə oxucularımıza qəhrəmanımızın aldığı təhsildən, bir vətəndaş kimi cəmiyyətə faydalılığından, nümunəvi ailə başçısı olmasından söhbət açacağıq. Bu məqsədlə də Əhmədiyyə Cəbrayılovun oğlu Cavanşir Cəbrayılovla olan söhbəti oxuculara təqdim edirik.

### "Atam təhsil almağa həmişə həvəsli olub"

Atam bizimlə söhbətində həmişə təhsilin nə qədər önəmli olduğunu deyərdi. Özü də çətin illər olmasına baxmayaraq təhsil almağa, oxumağa həmişə həvəsli olub. Orta məktəbi bitirdikdən sonra İpəkçilik texnikomunu aqranom ixtisası üzrə bitirən atam Quba-Xaçmaz zonasında aqronom işləyib. Burada işləyən zaman qəzetlərin birində elan görür ki, Ukraynada hərbi məktəb açılıb. Rayon hərbi komissarlığına müraciət edir ki, onu həmin məktəbə göndərsinlər. Atam ora oxumağa gedərkən hələ müharibə başlamamışdır. Beləliklə, atamı həmin məktəbə göndərirlər və orada atama hərbi bilikləri öyrədirlər. Bununla yanaşı, həmin hərbi məktəbdə alman dili dərsi də keçirlər. Öyrənməyə həmişə böyük marağı olan atam burada alman dilini öyrənir. Təsadüfi deyil ki, bu dili mükəmməl şəkildə bilməsi əsir düşdüyü vaxtlarda onun çox işinə yarayır. Ümumiyyətlə, atamda dillərə qarşı bir həvəs də var idi. O, fransız dilini də qısa müddət ərzində öyrənib və bu dildə də səlis danışırdı. Partizan hərəkatına qoşularkən atamın rus, alman, fransız dillərini bilməsi onu başqalarından fərqləndirirdi. Ona görə də Fransada olan zaman ən çətin tapşırıqları atama tapşırırlarmış. Dil biliklərindən başqa həm də atam çox cəsur, qorxmaz adam olub.

Atam üçün oxumaq, öyrənmək heç vaxt gec deyildi. O, ali təhsilini 1964-1970-ci illərdə alıb. İndiki Dövlət Aqrar Universitetinin aqronomluq fakültəsini bitirib. Ali məktəbi bitirəndə atamın 50 yaşı var idi.

### "Şarl De Qollun atama xüsusi rəğbəti var idi"

Atamla Şarl De Qoll ilk dəfə 1944-cü ildə tanış olublar. Bir gün Şarl De Qoll Fransa Partizan Hərəkatının fəal üzvləri haqqında məlumat toplayarkən tez-tez Armed Mişel, Xarqo, Rus Axmed və atama məxsus digər adlara rast gəlir. O, köməkçisinə bu adamlarla görüşmək istədiyini bildirir. Atam Şarl De Qolla görüşə gedir. De Qoll köməkçisindən soruşur ki, bəs qalan adamlar haradadır? Atam cavab verir ki, bu adların hər biri ona məxsusdur. Bu görüşdən sonra atamın De Qolla şəxsi münasibətləri yaranır və onun ən yaxın silahdaşlarından birinə çevrilir.

### "Əhmədiyyə Cəbrayılov həm də nümunəvi vətəndaş idi"

Atam müharibədən sonrakı dövrlərdə həmişə vətəni, eli-obası üçün canla-başla çalışıb. Ona iki dəfə avtomobil hədiyyə ediblər. Bilirsiniz ki, həmin avtomobillərdən birini Sülh Fonduna bağışlayıb. İkinci dəfə atama avtomobil hədiyyə edəndə isə həmin maşının pulunu kolxozun hesabına köçürdü. Sonra bu pulla kəndimizlə çayın arasına 200 metrlik bənd salınıb. Atam vətəninə o qədər bağlı adam idi ki, kəndin hər bir problemini öz problemi kimi bilirdi. Məsələn, kəndimizdə su problemi var idi. Atam getdi Bakıdan smeta layihəsi hazırlanmağını xahiş elədi və kəndimizə su çəkdirdi. Kolxozda abadlıq, quruculuq işləri görürdü. Kənd sakinlərinin problemlərini də həmişə diqqətdə saxlayardı. Kənd sakinlərindən hər hansı birinin evinin təmirinə ehtiyac olduqda iməcilik təşkil edərdi. Həmin sakinin probleminin aradan qaldırılmasına köməklik göstərərdi. Bundan başqa, kənddə iki nəfər arasında münaqişə düşərdisə onları evə dəvət edərdi. Süfrə açdırardı və onları barışdırıb yola salardı. Bir sözlə, Əhmədiyyə müəllim əsl el ağsaqqalı idi.

### "Ümummilli lider Heydər Əliyev Fransaya səfər edərkən məni də özü ilə aparmışdı"

Ulu öndər Heydər Əliyev atama həmişə xüsusi diqqət və qayğı göstərib. Bu qayğını biz bu gün də ölkə Prezidenti cənab İlham Əliyevdən, Birinci vitse-prezident Mehriban xanım Əliyevadan görürük. Atamın 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam ailə üzvlərimizin sevincinə səbəb oldu. Ölkə Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.

1997-ci ildə ulu öndər Heydər Əliyevin Fransaya səfəri var idi. Ümummilli liderimiz bu səfərə məni də özü ilə apardı. Səfər çərçivəsində mən atamın qəhrəmanlıq göstərdiyi torpaqlara görə bildim. O vaxt Fransanın Prezidenti olan Jak Şirakla görüşdüm. Bundan başqa partizan hərəkatında atamla çiyin-çiyinə döyüşən silahdaşları ilə tanış oldum. Onlar atamla bağlı xatirələrini mənimlə bölüşdü. Bu səfər mənim həyatımda ən yaddaqalan səfər idi.

Sonra mən Fransada daha iki dəfə səfərdə oldum. 2006-cı ildə Mehriban xanım Əliyeva, 2009-cu ildə isə Leyla xanım Əliyeva ilə Fransada təşkil olunan tədbirlərdə iştirak etdim. Bu səfərlərdə iştirakıma şərait yaratdıqlarına görə Prezident ailəsinə dərin minnətdarlığımı bildirirəm.

### "O həm də çox gözəl insan, nümunəvi ailə başçısı idi"

Atam qanlı-qadalı müharibələrdə olmasına baxmayaraq, çox mülayim insan idi. Evimizə istər Moskvadan, istərsə də Bakıdan mötəbər qonaqlar gəlirdi. Bununla yanaşı, həmçinin, orta məktəb şagirdləri də bizə qonaq gəlirdi. Sizi inandırım ki, atam mötəbər qonaqlara necə münasibət göstərirdisə, balaca məktəblilərə də o cür həssaslıqla yanaşırdı.

Yeddi uşaq sahibi olan atamın xüsusi tərbiyə metodu var idi. O, bizimlə çox mülayim, mehriban davranırdı. İxtisas, peşə seçməyimizə heç vaxt qarışmayıb. Deyirdi ki, hansı peşənin sahibi olursunuzsa olun, işinizin mütəxəssisi olun. Bir də vicdan məsələsi, gözütoxluq onun üçün ən vacib amillər idi. Atamın tələblərindən biri də o idi ki, oğlan uşağı mütləq əsgərlikdə olmalıdır.

- Bir gün Şarl De Qoll Fransa Partizan Hərəkatının fəal üzvləri haqqında məlumat toplayarkən tez-tez Armed Mişel, Xarqo, Rus Axmed və atama məxsus digər adlara rast gəlir. O, köməkçisinə bu adamlarla görüşmək istədiyini bildirir. Atam Şarl De Qolla görüşə gedir. De Qoll köməkçisindən soruşur ki, bəs qalan adamlar haradadır? Atam cavab verir ki, bu adların hər biri ona məxsusdur.
- 1997-ci ildə ulu öndər Heydər Əliyevin Fransaya səfəri var idi. Ümummilli liderimiz bu səfərə məni də özü ilə apardı. Səfər çərçivəsində mən atamın qəhrəmanlıq göstərdiyi torpaqlara görə bildim.
- Yeddi uşaq sahibi olan atamın xüsusi tərbiyə metodu var idi. O, bizimlə çox mülayim, mehriban davranırdı. İxtisas, peşə seçməyimizə heç vaxt qarışmayıb. Deyirdi ki, hansı peşənin sahibi olursunuzsa olun, işinizin mütəxəssisi olun.

# İctimai Şura üzvləri ilə yeni tədris ilinə dair müzakirə aparılıb



Sentyabrın 11-də nazirlik yanında İctimai Şuranın üzvləri ilə videokonfrans keçirilib.

Onlayn görüşdə Təhsil nazirinin müşaviri Elnur Nəsibov, Ümumi və məktəbəqədər təhsil şöbəsinin aparıcı məsləhətçisi Gülarə Xudiyeva, Təhsil İnstitutunun direktor müavini Ülkər Babayeva da iştirak edib.

Görüşdə xüsusi karantin rejimi dövründə ölkəmizdə fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti qaydaları, eləcə də tədris planları və nümunəvi dərs cədvəlləri barədə geniş fikir mübadiləsi edilib.

Görüşdə yeni tədris ilinin təşkilinə dair keçirilmiş ictimai sorğunun nəticələrinin müzakirəsi də aparılıb. Həmçinin nazirlik yanında İctimai Şuranın fəaliyyətinə dair nəzərdə tutulan işlərlə bağlı bir sıra məsələlər müzakirə edilib və təkliflər dinlənilib.

# Layihəyə yeni qoşulan məktəblərin direktorları ilə onlayn konfrans

"Rəqəmsal bacarıqlar" layihəsinin tətbiq olunacağı yeni ümumi təhsil müəssisələrinin direktorları ilə onlayn konfrans keçirilib.

Tədbirdə Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov, "Rəqəmsal bacarıqlar" layihəsinin rəhbəri Nilüfər Rəhimova, "Alqoritmika - Azərbaycan" şirkətinin layihələr üzrə şöbəsinin direktoru Qəmər Məmmədova və təhsil müəssisələrinin direktorları iştirak ediblər.

Tədbirdə çıxış edən Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov yeni tədris ilində təhsil prosesinin karantin rejimində təşkili qaydaları barədə danışıb.

Daha sonra Nilüfər Rəhimova və Qəmər Məmmədova layihənin yeni məktəblərdə tətbiq olunma mərhələləri barədə ətraflı məlumat veriblər. Şagirdlərin alqoritmik və məntiqi düşüncə qabiliyyətlərini, eləcə də proqramlaşdırma bacarıqlarını inkişaf etdirmək məqsədi ilə Azərbaycanda "Rəqəmsal bacarıqlar" layihəsinin 2017-2018-ci tədris ilindən etibarən həyata keçirildiyi qeyd olunub.

Bildirilib ki, yeni tədris ilində layihəyə 100 yeni məktəb cəlb olunacaq. Beləliklə, 2020-2021-ci tədris ilində layihə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Biləsuvar, Şamaxı, Lənkəran, Şirvan və Şəki üzrə 222 məktəbin II-IX siniflərindən ibarət olan 100 mindən çox şagirdi və 1100-dən çox müəllimi əhatə edəcək.

Layihə barədə ətraflı məlumat verildikdən sonra layihə təmsilçiləri direktorların suallarını cavablandırıblar.

# "Virtual məktəb"lə bağlı alternativ müraciət vasitələri

Sentyabrın 15-dən etibarən "Virtual məktəb" layihəsi ilə bağlı 146-4 "Qaynar xətt" xidməti istifadəyə verilib.

Daxil olan müraciətlərin çoxluğu nəzərə alınaraq, vətəndaşlara digər alternativ resurslardan istifadə imkanları yaradılıb.

Belə ki, "Virtual məktəb"lə bağlı "Qaynar xətt" xidməti ilə yanaşı *teams@tsii.edu.az* elektron poçt ünvanına, *virtual.edu.az* vasitəsilə "Virtual bələdçi"nin tez-tez verilən suallar xidmətinə, "Virtual məktəb"in rəsmi "Facebook" səhifəsinin *(https://rb.gy/fdrnxn)* ismarıc bölməsinə müraciət edə bilərsiniz.




Xatırladaq ki, pandemiya şəraitində vətəndaşların təhsil sahəsi ilə bağlı qarşılaşdıqları bir sıra çətinlikləri həll etmək, eləcə də onlara psixoloji dəstək məqsədilə Təhsil Nazirliyi mövcud xidmətlərini daha da təkmilləşdirir və yeni xidmətlər təqdim edir.

Artıq bir müddətdir ki, istifadəyə verilən 146-3 "Qaynar xətt" xidmətinə mənəvi-psixoloji dəstəyə ehtiyacı olan şagirdlər, müəllimlər, eləcə də bütün vətəndaşlar müraciət edə bilərlər. Bu zaman hər bir vətəndaşa məktəb psixoloqları tərəfindən telefon vasitəsilə psixoloji konsultasiya təşkil edilir, lazımi dəstəklə təmin olunur. 146-3 "Qaynar xətt" xidməti həftəiçi hər gün saat 10:00-dan 18:00-dək fəaliyyət göstərir.

# Yeni dərs ili təhsilimiz üçün yeni imkanlar və uğurların davamı ilə əlamətdar olacaq

Ruhiyyə DAŞSALAHLI

Dünyada tüğyan edən COVID-19-un yaydığı təhlükəyə baxmayaraq, məktəblər öz vəzifəsinin icrasına başladı. Məktəblilərin sağlamlığını təhlükəyə atmadan onların təhsil hüququnun necə təmin ediləcəyindən Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Rəşad Tağıyev "Azərbaycan müəllimi" qəzetinə müsahibəsində danışdı.



"İnanıram ki, təhsildə keyfiyyətin artırılması yönündə qarşıya qoyduğumuz hədəflərə doğru irəliləyə biləcəyik"

## Birgə səylər, yekdil iradə

*- Dünyanı bürüyən pandemiya sınağına baxmayaraq, yeni dərs ilinə start verildi. Belə görünür ki, növbəti tədris ili yeni tələblər və yeni qaydalarla müşayiət olunacaq. Əsas gözləntiləriniz nədən ibarətdir?*

- Yeni dərs ili öncəsi nəinki təhsil ictimaiyyətini, bütün cəmiyyəti düşündürən "necə başlayaq?!" sualının hərtərəfli və peşəkar müzakirələrdən sonra həlli tapıldı. Hər kəs anlayır ki, bu, təkcə təhsil sisteminin deyil, bütün cəmiyyətin qarşısındakı sınaqdır və bu sınaqdan çıxmağın yolu yalnız birgə səylər və yekdil iradə sayəsində mümkündür.

İlk öncə yeni tədris ili münasibətilə paytaxt məktəblərinin pedaqoji heyətini, şagird və valideynləri ürəkdən təbrik edir, bol-bol uğurlar arzulayıram! Davam edən pandemiya vəziyyətində tədris prosesinin mövcud qaydalar çərçivəsində həyata keçirilməsində bütün təhsil ictimaiyyətinin var gücü ilə çalışacağına inanıram.

Təhsil müəssisələrində fasilə yarandığı müddətdə ictimaiyyət arasında tədrisin ənənəvi qaydada bərpa olunması üçün nə qədər böyük istəyin olduğunu hamı gördü. Bütün bunlar təhsil işçilərinə əlavə stimul verir. Bir daha cəmiyyətin mütləq əksəriyyətinin təhsilə baxışının, təhsildən gözləntilərinin müsbət mənada daha da dəyişildiyi, təhsilin mahiyyətinə verilən müstəsna dəyərin nə qədər böyük olduğu aydın şəkildə müşahidə olundu.

Bildiyimiz kimi, müəyyən yumşalmalar olsa da, ölkəmizdə xüsusi karantin rejimi davam edir. Digər tədris illərindən fərqli olaraq Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə ölkə ərazisində fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə" Qərarı ilə bu il ümumi təhsil müəssisələrində sentyabrın 15-dən mərhələli olaraq əyani (ənənəvi) və distant (məsafədən) formada tədris prosesi başlayır:

- İbtidai təhsil səviyyəsi (I-IV siniflər) üzrə - 2020-ci il sentyabrın 15-dən;
- ümumi təhsilin məktəbəhazırlıq mərhələsi (5 yaş) üzrə - 2020-ci il oktyabrın 1-dən;
- ümumi təhsilin ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə - 2020-ci il oktyabrın 1-dən;
- ümumi təhsilin tam orta təhsili səviyyəsi (X-XI siniflər) üzrə - 2020-ci il oktyabrın 15-dən.

Öncə qeyd edək ki, yeni tədris ilində ilk dərslərin həsr olunacağı mövzular müəyyənləşdirilib. Belə ki, ilk dərslər I- IV siniflərdə (əyani formada) "Gigiyena qaydalarına necə əməl edirəm?", V-IX siniflərdə (distant (məsafədən) formada) "Müstəqil öyrənmə bacarıqlarına yiyələnmək zamanın tələbidir", X-XI siniflərdə (distant (məsafədən) formada) "Məsuliyyətli vətəndaş qüdrətli dövlət deməkdir" mövzularına həsr olunub.

Bəllidir ki, təhsil müəssisələrində şagirdlərin tədris və təlim-tərbiyə prosesində əyani iştirakı könüllülük prinsipi əsasında təmin edilir.

## Hibrid təhsil sisteminin tətbiqi

Hibrid təhsil sisteminin tətbiqi şagirdlərin sağlamlığını təhlükəyə atmadan onların təhsil almaq hüququnun təmin olunmasına xidmət edir. Xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində dərslər epidemioloji vəziyyətdən və məktəbdə şagird sıxlığından asılı olaraq müəyyən edilmiş qaydalar əsasında təşkil edilir. Ümumtəhsil məktəblərində sinif otağında müvafiq qaydada ən azı 1,5 metrlik ara məsafəsinin gözlənilməsi məqsədilə zərurət yarandığı bütün hallarda əyani formada tədris zamanı siniflər qruplara bölünür.

Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na uyğun olaraq, əyani formada tədrisin təşkili müəssisələrin tipi (növü), təhsilalanların sayı, qalanların günüuzadılmış qruplarda təhsilalanların sayı, sinif (qrup) komplektlərinin, tədris otaqlarının, laboratoriyaların, tədris-istehsalat emalatxanalarının, kitabxanaların, yataqxanaların, yeməkxanaların tutumu, təhsilverənlərin yaş bölgüsü və digər məsələlərdə xüsusi karantin rejiminin tələbləri nəzərə alınaraq planlaşdırılır. Təhsil müəssisəsində növbəli iş rejimi müəssisənin tutumu və mövcud təhsilalanların sayı əsasında təhsil müəssisəsi tərəfindən müəyyən edilir. Təhsilalanların və təhsilverənlərin iştirakı ilə tədris prosesindən kənar kütləvi tədbirlərin keçirilməsinə yol verilmir.

Təhsilverənlərin və təhsilalanların sağlamlıqlarını qorumaları üçün şəxsi gigiyena qaydalarına ciddi riayət edilmələri tövsiyə olunur. Təhsil müəssisəsində şəxsi gigiyena qaydalarına əməl edilməsi və dezinfeksiya tədbirlərinin görülməsi üçün zəruri olan vasitələrin yetərli qədər olması təmin edilir. Bütün bu qaydalara birmənalı şəkildə əməl olunması ilə bağlı konkret tapşırıqlar verilib və onların icrasına ciddi nəzarət edilir. Təqdirəlayiq haldır ki, koronavirusla əlaqədar təhsil müəssisələrində də sanitar-epidemioloji qaydalara həssas yanaşma müşahidə olunur.

## Məktəblərdə davranış qaydaları

Məlum olduğu kimi, Təhsil Nazirliyi tərəfindən COVID-19 pandemiyası ilə əlaqədar məktəblərdə davranış qaydaları da açıqlanıb. Qaydalarda koronavirus infeksiyasından qorunmaq üçün profilaktika və ehtiyat tədbirləri barədə aydın və dolğun məlumatlar yer alır. Məlumatlarda məktəblilərin həm özlərini, həm də başqalarını virusdan qorumaq üçün digər insanlarla ünsiyyətdə olarkən sosial məsafəni gözləməsi, əllərini tez-tez və qaydalara uyğun yuması, başqalarının əşyalarına toxunmaması, sinfi və məktəbi təmiz saxlaması, təhlükəsiz istirahəti seçməsi, kütləvi tədbirlərdə iştirakdan çəkinməsi, bu sahədə bilik və bacarıqlarını başqaları ilə bölüşmələri tövsiyə edilir.

Təhsil müəssisələrinin daxilində və həyətyanı sahələrində sosial məsafənin gözlənilməsi virusa qarşı mübarizə tədbirləri arasında ən vacib elementlərdən biri hesab edilir. Bunu nəzərə alaraq sosial məsafənin gözlənilməsi, məktəblərin həyətində müvafiq işarələnmənin təmin olunması, girişdə uşaqların hərarətinin ölçülməsi kimi qaydaları özündə əks etdirən təlimat hazırlanıb və məktəblərə göndərilib.

Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq, bütün təhsil müəssisələrinin girişi və çıxışı üçün nəzərdə tutulmuş ərazilər spirt tərkibli əl üçün dezinfeksiyaedici vasitələrlə təmin edilib. Təhsil müəssisəsinə daxil olan şəxslərin termal kamera sistemləri və ya təmassız termometr vasitəsilə hərarəti ölçülür. Qaydalara görə, bədən hərarətinin 37,1 dərəcə və ya daha yüksək olduğu müəyyən edildikdə, onların müəssisəyə daxil olmasına yol verilməyəcək. Sıxlığın qarşısının alınması və fiziki (sosial) məsafənin təmin olunması məqsədilə müəssisənin bütün qapılarının giriş və çıxış üçün istifadəsi təmin edilir. Həmçinin giriş və çıxış zamanı şəxslər (təhsilalanlar, təhsilverənlər və s.) arasında minimum 1,5 metr sosial məsafə gözlənilir və bu məqsədlə təhsil müəssisəsinin girişindəki meydançanın yeri döşəmə işarələri ilə işarələnir.

## Valideyn məsuliyyəti

*- Bu təhlükəli günlərdə yəqin valideynlərin də üzərinə müəyyən vəzifələr düşəcək...*

- Əlbəttə, mövcud vəziyyətdən uğurla çıxmaq üçün məktəb və müəllimlərlə yanaşı, valideynlərin və bütövlükdə cəmiyyətin üzərinə böyük məsuliyyət düşür. İnanırıq ki, qarşılıqlı əməkdaşlıq nəticəsində valideynlər yuxarı siniflərdəki övladlarının hələlik məsafədən təhsil almasına, müəllimlərlə ünsiyyətinə, övladlarının dərsi mənimsəyib-mənimsəməməsinə, bir sözlə, tədris formasından asılı olmayaraq dərslərə məsuliyyətlə yanaşmasına xüsusi önəm verəcək.

## Tədrisin məsafədən təşkili üçün praktik addımlar

*- Pandemiyanın ilk sınağından Bakı məktəbləri üzüağ çıxdı, elə deyilmi?*

- Elədir. Tələbləri pozmadan öz vəzifəmizi icra etməyə çalışdıq. Azərbaycanda pandemiya dövründə həyata keçirilən tədbirlərdə insanların sağlamlığı prioritet məsələ kimi daim öndə oldu. Ölkə Prezidenti cənab İlham Əliyevin birbaşa rəhbərliyi ilə atılan addımlar respublikamıza bu ümumbəşəri bəladan hazırkı dövrə qədər ən az zərərlə çıxmağa imkan verdi. COVID-19 virusunun ölkəmizdə yayıldığı ilk gündən məktəblərdə təhsilin təşkili, təhsildə fasiləsizliyin və davamlılığın təmin olunması ilə yanaşı, eyni zamanda təhsilverənlərin və təhsilalanların sağlamlığının və təhlükəsizliyinin qorunması əsas məsələ kimi diqqət mərkəzində saxlanıldı. Məktəblərdə tədrisin dayandırılması haqqında müvafiq qərar verildiyi vaxtdan paytaxt məktəblərində tədrisin məsafədən təşkili üçün praktik addımlar atıldı. Tədrisin məsafədən təşkili baxımından Təhsil Nazirliyi tərəfindən həyata keçirilən operativ tədbirlər fəaliyyətimizdə əsas istiqamətverici amil idi. Qısa müddətdə teledərslər vasitəsilə tədris olunan məzmunun daha da möhkəmləndirilməsi məqsədilə paytaxt məktəblərində çalışan müəllimlərin böyük əksəriyyəti məsafədən təhsil verməyə başladı. Təbii ki, bunun üçün paytaxt müəllimlərinin İKT-dən istifadə baxımından müvafiq kompetensiyalara malik olması, uşaqlar üçün internetin, eləcə də zəruri texnologiyaların əlçatanlığı da mühüm rol oynadı.

Təhsil Nazirliyi tərəfindən şagirdlərin distant təhsil imkanlarının artırılması istiqamətində həyata keçirilən davamlı tədbirlər məktəbliləri və valideynləri də bu işə səfərbər etməyə imkan verdi. "Virtual məktəb" layihəsi çərçivəsində daha genişmiqyaslı distant təhsilin tətbiqi üçün əlverişli şərait yaradıldı.

Respublikamızda tətbiq olunan xüsusi karantin rejimindən irəli gələn tələblərə əməl olunması üçün təhsil işçiləri də şagird və valideynlərin maarifləndirilməsi baxımından üzərlərinə düşən missiyasını layiqincə dəyərləndirir. Pandemiya dövründə Azərbaycanda dövlət səviyyəsində həyata keçirilən məqsədyönlü tədbirlər nikbin olmağa, təhsil sisteminin bu sınaqlardan da üzüağ çıxacağını söyləməyə əsas verir.

*- Maraq doğuran məsələlərdən biri də məktəblərdə müəllimlər üçün qoyulan tələblərdir. Bunlar nədən ibarətdir və xüsusilə çalışmanın yaş həddinə çatmış müəllimlərin işə cəlb olunmasına yanaşma necə tənzimlənir?*

- Məktəblərdə iş prosesi zamanı birmənalı olaraq tibbi və ya parça maskalardan, üz siperi və digər qoruyucu vasitələrdən istifadə edilməlidir. Müəllimlər otağında və digər işçilərin otaqlarında sosial məsafə gözlənilməlidir.

Təhsilverən özündə və ya yaxın təmasda olduğu şəxslərdə COVID-19 əlamətlərini (şübhəsini) hiss edərsə, bu barədə dərhal təhsil müəssisəsinin rəhbərliyinə məlumat verməlidir. İş vaxtı ərzində təhsilverəndə bədən hərarətinin 37,1°C və ya daha yüksək olduğu müəyyən edildikdə və ya hər hansı xəstəlik əlamətləri müşahidə olunduqda (yüksək hərarət, öskürək, nəfəs darlığı, dadbilmə, iybilmə hissinin itməsi, halsızlıq və s.), təcili olaraq müvafiq tədbirlər görülür.

COVID-19 testinin nəticəsi pozitiv çıxan və ya test nəticəsi pozitiv çıxmış şəxslə təmasda olduğu üçün təcridolunma rejimində olan və ya test nəticəsi pozitiv çıxmış və sağalmış, lakin sonuncu test nəticəsinin neqativ olmasından hələ 14 gün keçməyən, habelə özündə və ya yaxın təmasda olduğu şəxslərdə şübhəli əlamətlərin olması səbəbindən götürülmüş test nümunələrinin cavabları aşkarlananadək, həmin şəxslərin işə çıxmasına icazə verilmir.

Təhsil müəssisələrində əyani formada tədris və təlim-tərbiyə prosesinə yaşı 65-dən aşağı olan təhsilverənlər cəlb olunurlar. Əməkhaqqının hesablanmasında isə distant (məsafədən) formada tədris edilən dərs yükü nəzərə alınır. Tədris və təlim-tərbiyə prosesinə cəlb olunmayan yaşı 65-dən yuxarı olan təhsilverənlərin işində yaranan fasilələr onların iş vaxtına daxil edilir və əməkhaqqı saxlanılır.

## Uyğunlaşdırılmış tədris planları

*- Mənzərə tam aydın olsun deyə, şagirdlər üçün müəyyənləşdirilmiş qaydalara da toxunmağınız yaxşı olardı...*

- Öncə qeyd edim ki, təhsil müəssisələrində tədris xüsusi karantin rejimi dövrü üçün uyğunlaşdırılmış tədris planları əsasında aparılır. Dərslər təhsilalanların sayından asılı olaraq, təsdiq edilmiş qrafikə uyğun, səhər saat 8-dən başlayaraq növbəli qaydada həyata keçirilir. Dərs (təlim) və dərsdənkənar (praktiki) məşğələ saatları məktəbəhazırlıq mərhələsində 30, ibtidai və ümumi təhsil səviyyələrində 45 dəqiqə olmaqla müəyyən edilir.

Tədrisdə növbəlilik tətbiq olunur və növbələr arasında tədris otaqlarında, dəhlizlərdə və sanitariya qovşaqlarında təmizlik və dezinfeksiya işlərinin aparılması üçün 60 dəqiqəlik fasilə nəzərdə tutulur.

Dərslərarası (məşğələlərarası) fasilələr 10 dəqiqədən az olmayaraq müəyyən olunur. Fasilələrdə təhsilalanların imkan daxilində təmiz havada olması təmin edlir. Dəhlizlərdə və həyətyanı sahədə sıxlığı azaltmaq məqsədilə tənəffüslərin vaxtı fərqli qrafikə uyğun tənzimlənir.

Fasilə müddətində tədris otağında pəncərələr (mümkün olduğu halda) açıq saxlanılır və sinif otaqlarının havası mütəmadi dəyişdirilir.

Hər bir sinfin (qrupun) bütün dərs günü ərzində istifadəsi üçün bir sinif otağı və ya kabinet müəyyən edilir. Kimya, fizika, biologiya kabinetləri və digər müvafiq otaqlardan növbəli istifadə zərurəti olduqda, həmin kabinetlərdə (otaqlarda) növbəti dərs saatı bütün səthlərin dezinfeksiyasından və otaqda hava mübadiləsi təmin edildikdən sonra başlanılır.

Xüsusi karantin rejimi dövründə idman və akt zallarından, kitabxana və hovuzdan istifadə dayandırılıb.

Ümumi təhsil müəssisələrində şagirdlərin maskadan istifadəsi onların valideynlərinin və ya digər qanuni nümayəndələrinin seçiminə verilir. Ancaq şagirdlərin məktəblərə daxil olarkən və müəssisə daxilində sosial məsafəni gözləməsinə, şəxsi gigiyena qaydalarına əməl etmələrinə nəzarət olunur.

Dərs (məşğələ) müddətində hər bir şagird onun üçün müəyyənləşdirilmiş yerdə oturur, digərlərinin əşyalarına toxunmur. Həmçinin şagirddə və ya ailəsində COVID-19 əlamətləri (şübhəsi) hiss edilərsə, bu barədə özü və ya valideynləri dərhal təhsil müəssisəsinin rəhbərliyinə məlumat verməlidir.

Ümumiyyətlə, xəstəlik şübhəsi olan şəxs dərhal yaşadığı yerə göndərilməli (təhsilalandırsa, valideyninə və ya digər qanuni nümayəndəsinə məlumat verilməli) və 103 Təcili Tibbi Yardıma müraciət edilərək həkimlər tərəfindən laboratoriya müayinəsindən, tələb olunduğu halda COVID-19 testindən keçməli və yaşadığı yerdə özünütəcrid rejimində olmalıdır. Xəstəlik şübhəsi olan təhsilalanın valideyni və ya digər qanuni nümayəndəsi olmadığı təqdirdə, təhsil müəssisəsi onun dərhal COVID-19 testindən keçirilməsi üçün 103 Təcili Tibbi Yardıma müraciət etməli və tibb müəssisəsi tərəfindən təhsilalanın xəstəxanaya yerləşdirilməsi təmin edilməlidir.

Həmçinin məktəblərin sanitariya qovşaqları müvafiq tələblərə uyğun xüsusi dezinfeksiyaedici vasitələrlə mütəmadi olaraq təmizlənir və dezinfeksiya edilir. Eləcə də sanitariya qovşaqlarında düzgün əl yumaq qaydalarını əks etdirən posterlər yerləşdirilir.

⇨Ardı səh.12

# Yeni dərs ili təhsilimiz üçün yeni imkanlar və uğurların davamı ilə əlamətdar olacaq



> “İnanıram ki, təhsildə keyfiyyətin artırılması yönündə qarşıya qoyduğumuz hədəflərə doğru irəliləyə biləcəyik”



⇦ Əvvəli səh.11

### Maarifləndirmə məsələnin ən aktual və həssas tərəflərindən biridir

– *Rəşad müəllim, məktəblərdə şagird və müəllimlərin virusdan daha etibarlı qorunması üçün maarifləndirmə işi və təlimlər nəzərdə tutulurmu?*

– Bu, məsələnin ən aktual və həssas tərəflərindən biridir. Elə ölkəmizin pandemiyaya qarşı mübarizə təcrübəsinin əsasında, ilk növbədə təbliğata üstünlük verilməsi dayanır.

Nazirlər Kabinetinin müvafiq qərarında da qeyd olunur ki, təhsil müəssisəsinin rəhbərliyi hava-damcı yolu ilə ötürülən xəstəliklərin, xüsusilə COVID-19 virusunun yayılmasının qarşısının alınması üçün maarifləndirmə işlərinin aparılmasını və işçi heyət üçün müvafiq təlimlərin keçirilməsini təmin etməlidir. Bu təlimlər fiziki (sosial) məsafə qaydalarına uyğun şəraitdə, habelə mümkün hallarda distant qaydada keçirilir. Bu baxımdan valideynlərin də maarifləndirilməsi və düzgün bilgilərə malik olması xüsusi əhəmiyyət kəsb edir.

Artıq bu məsələ ilə bağlı ciddi addımlar atılıb, qeyd etdiyimiz kimi, məktəblərdə maarifləndirici posterlər asılıb, bütün məktəb rəhbərlərinə maarifləndirici tədbirlərin əhəmiyyəti izah olunub. Eləcə də müvafiq monitorinq qrupları vasitəsilə bütün istiqamətlər üzrə, o cümlədən də maarifləndirmə ilə bağlı qarşıda duran vəzifələrin dəqiq icrasına nəzarət olunur.

### Mühüm istiqamətlər əsas götürüləcək

– *2020-2021-ci dərs ilinin prioritet istiqamətləri barədə nə deyə bilərsiniz?*

– Yeni dərs ilində öz fəaliyyətimizi Təhsil Nazirliyinin “2020-2021-ci tədris ilində ümumi təhsillə bağlı aktual məsələlər və hədəflər barədə” əmrinə uyğun olaraq, mövcud sanitar-epidemioloji vəziyyəti nəzərə almaqla, müvafiq vəzifələrin yerinə yetirilməsi, onların reallaşdırılması, məqsədyönlü təşkilati və əməli tədbirlərin həyata keçirilməsi istiqamətində quracağıq.

Yeni dərs ilində tədrisin təşkili işinin səmərəliliyinin artırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi, məktəblərin fəaliyyətində rəqabətliliyin genişləndirilməsi, məktəblərdə sağlam və yaradıcı mühitin möhkəmləndirilməsi üçün sistemli işin aparılması, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılmasına yönəlmiş zəruri tədbirlərin reallaşdırılması, təhsil müəssisələrinin idarəetmə məsələlərinə xüsusi diqqət yetirilməsi, şagirdlərin təlim nailiyyətlərinin daha da yaxşılaşdırılması, onların vətənpərvərlik ruhunun möhkəmləndirilməsi, istedadlı şagirdlərin stimullaşdırılması və digər bu kimi mühüm istiqamətlər əsas götürüləcək.

Həmçinin kütləvi tədbirlərin maksimum məhdudlaşdırılması, təhsil müəssisələrində mütəmadi olaraq dezinfeksiya işlərinin aparılması, fərdi gigiyena qaydalarına riayət edilməsi, xəstəliklərə qarşı qabaqlayıcı maarifləndirici tədbirlərin görülməsi sayəsində şagirdlərin xüsusi karantin qaydalarına daha diqqətli yanaşacağını düşünürəm.

İnanıram ki, müasir dövrün çağırışlarına, təhsilin inkişafı üzrə Dövlət Strategiyasına və ölkəmizin inkişaf konsepsiyasına uyğun olaraq növbəti illərdə Azərbaycan təhsili keyfiyyət göstəricilərinə, əhatəliliyinə və rəqabətqabiliyyətliliyinə görə aparıcı təhsil sistemlərindən birinə çevriləcəkdir.

– *Pandemiya dövründə Bakı Şəhəri üzrə Təhsil İdarəsi fəaliyyətini necə tənzimləyir?*



– Tətbiq olunan karantin rejimində bütün dövlət orqanları fəaliyyətini qaydalara uyğun qurmağa çalışır. Mövcud sanitar-epidemioloji vəziyyətin ilk günlərindən Bakı Şəhəri üzrə Təhsil İdarəsi də fəaliyyətini əsasən məsafədən təşkil edir. Fəaliyyətin məsafədən təşkilində əsas məqsəd koronavirus infeksiyasının yayılmasının qarşısının alınmasına yönəlmiş tədbirlərin səmərəliliyinin artırılmasından ibarətdir. BŞTİ-də fəaliyyətimiz Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərarlarına və Təhsil Nazirliyi tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlərə uyğundur. Belə ki, müzakirə və məsləhətləşmələr onlayn qaydada aparılır, zərurət olduqda videokonfranslar təşkil olunur. Vaxtaşırı olaraq bütün təhsil müəssisələrində və BŞTİ-nin inzibati binasında dezinfeksiya işləri aparılır.

Pandemiya dövründə BŞTİ-nin təşkilatçılığı ilə məktəblilər arasında həm tədris ili ərzində, həm də yay tətili dövründə müxtəlif mövzular üzrə onlayn müsabiqələr, yarışlar təşkil olunub. Mövcud sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq onlayn keçirilən müsabiqələrin əsas məqsədi xüsusi istedada malik olan uşaqları üzə çıxarmaq, onların yaradıcılıq səviyyəsinin yüksəldilməsinə dəstək vermək, məktəblilərin asudə vaxtlarını səmərəli təşkil etmək, uşaqlar arasında sağlam həyat tərzini təbliğ etmək, həmçinin ictimaiyyətin diqqətini xüsusi karantin rejimi qaydalarına yönəltməkdən ibarət olub. Valideyn və şagirdlərə mövcud şəraitdə psixoloji dəstək göstərmək, uşaqlarla davranış baxımından valideynlərə düzgün istiqamət vermək, qarşılıqlı münasibətlərdə psixoloji dayanıqlılığı artırmaq və sosial yardımlaşma imkanlarını genişləndirmək məqsədilə BŞTİ tərəfindən sosial-maarifləndirmə layihəsi keçirilib. Layihə çərçivəsində məktəb psixoloqlarının ayrı-ayrı mövzular üzrə çıxışları BŞTİ-nin, təhsil müəssisələrinin internet resursları üzərindən yayımlanıb və KİV vasitəsilə geniş ictimaiyyətə təqdim olunub.

Hazırda Təhsil Nazirliyi və Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən 2020-2021-ci tədris ilində də uğurların davamlı olmasını təmin etmək məqsədilə sistemli tədbirlər həyata keçirilir. İnanıram ki, nə qədər sınaqlar olsa da, əsas amal olan təhsildə keyfiyyətin artırılması yönündə qarşıya qoyduğumuz hədəflərə doğru irəliləyə biləcəyik.

– *Rəşad müəllim, yeni dərs ilində paytaxt məktəbləri üzrə nə qədər şagird təhsil alır?*

– Yeni tədris ilində BŞTİ-nin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələri üzrə ümumilikdə, 434971 şagirdin təhsil alması nəzərdə tutulur.

BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərinin IX sinfində 35794, X sinfində 25611, XI sinfində 19794 şagirdin təhsil alması proqnozlaşdırılır *(Qeyd: XII sinifdə 170 şagird)*.

BŞTİ-nin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrində 27132 müəllim çalışır.

Qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində 308 ümumi təhsil məktəbi, 3 xüsusi ümumi orta məktəb və 5 əyani-qiyabi axşam məktəbi olmaqla, cəmi 316 məktəb və 5 Uşaq-Gənclər İnkişaf Mərkəzi fəaliyyət göstərir.

### Təhsil müəssisələrinin infrastrukturu müasirləşdirilir

– *Məktəb infrastrukturunun yenilənməsi işləri necə gedir?*

– Pandemiya dövründə belə təhsil infrastrukturunun inkişafı daim dövlətin və dövlət başçısının diqqət mərkəzindədir. Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı nəticəsində ümumi təhsil müəssisələrinin infrastrukturu əsaslı şəkildə müasirləşdirilir, yeni məktəb binaları tikilir və ya əsaslı təmir edilir, nəticədə şagirdlərin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılır.

Ölkə Prezidenti cənab İlham Əliyevin paytaxtın Nizami rayonunda 251 nömrəli tam orta məktəbin yeni korpusunun və Suraxanı rayonunun Əmircan qəsəbəsində Milli Qəhrəman Albert Aqarunovun adını daşıyan 154 nömrəli məktəbin yeni binasının açılışında iştirakı, həmçinin Heydər Əliyev Fondunun “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində inşa olunan 216 nömrəli tam orta məktəb binasının açılışında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı bu diqqətin bariz nümunəsidir.

Biz təhsil işçiləri üçün çox qürurvericidir ki, ölkə başçısı İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva məktəblərdə təmirdən sonra yaradılan şəraitlə tanış olur və açılış mərasimlərində iştirak edir, dəyərli tövsiyələri ilə təhsilin inkişafı üçün yeni hədəflər müəyyənləşdirirlər.

Qeyd edim ki, paytaxtın ümumi təhsil məktəblərində yeni dərs ilinə hazırlıq çərçivəsində 8 ümumi təhsil müəssisəsində tikinti və əsaslı təmir işləri aparılıb. Həmçinin ehtiyac olan ərazilərdə 6 yeni məktəb inşa olunur. 205 nömrəli tam orta məktəbin bütövlükdə sökülərək yenidən tikintisi, 90, 97 nömrəli tam orta məktəblərin əsas korpuslarının əsaslı təmiri, köhnə korpuslarının sökülərək yenidən tikintisi, 122 nömrəli tam orta məktəbin əsaslı təmiri, idman zalı, kitabxana və əlavə sinif otaqlarının tikintisi, 155 nömrəli tam orta məktəbin köhnə korpusunun sökülərək yenidən tikintisi aparılıb.

Həmçinin 154 nömrəli tam orta məktəbin bütövlükdə sökülərək yenidən tikintisi, 251 nömrəli tam orta məktəb üçün əlavə korpusun tikintisi, 216 nömrəli tam orta məktəb üçün digər ərazidə yeni binanın tikintisi yerinə yetirilib. Eləcə də ehtiyac olan bütün təhsil müəssisələrində cari təmir və mühəndis-kommunikasiya işləri həyata keçirilib.

Ümumi təhsil məktəblərinin təmir-tikinti işləri son illərdə davamlı olaraq həyata keçirilir və bu işlər ümumilikdə, təhsilalanların tədris şəraitinin yaxşılaşdırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

### Bakı təhsilində müsbət dinamika

– *Rəşad müəllim, pandemiya səbəbindən təhsil müəssisələrinin fəaliyyətində fasilənin yaranması məktəblilərin qəbul göstəricilərinə necə təsir edib?*

– Ölkəmizdə koronavirus pandemiyasına qarşı vaxtında həyata keçirilən tədbirlər, Prezident İlham Əliyevin göstərişi ilə görülən kompleks işlər bütün mümkün hallarda infeksiyanın yayılmasının qarşısını almağa imkan versə də, həyatımızın bir sıra istiqamətlərində, o cümlədən təhsil sahəsində də koronavirus infeksiyası səbəbindən fasilə yarandığını müşahidə etdik. Arzuolunmaz vəziyyətə baxmayaraq pandemiya dövründə Azərbaycan müəllimi yüksək hazırlıq səviyyəsini göstərə bildi. Bu dövr ərzində müəllimlərimizin fədakarlığı, peşəkar yanaşması, ilk günlərdən öz təşəbbüsləri ilə distant dərslər keçməsi ən yüksək ehtirama layiqdir.

Görülən kompleks tədbirlər şagirdlərin tədris mühitindən ayrılmaması üçün əlverişli zəmin yaratdı. Təsadüfi deyil ki, bütün bunlar tədris ilinin yekun nəticələrində də özünü göstərdi. Pandemiya dövründə yaranmış fasilə və çətinliyə baxmayaraq, Bakı təhsilində bir sıra parametrlər üzrə müsbət dinamika müşahidə olundu.

Durmadan inkişaf edən və yeniləşən Bakı təhsili dövlətin qayğısına öz uğurları və parlaq nəticələri ilə cavab verir. Belə ki, ümumi təhsildə müasir və çevik yanaşmalar sayəsində təhsil müəssisələrimiz istər keyfiyyət göstəriciləri, istərsə də daha sağlam mənəvi-psixoloji mühitin təmin olunması baxımından ciddi uğurlara imza atır. BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərini ümumi orta təhsil səviyyəsi və tam orta təhsil səviyyəsi üzrə fərqlənmə attestatı ilə bitirən məzunların, olimpiada qaliblərinin sayı ilbəil artmaqda davam edir. Ali məktəbə qəbul göstəricilərində müsbət dinamika müşahidə olunur. Azərbaycan beynəlxalq təhsil reytinqlərində bütün göstəricilər üzrə irəliləyir, beynəlxalq olimpiadalardakı uğurların sırası genişlənir.

2019-2020-ci tədris ilinin sonunda BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrinin 975 məzunu məktəbi fərqlənmə attestatı ilə bitirib. BŞTİ-nin tabeliyindəki 276 nömrəli tam orta məktəbin məzunu III ixtisas qrupu üzrə ali məktəblərə qəbul imtahanında hər iki mərhələnin cəminə görə maksimal olan 700 bal toplayıb. I ixtisas qrupu üzrə ölkə üzrə ikinci ən yüksək nəticəni (697 bal) 297 nömrəli tam orta məktəbin məzunu, IV ixtisas qrupu üzrə hər iki mərhələnin cəminə görə ən yüksək nəticələri (691.4 bal və 691.2 bal) 178 və 114 nömrəli tam orta məktəblərin məzunları göstərib.

2019-2020-ci tədris ilində keçirilən Respublika fənn olimpiadalarının final mərhələsinin nəticələrinə əsasən, 53 paytaxt məktəblisi qalib olub. Belə ki, BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələrində təhsil alan şagirdlərdən 5 nəfər qızıl, 20 nəfər gümüş, 28 nəfər bürünc medal qazanıb.

### Məktəblər yüksək hazırlıqlı müəllimlərlə təmin olunur

– *Təbii ki, əldə olunan nailiyyətlərdə təhsil müəssisələrinin idarəetmə korpusunun, eləcə də pedaqoji heyətinin hazırlıq səviyyəsi əsas rol oynayır. Bu istiqamətdə durum necədir?*

– Bəlli olduğu kimi, son illərdə təhsil sahəsində istər müəllimlərin, istərsə də təhsil idarəçilərinin seçiminə peşəkar yanaşma, ciddi və şəffaf meyarlar tətbiq olunur.

Yeni dərs ili ərəfəsində BŞTİ-nin tabeliyindəki təhsil müəssisələrinə 8 nəfər direktor vəzifəsinə işə qəbul edilib. Eləcə də 20 məktəbin direktoru yerdəyişmə ilə digər ümumi təhsil məktəblərinə təyinat alıb. 18 məktəb direktoru (19, 318, 10, 226, 271, 27, 20, 298, 48, 44, 52, 223, 113, 122, 130, 256, 262, 322 nömrəli tam orta məktəblər) ilə bağlanmış əmək müqaviləsinə xitam verilib. (14 nəfər çalışmanın yaş həddinə çatması, 4 nəfər isə müddətli əmək müqaviləsi müddətinin başa çatması ilə əlaqədar).

Təhsil Nazirliyi tərəfindən son 7 ildə yüksək şəffaflıq və obyektivlik şəraitində həyata keçirilən müəllimlərin işə qəbulu, diaqnostik qiymətləndirilməsi, pedaqoji işçilərin yerdəyişməsi müsabiqəsi, eləcə də digər müvafiq tədbirlər nəticəsində müəllim peşəsinə maraq xeyli dərəcədə artıb. Məktəblər müvafiq tələblərə cavab verən yüksək hazırlıqlı müəllimlərlə təmin olunur.

Təhsil Nazirliyi tərəfindən keçirilən müəllimlərin işə qəbulu və yerdəyişməsi müsabiqəsinə BŞTİ tərəfindən 2020-2021-ci dərs ili üçün 958 vakansiya təqdim olunub. Müsabiqə üzrə prosedur tam yekunlaşmadığı üçün ümumilikdə, işə qəbul olunanların sayı barədə yaxın günlərdə dəqiq məlumat bəlli olacaq.

### Qazanılan uğurlar göz önündədir

– *Təhsil sahəsinin inkişafı Azərbaycan dövləti üçün prioritet istiqamətlərdən biridir. Bu baxımdan dövlətin təhsil sahəsində həyata keçirdiyi islahatları necə səciyyələndirmək olar?*

– Təhsil sahəsində həyata keçirilən islahatların nəticələri, qazanılan uğurlar göz önündədir. Çünki strateji bir sahə olan təhsil Azərbaycanda ən yüksək səviyyədə diqqət mərkəzindədir.

Ulu öndər Heydər Əliyevin dediyi kimi, təhsil hər bir xalqın gələcəyidir, təhsilsiz inkişaf ola bilməz. Əsasını ümummilli lider Heydər Əliyevin qoyduğu təhsil islahatları bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ümumiyyətlə, ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatlar, o cümlədən təhsil sistemində müasir infrastrukturun yaradılması, məktəb tikintisinin geniş vüsət alması xüsusilə diqqətəlayiqdir. Ölkəmizdə təhsilin inkişafı Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən təhsilin inkişafına xüsusi diqqət göstərilir. Bunun nəticəsidir ki, təhsil sahəsində parlaq uğurlara imza atılır, mühüm islahatlar və layihələr həyata keçirilir.

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda qarşıya qoyulmuş hədəflər uğurla reallaşdırılır. Bu istiqamətdə Təhsil Nazirliyi tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər xüsusi olaraq qeyd olunmalıdır.

Təhsil işçilərinin sosial rifahı ilbəil yaxşılaşır. Müntəzəm olaraq təhsil işçilərinin əməkhaqları artırılır, müəllimlərin peşəkar inkişafı və sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı ardıcıl addımlar atılır. Bu isə ümumilikdə müəllim peşəsinə olan marağın artmasına səbəb olur, müəllim nüfuzunun yüksəlməsinə təkan verir.

Bu gün təhsil sahəsində davamlı olaraq həyata keçirilən islahatlar, yaradılmış şərait və dövlət qayğısı təhsil işçilərini daha da ruhlandırır, öz fəaliyyətlərinə daha yaradıcı yanaşmağa sövq edir.

İnanıram ki, tezliklə Azərbaycanda koronavirus infeksiyasına qarşı görülən tədbirlər ürəkaçan nəticələr verəcək, ölkə həyatının bütün sahələri əvvəlki iş ahənginə qayıdacaq və 2020-2021-ci tədris ili təhsilimiz üçün yeni imkanlar və uğurların davamı ili olacaqdır.



"Hər kəs öz ömrünü yaşayır, özünün tarixini yaradır. Tale hər insana bir missiya olaraq bəxş olunur. Sən onu yaşaya-yaşaya yaşlaşırsan, amma gərək elə edəsən ki, qocalanda etdiklərin sənə hörmət və ehtiram gətirsin". Bu sözlər tanınmış metodist alim, pedaqoji elmlər namizədi, dosent Əhməd Kəlbəliyevə məxsusdur. İlk dəfə onunla 1977-ci ilin yay günlərinin birində Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun Azərbaycan dili şöbəsində görüşmüşdüm. Təbiətən sakit, son dərəcə həlim, mülayim danışığa malik, təmkin və səbr sahibi olan bu böyük insanın yüksək mənəvi keyfiyyətlərinə heyran qalmışdım. O, şöbədə hamıdan yaşca böyük olmasına baxmayaraq, hər kəsə nəvaziş göstərirdi. Aralarında yaş fərqi az olsa da, professor Əziz Əfəndizadəyə xüsusi hörmətlə yanaşırdı. Sonralar bildim ki, bu yanaşma tərzi onların müəllim-tələbə münasibətindən qaynaqlanır: Əhməd müəllim professor Əziz Əfəndizadəyə elmi rəhbəri, müəllimi kimi ehtiram bəsləyir.

# Tanınmış metodist alim

## İlk görüşün təəssüratı

**Ənvər ABBASOV,**
*Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim*

### Çətinlik bir sınaqdır

Əhməd Allahverdi oğlu Kəlbəliyev 1930-cu ildə Cəbrayıl rayonunun Horovlu kəndində əkinçi ailəsində anadan olub. Hələ lap uşaqlığından kənd həyatının özünəməxsus çətinliklərində böyüyüb. Tale elə gətirib ki, zəhmətə qatlaşan balaca Əhmədin uşaqlıq və yeniyetməlik həyatı Böyük Vətən müharibəsi illərinə təsadüf edib. O, 1944-cü ildə kəndlərindəki yeddiillik məktəbi bitirsə də, ailəsinə kömək etməli olub. Bu minvalla 1944-1946-cı illərdə kolxoz təsərrüfatında işləyib. Ailələrinin ehtiyacını ödəməkdə valideynlərinə kömək edib. Müəllim olmaq arzusu ilə Qaryagin ( indiki Füzuli rayonu) Pedaqoji Məktəbinə daxil olub. 1949-cu ildə oranı bitirərək, ibtidai sinif müəllimi kimi Sabirabad rayon Məmişlər kəndində üç il işləyib.

Əhməd müəllim həyatında bütün çətin addımlarını atarkən həmişə uğurlarına əmin olub. Çətinliyin bir sınaq olmasına inanıb. Onlardan heç vaxt qorxmayıb.

### Məktəb illərindən yadda qalanlar

Əhməd müəllim hər zaman, xüsusilə məktəb illərində - yeddiillik məktəbdə oxuduğu zamanlarda, eləcə də Qaryagin Pedaqoji Məktəbində təhsil alanda öyrənməyi, özünün əsas məşğuliyyətinə çevirib. Həyatında olan heç bir çətinlik onu oxumaqdan çəkindirə bilməyib. Bütün bu çətinliklərə faiq olsa da, amma onların zəhmini unutmayib. Xatırlayıram ki, sonralar söhbət əsnasında bunları məktəb illərindən yadda qalan xatirələr kimi yada salardı.

### Müəllim olmaq arzusu

Müəllimlik Ə.Kəlbəliyevin həyatından qırmızı xətt kimi keçirdi. O, xarakter etibarı ilə zəngin bir mənəviyyat adamı olduğunu münasibətlərində təsdiq eləsə də, heç də bunu son hədd hesab etmirdi. Təhsil almaq, peşəkarlığı ilə yüksəlmək, daha yüksək mənəviyyat zirvələrini fəth etmək üçün davamlı olaraq oxuyub-öyrənməyə üstünlük verirdi. Əldə etdikləri, qazandıqları onu qane etmirdi. Müəllim işləyə-işləyə sonradan Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olması da bu zərurətdən irəli gəlmişdi.

Əhməd müəllim həmişə Pedaqoji İnstitutda oxuduğu illəri ömrünün qızıl dövrü adlandırırdı. Mikayıl Rəfili, Cəfər Xəndan, Feyzulla Qasımzadə, Əbdüləzəl Dəmirçizadə, Ağaməmməd Abdullayev, Əhməd Seyidov kimi dövrünün böyük alimlərindən təhsil alması ilə fəxr edirdi. Onların düşüncələri ilə tanış olduğu, söz və cümlələrini eşitdiyi məqamları həyatının ən qiymətli anları kimi xatırlayırdı.

Ə.Kəlbəliyev ali təhsilini fərqlənmə diplomu ilə bitirərək təyinatla Cəbrayıla yollanmış, Böyük Mərcanlı, Horovlu kəndlərində müəllim işləmişdi. O, müəllim işlədiyi müddətdə yüksək peşəkarlığa yiyələnmiş, təcrübəli müəllim kimi tanınmış, qabaqcıllığı ilə fərqlənmişdi. Bu illərdə o, Respublika Maarif Nazirliyinin, rayon maarif şöbəsinin fəxri fərmanlarını almış, "Əmək igidliyinə görə" medalı ilə təltif olunmuşdu. Rayon sovetinin deputatı seçilmiş, Respublika Müəllimlərinin V Qurultayının nümayəndəsi olmuşdu.

Ə.Kəlbəliyevin bir müəllim kimi qabaqcıllığı, işinə yaradıcılıqla yanaşması, həmçinin müxtəlif elmi məruzələrlə çıxışları professor Əziz Əfəndizadənin diqqətini cəlb etmiş, onun tərəfindən Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna dəvət almışdı. Ailə vəziyyəti ilə bağlı bəzi çətinliklərinin olmasına baxmayaraq, Əhməd müəllim bu dəvəti qəbul etmişdi. 1968-ci ildən müsabiqə yolu ilə Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna gəlmiş, özünün həyat və fəaliyyətinin böyük bir hissəsini həmin institutla bağlamışdı.

### Tədqiqatçılığa aparan yol

Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda bir elmi işçi kimi fəaliyyətini davam etdirən Ə.Kəlbəliyev eyni zamanda dissertanturaya qəbul olunmuşdu. "Azərbaycan dili dərslərində sorğunun səmərəli təşkili yolları" mövzusunda namizədlik dissertasiyası üzərində işləmişdi. O, apardığı araşdırmalarını ümumiləşdirərək 1971-ci ildə müdafiə etmiş və pedaqoji elmlər namizədi elmi dərəcəsi almışdı. Bir neçə ildən sonra Ali Attestasiya Komissiyası tərəfindən ona dosent elmi adı verilmişdi.

Bir metodist alim kimi Əhməd Kəlbəliyevin yaradıcılığında iki istiqamət daha çox diqqəti cəlb edir. Onlardan birincisi, Azərbaycan dilinin tədrisi metodikası, ikincisi isə ümumi pedaqoji məsələlərlə bağlıdır. Elmi-pedaqoji fəaliyyəti dövründə Əhməd müəllimin 80 əsəri, o cümlədən 16 kitab və kitabçası, 64 adda jurnal məqaləsi çap olunmuşdur. Əsərlərinin böyük bir hissəsi, Azərbaycan dilinin tədrisi məsələlərinə, digəri isə pedaqogikanın və məktəbin idarə edilməsinin aktual məsələlərinin şərhinə həsr olunmuşdur. O, ilkin olaraq bir dil metodisti kimi fəaliyyətə başladığından yaradıcılığında Azərbaycan dilinin tədrisi məsələlərinə daha çox yer ayırmış, bu dövrdə çoxsaylı elmi yazıların müəllifi kimi pedaqoji içtimaiyyət arasında nüfuz qazanmışdır. Azərbaycan dili təliminin məzmunu, prinsip və metodları, orfoqrafiya, orfoepiya, leksika və qrammatikadan bilik, bacarıq və vərdişlərin mənimsənilməsinə dair əsərləri ilə müəllimlərimizə yaxından köməklik göstərmişdir. Onun "Azərbaycan dili dərslərində frontal sorğunun təşkili" (1970), "Yeni proqramla Azərbaycan dili tədrisi məsələləri" (1970), "IV siniflərdə leksika və orfoepiyaya aid əyani vəsaitlər" (1978), "V sinifdə morfologiya və orfoqrafiyanın tədrisinə aid əyani vəsaitlər" (1975) və sair əsərləri bu qəbildəndir.

Məlum olduğu kimi, ötən əsrin 70-ci illərində orta məktəblərdə Azərbaycan dili tədrisi məsələlərinin nəzəri və praktik aspektdə sistemli olaraq tədqiq olunması, nəşr edilərək müəllimlərin istifadəsinə verilməsi o dövrün mühüm pedaqoji hadisələrindən biri idi. Bu problemin həll olunmasında dosent Ə.Kəlbəliyev də təcrübəli bir alim kimi iştirak edirdi. Onun müəllif kimi iştirak etdiyi I və II hissələrdən ibarət olan "Orta məktəbdə Azərbaycan dilinin tədrisi" adlı kitab 1976-1977-ci illərdə nəşr olunmuşdur. Eləcə də onun müəllifliyi ilə Azərbaycan dili tədrisi tarixində ilk dəfə hazırlanan "Azərbaycan dilindən didaktik materiallar" kitab şəklində 1977, 1981-ci illərdə çap edilmişdir. Yeri gəlmişkən, qeyd edək ki, orta məktəb şagirdləri üçün Azərbaycan dilindən didaktik materialların hazırlanması fənlərin tədrisində praktik istiqamətin gücləndirilməsinə diqqətin artırılmasından irəli gəlirdi və dosent Ə.Kəlbəliyev yaradıcılığında da bu məsələ xüsusi yer tuturdu. Onun "Oxu"(kar məktəblərin 3-cü sinfi üçün) (1997), "Azərbaycan dili" (gürcü məktəbinin 10-11-ci sinifləri üçün) (1998), "Çalışmalar vasitəsilə şagirdlərə nitq etiketindən düzgün istifadə bacarıqlarının aşılanması" (2001), "V sinifdə rabitəli nitqin inkişafına ayrılmış saatların tematik cəhətdən düzgün planlaşdırılmasına dair" (2003), "Şagirdlərin şifahi monoloji nitq vərdişlərinin inkişaf etdirilməsi" (2004) kimi əsərləri məhz bu tendensiyadan yaranmışdır.

### Ümumpedaqoji aspektdə tədqiqatların müəllifi

Ə.Kəlbəliyevin pedaqoji fəaliyyətində ADPU xüsusi yer tutur. 1980-ci ildə o, müsabiqə yolu ilə həmin universitetin Orta məktəb direktorlarının ixtisasartırma fakültəsinin nəzdindəki Xalq maarifini idarəetmənin təşkili kafedrasında dosent vəzifəsinə seçilmişdir. Bu kafedrada işlədiyi müddətdə pedaqogika, məktəbşünaslıq, xalq maarifinin idarə edilməsi kursları üzrə məzmunlu mühazirələr oxumuş, fakültənin profilinə uyğun maraqlı tədqiqatlar aparmışdır. Eyni zamanda xeyli jurnal və qəzet məqalələri, kitab və kitabçalar çap etdirmişdir. Bu istiqamətli tədqiqatlarında məktəb direktorunun müəllimlərlə, xüsusən də sinif rəhbərləri ilə əlbir işinin metodikası, şagirdlərlə fərdi işin məzmunu əhatəli şəkildə araşdırılmış, təlim metodlarının düzgün seçilməsi və tətbiqi, dərsdinləmələrin optimal təşkili, məktəblilərin təlim tapşırıqlarının fərdiləşdirilməsi, müəllim əməyinin stimullaşdırılması, onlarda yaradıcılıq axtarışlarının və təşəbbüskarlığının inkişaf etdirilməsi, müəllimin vaxt büdcəsi kimi pedaqoji problemlər təhlilə cəlb olunmuşdur.

Ə.Kəlbəliyevin işlədiyi Orta məktəb direktorlarının ixtisasartırma fakültəsi müvafiq hökumət qərarı ilə ləğv edilərək o vaxtkı Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutuna birləşdirildiyindən o, 1990-cı ilin dekabr ayından ADPU-nun Ümumi pedaqogika kafedrasına dosent vəzifəsinə keçirilmişdir. Bu illər ərzində o, özünü pedaqogika elminin incəliklərinə yaxından bələd olan ustad müəllim kimi göstərməklə yanaşı, səriştəli tədqiqatçı kimi də tanıtmışdır. Təhsilin idarə olunmasının müasir problemlərinə dair yazdığı əsərlərlə idarəetmə mexanizmlərinin optimallaşdırmasına təkan vermişdir. Xüsusilə "Pedaqoji əməyin elmi təşkili" (1996), "Pedaqoji ustalığa yiyələnməyin ilkin şərtləri" (1996), "Məktəb rəhbərlərinin pedaqoji etikası" (1996), "Təhsili idarəetmənin əsasları" (1998), "Sosial pedaqogika" (1999), "Pedaqoji ünsiyyət" (1999) adlı əsərlərində pedaqoji ustalığın sirlərini öyrənmiş, sosial pedaqogikanın, eləcə də təhsildə idarəetmə mədəniyyətinin və məktəb rəhbərlərinin pedaqoji etikasının elmi-nəzəri əsaslarına dair tədqiqatlar aparmışdır.

Əhməd müəllim potensial imkanlarına görə istedadlı alim, bacarıqlı tədqiqatçı idi. O hansı işin tapşırılmasından asılı olmayaraq onu yüksək peşəkarlıq və məmnunluq hissi ilə yerinə yetirərdi. Bütün yaradıcılığı boyu o, elə belə də olmuşdur. Lakin özünün ixtisası ilə bağlı arzularını heç vaxt yaddan çıxarmırdı. 1996-cı ildə onun çoxdan arzuladığı an gəlib çatdı. Azərbaycan dili və onun tədrisi metodikası kafedrasında boş olan ştata dəvət olundu. O, bu dəvətdən imtina etmədi və ömrünün sonuna qədər də həmin kafedrada çalışdı. Yazdı, yaratdı.

Artıq bu il Əhməd Allahverdi oğlu Kəlbəliyevin anadan olmasının 90 illiyi tamam olur. O, cismən bizim aramızda olmasa da, ruhən bizimlədir. Təhsil müəssisələrimizdə onun əsərlərindən bəhrələnirlər.

ALLAH ona rəhmət eləsin!

# BMU-nun rektoru Koreyanın səfiri ilə birlikdə onlayn yazılı imtahanı izləyib

## Gələcək əməkdaşlıqla bağlı məsələlər də müzakirə olunub



Bakı Mühəndislik Universitetinin (BMU) rektoru, professor Havar Məmmədov və Koreya Respublikasının Azərbaycandakı səfiri Tonq Op Kim BMU ilə Koreyanın İnha Universitetinin birgə icra etdiyi ikili diplom proqramına qəbul olmaq üçün koreyalılar tərəfindən təşkil olunan onlayn yazılı imtahan prosesini izləyiblər. Belə ki, imtahan prosesinin təşkili xüsusi qaydalar əsasında hazırlanıb. İmtahan prosesində 2 kamera quraşdırılıb ki, onlardan biri kompüterin, digəri isə telefonun kamerasıdır. Bu kameralardan biri tələbələrin əllərinin işlənməsinə, digəri isə üzünü göstərməyə xidmət edir. Qarşı tərəfdən müəyyən kiçik qrupda olan tələbələrin hərəkətlərini kontrol edən bir müşahidəçi vardır. Bununla yanaşı, imtahan prosesi zamanı xüsusi proqram təminatı təşkil olunub. Əgər tələbə hər hansı bir köçürməyə cəhd edərsə və ya əlavə proqramlara girərsə, həmin dəqiqə o tələbənin imtahan xətti kəsilir.

Onlayn keçirilən imtahanlara 1 saat vaxt ayrılıb. Yazılı keçirilən riyaziyyat fənnindən maksimum bal 60, fizika fənnindən isə 40-dır. Bu fənlərin hər biri üçün 6 sual verilir. İmtahan prosesində sualların cavabları ilə yanaşı, həll prosesi də təqdim olunmalıdır. Əks halda "0" bal ilə qiymətləndirilir. Daha sonra müraciət sənədlərinə əsaslanan və hər şəxs üçün təxminən 7 dəqiqə nəzərdə tutulan onlayn ingilis dili müsahibəsi təşkil olunacaq.

Daha sonra görüşdə gələcək əməkdaşlıqla bağlı məsələlər ətrafında geniş müzakirələr də aparılıb. Rektor Havar Məmmədov BMU haqqında ətraflı məlumat verib. O, görüşün əlamətdar hadisəyə - BMU ilə Koreyanın İnha Universiteti arasında bakalavr pilləsi üzrə həyata keçirilən ikili diplom proqramına həsr olunduğunu bildirib. Beynəlxalq ikili diplom proqramlarının əhəmiyyətinə toxunan rektor iki universitet arasında icra olunan proqramı Azərbaycan və Koreyanın təhsil sahəsindəki əməkdaşlığının yeni mərhələsi kimi qiymətləndirib.

İnşaat mühəndisliyi, İnformasiya texnologiyaları, Elektrik mühəndisliyi və Elektronika mühəndisliyi ixtisasları üzrə ikili diplom proqramının həyata keçirildiyini bildirən rektor tələbələrin 3 il BMU-da, 1 il isə İnha Universitetində təhsil alacağını qeyd edib. Bununla bərabər BMU-nun nəzdində Kral Seconq İnstitutunun Xırdalan filialının təsis ediləcəyini və burada ödənişsiz Koreya dili kurslarının təşkil olunacağını diqqətə çatdırıb. Rektor Havar Məmmədov bu günə qədər artıq 1514 nəfərin Koreya dilinin öyrənilməsi ilə bağlı müraciət etdiyini sözlərinə əlavə edib.

Koreya Respublikasının Azərbaycandakı səfiri Tonq Op Kim səmimi qəbula görə təşəkkür edib. Səfir pandemiyanın davam etdiyi dövrdə bir çox layihələrin təxirə salınmasına baxmayaraq BMU ilə həyata keçirilən ikili diplom proqramının baş tutduğunu yüksək dəyərləndirib. O, ölkəsinin əsas əməkdaşlıq istiqamətlərindən birinin Koreya ilə Azərbaycan arasında təhsil sahəsində olan əlaqələrinin gücləndirmək olduğunu vurğulayıb. Bu proqramın həyata keçirilməsi münasibətilə universitet rəhbərliyini təbrik edən səfir İnha Universitetinin mütəxəssislərinin də BMU-dan yeni biliklər əldə edəcəyini sevindirici hal kimi qiymətləndirib.

Sonda gələcək əməkdaşlığın bir sıra istiqamətləri nəzərdən keçirilib.

# UNEC tələbəsinin startapı dünya çempionu oldu

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tələbəsi Birləşmiş Krallığın dəstəyilə "British Council" tərəfindən keçirilən "Creative Spark" müsabiqəsində dünya çempionu olub.

Universitetdən bildirilib ki, Londonda baş tutmalı olan, lakin koronavirus pandemiyasına görə onlayn keçirilən yarışda UNEC-in Beynəlxalq İqtisadiyyat Məktəbinin Biznesin idarəolunması ixtisası üzrə III kurs tələbəsi Məhəmməd Kekalovun "Kekalove adaptive fashion" biznes ideyası həm dünya çempionu (grand champion), həm də "Yaradıcı" (Creative) kateqoriyası üzrə beynəlxalq qalib olub.

Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Azərbaycan, Gürcüstan, Ermənistan və Ukraynanın təmsil olunduğu biznes yarışının məqsədi Birləşmiş Krallıq da daxil olmaqla, 7 ölkədə sahibkarlıq təhsilini dəstəkləyəcək tərəfdaşlıqların qurulması, biznes mərkəzlərinin yaradılması, o cümlədən gənclər üçün ingilis dili və sahibkarlıq mövzusuna aid təlimlərin keçirilməsidir.

UNEC tələbəsinin biznes startapı əngəlli şəxslərin fiziki məhdudiyyətlərini nəzərə alan xüsusi geyimləri dizayn və istehsal edir. Layihəyə əsasən, əngəlli şəxslərin geyim seçimləri ilə bağlı öncədən sorğu təşkil olunur. Sonra isə onların əngəllərinə uyğunlaşdırılmış adaptiv geyimlər hazırlanır.

Dünyada 1 milyarddan çox əngəlli şəxs var ki, onların 190 milyona yaxını gündəlik həyatda geyimlə bağlı ciddi çətinliklərlə üzləşir. UNEC tələbəsinin startapı da məhz bu problemin həllinə yönəlib.

# İnsan alveri... Ümumbəşəri bəla

Bu gün dünyanın inkişaf etmiş əksər ölkələrində dövlət tərəfindən aparılan mübarizələrdən biri də insan alverinə qarşı mübarizədir. Qeyd edək ki, insan alverinə qarşı mübarizə ölkəmizdə də geniş vüsət alıb. Bununla bağlı respublikamızda hüquqi-normativ baza müəyyən edilib. Ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilib.

Bəs, insan alveri nədir? Kimlər bu alverin daha çox qurbanlarına çevrilirlər? İnsan alveri ilə məşğul olanların toruna düşməmək üçün hansı addımlar atılmalıdır? Dövlət səviyyəsində bu çirkin alverə qarşı hansı mübarizə tədbirləri həyata keçirilir? Elə isə diqqətlə oxuyun. Oxuyun və oxuduqlarınızı daha çox təbliğ edin ki, istər özünüz, istərsə də yaxınlarınız bu ümumbəşəri bəladan əziyyət çəkməyəsiniz.

**Niyazi RƏHİMOV**

## Təhsilsiz insanlar daha çox bu alverin qurbanına çevrilir

### İnsan alveri nədir?

İnsan alveri - yəni zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə həyata keçirilir. Cinayətkarlar bu məqsədlə külli miqdarda vəsait əldə edirlər. Onlar oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla, şəxsin istismar edilməsini təmin edirlər. Bu alver zamanı qurbana çevrilənlər gizli şəkildə saxlanılır, daşınır və ya satılır. Qanunvericiliyə əsasən məcburi əmək, cinsi istismar, köləlik, köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti insan alveri halları hesab edilir. Bundan başqa son vaxtlar bu işlə məşğul olan çirkin insanlar tərəfindən daha çox istifadə edilən insan orqanlarının və toxumalarının qanunsuz transplantasiyası, şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması, qadının surroqat ana kimi istifadə edilməsi insan alveri halları kimi qeyd edilir.

Hər bir məsələdə olduğu kimi, bu məsələdə də təhsil önə çıxır. Niyə? Çünki insan alverinin qurbanlarına çevrilənlərin istisnalar olmaqla demək olar ki, hamısı təhsilsiz insanlar olur. Bu statistikanı insan alverinə qarşı mübarizə aparan beynəlxalq təşkilatlar, dövlət qurumları, QHT-lər də hesabatlarında xüsusilə vurğulayır. Onlar təhsildən yayınanların bu məsələdə daha çox əziyyət çəkdiyini deyirlər. Bundan başqa işsizlər, miqrantlar, avaralıqla və dilənçiliklə məşğul olanlar, səfillər, kimsəsizlər və baxımsızlar, əxlaqsız həyat tərzi sürənlər; əqli cəhətdən anlaqsız vəziyyətdə olanlar, içki, narkotika və psixotrop maddələrdən asılı olanlar da daha çox insan alveri qurbanlarına çevrilir.

İnsan alveri ilə məşğul olanlar öz niyyətlərinə çatmaq üçün bir çox vasitələrdən istifadə edir, bu vasitələrlə öz qurbanlarını aldatmağa müvəffəq olurlar. Onlar daha çox qanunsuz İşədüzəltmə firmaları, Moda agentlikləri, İnternet vasitəsilə iş, tanışlıq və nikah haqqında elanlar və sairə vasitələrdən məharətlə istifadə edirlər. Eyni zamanda, tanışlar, qonşular, qohumlar tərəfindən gələcək qurbanlarına təkliflər göndərirlər. Bundan başqa, xarici agentliklər tərəfindən təkliflərlə də insanları aldatmağa nail ola bilirlər.

### Qurbana çevrilənlər kimlərə müraciət edə bilər?

Bu alverin qurbanlarına çevrilənlər ilk öncə hüquq-mühafizə orqanlarına, həmin orqanların qaynar xəttinə, bundan başqa səfirlik və konsulluqlara, Qeyri-Hökumət Təşkilatlarına, Beynəlxalq təşkilatlara, Dini qurumlara, Tibb müəssisələrinə də vaxtında xəbər verə bilərlər.

### Xüsusi müəssisələr

İnsan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaqlar, İnsan alveri qurbanlarına yardım mərkəzləri onların müdafiəsi üçün olan xüsusi müəssisələrdir. Xüsusi müəssisələrdə bütün xidmətlər ödənişsiz göstərilir. Xüsusi müəssisələrdə hər hansı pullu xidmətlərin göstərilməsinə yol verilmir. Xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

### İnsan alverinin qurbanı olmuş şəxsin gizli saxlanılması təmin edilir

İnsan alverindən zərər çəkmiş şəxsin, onun yaxın qohumlarının, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslərin həyat və sağlamlığına təhlükə yaradabilən məlumatların gizli saxlanması - konfidensiallığı bütün hallarda təmin edilir. İnsan alverindən zərər çəkmiş şəxs haqqında konfidensial məlumatları və ya onun barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları qanunsuz olaraq toplama, yaxud bu məlumatları qəsdən yayma Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

### Xaricdə insan alverinin qurbanına çevrilən vətəndaşlarımızın müdafiəsi təmin edilir

Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəlikləri və konsulluqları öz səlahiyyətləri daxilində və yerləşdikləri ölkənin qanunvericiliyinə uyğun olaraq insan alverinin qurbanı olan Azərbaycan Respublikası vətəndaşlarının hüquq və mənafelərinin müdafiəsini həyata keçirir, onların Azərbaycan Respublikasının ərazisinə qayıtmasına yardım edirlər.

İnsan alverinin qurbanı əgər Azərbaycan ərazisində yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdirsə onlara müdafiə və yardım Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər səviyyədə təqdim olunur.

### İnsan alveri qurbanının normal həyat tərzinə qaytarılması necə baş verir?

İnsan alverinin qurbanına çevrilmiş şəxslərin müdafiəsi insan və vətəndaş hüquq və azadlıqlarına dair Azərbaycan Respublikasının müvafiq Qanunvericiliyinin və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələlərin tələbləri rəhbər tutulmaqla təmin edilir. İnsan alveri qurbanlarının normal həyat tərzinə qaytarılması - reinteqrasiyası sosial reabilitasiya proqramları çərçivəsində həyata keçirilir. Sosial reabilitasiya insan alveri qurbanlarına hüquqi yardımın göstərilməsi, onların təhsillərinin davam etdirilməsi, psixoloji, tibbi və peşə reabilitasiyası üçün tədbirlər görülməsi, həmin şəxslərin iş və yaşayış sahəsi ilə təmin edilməsi imkanlarından istifadə olunmasını nəzərdə tutur. Azərbaycan Respublikasının "İnsan alverinə qarşı mübarizə haqqında" Qanununa əsasən, cinayət təqibi orqanının müraciətinə əsasən dövlət orqanları öz səlahiyyətləri daxilində, sığınacaqlar və yardım mərkəzləri isə öz funksiyaları çərçivəsində insan alveri qurbanlarına yardım göstərməlidirlər. İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə qanunvericiliyə müvafiq olaraq dövlət büdcəsi və digər mənbələr hesabına Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə müavinət ödənilir. İnsan alveri qurbanlarının sosial reabilitasiyası həyata keçirilərkən onların Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və tərəfdar çıxdığı beynəlxalq müqavilələri ilə təsbit edilmiş insan və vətəndaş hüquqlarının hər hansı formada məhdudlaşdırılmasına, yaxud onların iradəsinə zidd reabilitasiya tədbirlərinin tətbiq edilməsinə yol verilmir.




# 10 illik iştirak tarixində ən yaxşı nəticə

## Məktəblilərimiz Yeniyetmələrin 24-cü Balkan riyaziyyat olimpiadasında 6 medal qazandı

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

13 yaşında qatıldığı 8-ci Avropa Qızlar Riyaziyyat Olimpiadasında qazandığı bürünc medalla həmin Olimpiadanın tarixinə adı ən gənc qalib kimi düşüb. Bu dəfə isə - Yeniyetmələrin 24-cü Balkan riyaziyyat olimpiadasında qazandığı gümüş medal onu fərqləndirdi. Sözügedən olimpiadada əvvəlki illərdə iki bürünc medal qazanan qızlarımız olsa da, onun medalı qız məktəblilərimizin indiyədək bu yarışda qazandığı ilk gümüşdür: "Pandemiyaya görə bu il mart ayından başlayaraq Beynəlxalq olimpiadalar virtual şəkildə keçirilir. Əlbəttə, ənənəvi formata daha çox üstünlük verirəm, çünki başqa ölkələrin olimpiadaçıları ilə tanış oluruq, imtahanlarda isə əsl yarış mühiti yaranır. Virtual formada keçirilməyinə baxmayaraq, Yeniyetmələrin 24-cü Balkan Riyaziyyat Olimpiadası çox yaxşı təşkil olunmuşdu. İmtahanda olimpiada mühitini hiss etdik. Bundan əvvəl virtual formada keçirilən Kiber Fəza Riyaziyyat Olimpiadasında bürünc medal qazanmışdım".

### "Uğurlarımın əsasında məhz o hazırlıq dayanır"

Beynəlxalq müstəvidə qazandığı uğurlarında beynəlxalq olimpiadalara hazırlıq mərkəzindəki hazırlığın rolunu istisna etməyən Bakı məktəblisinin fikrincə, virtual imtahanlar ənənəvi imtahanlardan fərqlənməsə də, onlayn dərslər eyni effekti vermir: "5 ilə yaxındır ki, Beynəlxalq hazırlıq mərkəzində məşğul oluram və bugünkü uğurlarımın əsasında məhz o hazırlıq dayanır. Ən çox İsmət Ağayevin dərslərindən faydalandım. Sonralar başqa müəllimlərin dərslərində də iştirak edirdim. Pandemiyadan sonra dərslər virtual keçirilir. Ona görə evdə müstəqil məşğul olmağa daha çox üstünlük verirəm. Atam riyaziyyatçıdır, məni hazırlaşdırır. Fikrimcə, olimpiadalara hazırlıq mərkəzində ənənəvi formada keçirilən dərslər daha effektlidir".

Qeyd edək ki, 257 nömrəli tam orta məktəbin şagirdi Fidan Qarayeva bu tədris ilindən təhsilini Fizika, Riyaziyyat və İnformatika təmayüllü liseydə davam etdirəcək.

### "Azərbaycanı beynəlxalq olimpiadada təmsil etmək çox gözəl hissdir"

Amin Cəfərzadə də Yeniyetmələrin 24-cü Balkan riyaziyyat olimpiadasının gümüş medalçısıdır. Fizika, riyaziyyat və informatika təmayüllü liseydə oxuyur: "Karantinlə bağlı olaraq hazırlıqlarımız onlayn keçirilirdi. Buna baxmayaraq, səylə, ciddi hazırlaşdıq. Nəticəmiz də uğurlu oldu. Bu, ölkəni tərk etmədən beynəlxalq olimpiadada ilk iştirakım deyildi. Ötən il də iştirak etdiyimdən mənim üçün daha rahat oldu. Azərbaycanı beynəlxalq olimpiadada təmsil etmək çox gözəl hissdir".

Beynəlxalq bilik yarışının növbəti gümüş medalçısı Elçin Musazadə Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin şagirdidir: "İlk dəfə VI sinifdə oxuyarkən fənn müsabiqələrinə qatıldım. O yarışda qazandığım gümüş medal olimpiadada ilk uğurum oldu. Daha sonra olimpiada hazırlıq mərkəzində riyaziyyat ilə ciddi məşğul olmağa başladım. VIII sinifdə həm Yeniyetmələrin Balkan riyaziyyat olimpiadasında, həm də respublika olimpiadasında bürünc medal qazandım. IX sinifdə daha ciddi hazırlaşmağa başladıq. Uğur qazandığımız bu sonuncu yarışda komanda olaraq yaxşı nəticə göstərdik".

### Və bürünc medalçılar

Şamil Mantaşlı onlardan biridir. O da Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinif şagirdidir: "Məktəbimizdə təhsilə çox önəm verirlər. Yoldaşlarımızın çoxu müxtəlif olimpiadalarda fəal iştirak edirlər. Elə bu olimpiadada medal qazanan Toğrul və Amin də sinif yoldaşlarımdır. Bir sinifdən 3 nəfər iştirak etdik və üçümüz də uğur qazandıq".

Şamil Mantaşlı Fizika, riyaziyyat və informatika təmayüllü liseyə Binəqədi qəsəbəsindəki 182 saylı məktəbdən gəlib: "Liseyə imtahanla yüksək bal yığaraq qəbul olmuşam. Belə bir yarışda iştirak etmək həm qürurverici, həm də maraqlıdır. İlk dəfə beynəlxalq bir yarışda iştirak etdim. Həyəcanlıydım. Onlayn keçirilən bir yarışa da ilk dəfə qatılırdım. Amma hər kəs kimi, mən də medalçılardan olmağı bacardım. Bütün iştirakçıların medal qazanması çox yaxşı oldu. Bundan sonra da öz üzərimdə çalışacağam. Daha çox çalışacağam ki, növbəti yarışlarda ölkəmizi daha yaxşı təmsil edim".

### "Əsas hədəfim qızıl medal qazanmaqdır"

Cəlil Hüseynov da bürünc medalçıdır. Fizika, riyaziyyat və informatika təmayüllü liseyin VIII sinif şagirdidir: "Aşağı sinifdə oxuyarkən bir çox bilik yarışmasının qalibi olmuşam. VI sinifdə riyaziyyat fənni üzrə məktəblilərarası IV Fənn müsabiqəsində I yerə layiq görülmüşəm. Həmin il Lütfi Zadə adına Məktəblilərarası III Məntiq Olimpiadasında da I yerin qalibi olmuşam. 2019-cu ildə Amerikan Riyaziyyat Olimpiadasında I yer tutdum. Bütün bu nailiyyətlərimə baxmayaraq, respublika və beynəlxalq olimpiadaların qalibi olmaq istəyirdim. Bunun üçün də çox çalışmalıydım. Gün ərzində, demək olar ki, 7-8 saat riyaziyyatla məşğul olurdum. 2019-cu ilin sentyabr ayından Beynəlxalq Olimpiadalara Hazırlıq Mərkəzində dərslərdə iştirak edirdim. Bunun nəticəsidir ki, bu il rəqiblərimin böyük əksəriyyətinin IX sinif şagirdləri olmasına baxmayaraq respublika fənn olimpiadasında (RFO) riyaziyyat üzrə bürünc medala layiq görüldüm. Məni daha çətin bir yarışma gözlədiyi üçün müəllimlərimlə birgə üzərimdə işləməyi dayandırmadım. Nəhayət, bu il Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadasında (JBMO) ölkəmizə bürünc medal qazandırmağa nail oldum. Mənim üçün ən uğurlu nailiyyətim bu olimpiadada qalib olmaq oldu. Ona görə ki, mən bu medalı həm öz, həm də ölkəmiz adına qazandım. Bu uğurum qürurvericidir. Bunu bir dəfə hiss etdikdən sonra davamı da olsun istəyirsən. Bundan sonra əsas hədəfim olimpiadalarda qızıl medal qazanmaqdır".

### "Beynəlxalq olimpiadalara hazırlıq mərkəzinin əhəmiyyəti bu yarışın nəticəsidir"

Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri Fuad Qarayev məktəblilərin son uğurunu yüksək dəyərləndirib. Yeniyetmələrin 24-cü Balkan Riyaziyyat Olimpiadasındakı (JBMO2020) uğurunu bu olimpiada 10 illik iştirak tarixinin ən yaxşı nəticəsi hesab edib. Onun fikrincə, beynəlxalq olimpiadalara hazırlıq mərkəzinin əhəmiyyəti bu yarışın nəticəsində aşkar göründü: "Beynəlxalq olimpiadalara hazırlıq mərkəzinin əhəmiyyəti bu yarışın nəticəsidir. Sabiq olimpiada qalibləri İsmət Ağayev, Anar Rzayev, Həsən Həsənzadə, Mirəli Əhmədli, Məhəmməd Şirinov, Cəfər Cəfərov və təbii, çox dəyərli Şəmsi müəllimin şagirdlərimizin yetişməsində danılmaz əməyinin nəticəsidir".

Şöbə müdirinin fikrincə, beynəlxalq olimpiadanın nəticəsi həm də respublika fənn olimpiadaları ilə bağlı rəy formalaşdırır: "Pandemiya ilə əlaqədar seçmə turu keçirilmədi. Yeniyetmələrin 24-cü Balkan Riyaziyyat Olimpiadasında ölkəmizi təmsil edəcək milli komandaya RFO aşağı yaş qrupu qalibləri seçildi. Şagirdlərimizin bu nailiyyəti ölkədə təşkil edilən respublika olimpiadasının səviyyəsini bir daha təsdiqlədi. Bu qələbə həm də qaliblərin yorulmadan çalışqanlığı və onların dəyərli valideynlərinin əvəzsiz mənəvi dəstəyinin nəticəsidir".

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

aşağıdakı vakant vəzifələri tutmaq üçün müsabiqə

## ELAN EDİR

| № | Kafedra | Vəzifə | Yer |
|---|---|---|---|
| 1. | Teatrşünaslıq kafedrası | 0,5 ştat professor<br>dosent | 1 yer<br>1 yer |
| 2. | Dizayn və dekorativ-tətbiqi sənət kafedrası | baş müəllim | 1 yer |
| 3. | Xalq çalğı alətləri ifaçılığı kafedrası | kafedra müdiri<br>baş müəllim<br>professor<br>0,5 ştat dosent<br>Müəllim | 1 yer<br>1 yer<br>1 yer<br>1 yer<br>1 yer |
| 4. | Musiqi tarixi və nəzəriyyəsi kafedrası | dosent | 1 yer |
| 5. | Ədəbiyyat və dillər kafedrası | dosent<br>0,5 ştat dosent | 1 yer<br>1 yer |
| 6. | Dram teatrı və kino aktyoru kafedrası | dosent | 2 yer |
| 7. | Səhnə danışığı kafedrası | kafedra müdiri<br>dosent | 1 yer<br>1 yer |
| 8. | İnstrumental ifaçılıq kafedrası | kafedra müdiri<br>0,5 ştat dosent | 1 yer<br>1 yer |
| 9. | Turizm və kitabxana-informasiya kafedrası | dosent | 1 yer |
| 10. | Təsviri sənət kafedrası | professor<br>baş müəllim | 1 yer<br>1 yer |
| 11. | Sosial-siyasi elmlər kafedrası | kafedra müdiri<br>0,5 ştat dosent | 1 yer<br>1 yer |
| 12. | Kino-televiziya sənətləri kafedrası | kafedra müdiri | 1 yer |
| 13. | Kinoşünaslıq və ekran dramaturgiyası | professor | 1 yer |

Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini Azərbaycan Respublikası Təhsil nazirinin 07.08.1996-cı il tarixli, 401 saylı əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" sənədin tələblərinə uyğun olaraq elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərə bilərlər:

Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39
**Əlaqə tel.:** (012) 599-00-54 (daxili-100)

Müsabiqədə yüksək peşə-ixtisas hazırlığına, elmi ad və dərəcələrə, lazımi elmi-pedaqoji, idarəetmə təcrübəsinə, yüksək mənəvi keyfiyyətlərə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin müvafiq qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

**REKTORLUQ**

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

# Azərbaycan Dövlət Dəniz Akademiyası

Azərbaycan Dövlət Dəniz Akademiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 avqust 2020-ci il tarixli 493 s nömrəli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2020-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları"na əsasən 2020-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul

## ELAN EDİR

**Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya sənədlər aşağıdakı ixtisaslara qəbul edilir:**

**3319.01 - "Gəmiçilik texnikası"**
*doktorantura - 1 yer (qiyabi)*

**3319.02 - "Gəmiçilik və su nəqliyyatının istismarı"**
*doktorantura - 1 yer (qiyabi)*

**3319.03 - "Gəmiqayırma və gəmi təmiri texnologiyası"**
*doktorantura - 1 yer (qiyabi)*

Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya sənədlər sentyabrın 26-dək hər gün saat 9:00-dan 17:00-dək Azərbaycan Dövlət Dəniz Akademiyasının Bakı şəhəri, akademik Zərifə Əliyeva küçəsi, 18 ünvanında yerləşən əsas binasında (423-cü otaqda) qəbul ediləcək.

**Əlaqə tel.:** (012) 493-09-19
**E-mail:** husniyya.qafarli@asco.az

**Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya** ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyən şəxslər xarici dildən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzində imtahan verməlidirlər.

Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfədən imtahana buraxılırlar.

Fəlsəfədən məqbul alan şəxslər ixtisas imtahanına buraxılırlar.

**Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər ADDA-ya təqdim olunmalıdır:**

- *rektorun adına ərizə;*
- *kadrların şəxsi qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *iş yerindən xasiyyətnamə;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsillə bağlı sənədlərin tanınması haqqında şəhadətnamə);*
- *xarici dil bilikləri üzrə beynəlxalq sertifikat (əgər varsa);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti.*

**Qeyd:** Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya sənəd verən iddiaçılar xarici dil imtahanında iştirak etmək üçün sənəd qəbulu bitdikdən sonra Dövlət İmtahan Mərkəzinin saytında şəxsi kabinet açaraq qeydiyyatdan keçməlidirlər.

**REKTORLUQ**

## "Google" Proqramçı Tələbələr Klubu yaradılır

Bakı Mühəndislik Universitetinin (BMU) magistr tələbəsi Kənan Yusubov "Google" şirkətinin Proqramçı Tələbələr Klubu proqramına klubun yerli bölməsinin rəhbəri olaraq qəbul olunub. Belə ki, BMU-nun İnnovasiya Mərkəzində "Google" Proqramçı Tələbələr Klubu - Developer Student Clubs (DSC) yaradılacaq.

Universitetdən verilən məlumata görə, Azərbaycanın ali təhsil müəssisələrindən müraciət edənlər çox olsa da, proqrama ölkəmizdən 2 nəfər tələbə qəbul olunub ki, onlardan biri BMU-nun tələbəsi Kənan Yusubovdur.

Qeyd edək ki, Proqramçı Tələbələr Klubu "Google" tərəfindən yaradılan və tələbələr üçün təşkil olunan proqramdır. Sözügedən proqramda rəhbərlik bir illiyə təyin olunur, bu müddət ərzində BMU tələbəsi və onun formalaşdırdığı klub yeni layihələr üstündə işləməli, innovativ tədbirlər həyata keçirməlidir. Bu proqram sayəsində tələbələr öz təhsil mərkəzləri ilə "Google" arasında əməkdaşlıq əlaqələri yarada və öz üzərlərində işləyərək inkişaf edə, karyeralarına böyük töhfə verə bilərlər. İlin sonunda isə klublar öz innovativ həllərini "Google"a təqdim etməlidirlər.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6870, **Sifariş** 2213

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Bakı şəhər** 219 nömrəli evdə təhsil tam orta məktəbi 2015-ci ildə bitirmiş Abbasova Sevinc Əhliman qızına verilmiş A-410254 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qobustan rayon** Poladlı kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Ağayev Elvin Ağamurad oğluna verilmiş B-102092 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 61 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Xəlilov Nazim Azad oğluna verilmiş B-193462 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qaraxanlı kənd tam orta məktəbi 2001-ci ildə bitirmiş Pənahova Esmira Fazil qızına verilmiş E-568450 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Yuxarı Öysüzlü kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Əhmədov Əvəz Aqil oğluna verilmiş A-224175 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Qovlar şəhər humanitar təmayüllü məktəb-liseyi 2015-ci ildə bitirmiş Abbasov Elməddin Bəhlul oğluna verilmiş A-596611 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan qəsəbə 2 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Baxşiyeva (Quliyeva Nuriyyə Hüseynağa qızına verilmiş ƏR2-000101 nömrəli tam orta təhsil haqqında arayış itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 26 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Rəcəbov Cavid Nail oğluna verilmiş A-436243 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 43 nömrəli məktəb-lisey kompleksi 2014-cü ildə bitirmiş Hüseynov Teymur Manuyeloviçə verilmiş A-293910 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 6 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əliyeva İlgün Mehman qızına verilmiş B-122435 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 81 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Mollayev Elman Camaləddin oğluna verilmiş E-194115 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Texniki Kolleci** tərəfindən 2004-cü ildə Bağırova Ceyran Ədil qızına verilmiş BB-II-011386 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Gülövşə kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Cabbarlı Ceyhun Qənbər oğluna verilmiş 132590 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 27 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Məmmədova Firuzə Çərkəz qızına verilmiş E-122325 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kirovabad Avtomexaniki Texnikumu** tərəfindən 1986-cı ildə Şükürov Fəzir Nəsir oğluna verilmiş ИТ-024112 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayon** Qoşakənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Rəsulova (İsmayılova) Pərvanə Feyruz qızına verilmiş A-421576 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Universiteti** tərəfindən 2017-ci ildə Məmmədova Zahirə Bəhram qızına verilmiş A-119287 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Rəşidova Nərmin İdris qızına verilmiş 288936 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2004-cü ildə Cabbarov Rəşad Elşad oğluna verilmiş B-011033 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbin VIII sinfini 1989-cu ildə bitirmiş Əkbərova Afət Ağaşah qızına verilmiş A-489011 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**S.Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyanı** 2003-cü ildə bitirmiş Lazimova Gültən Oqtay qızına verilmiş A-713282 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Xıl kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Hüseynova Nurşən Samir qızına verilmiş A-334978 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 1998-ci ildə Qarayeva Xalidə Hacıxan qızına verilmiş A-017897 nömrəli bakalavr diplomu və əlavəsi və 2004-cü ildə verilmiş MNA-015157 nömrəli magistr fərqlənmə diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Sosial-İqtisadi Kolleci** tərəfindən 2016-cı ildə Nəsibova Tavat Əliyusif qızına verilmiş AA-079764 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kooperasiya Universiteti** tərəfindən 2018-ci ildə Qasımzadə Şahin Əliniyaz oğluna verilmiş C-018404 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 114 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Abulov İsmayıl Zülfi oğluna verilmiş C-355597 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes və Kooperasiya Kolleci** tərəfindən 2016-cı ildə Məmmədov Ərəstun Süleyman oğluna verilmiş AA-082993 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**V.İ.Lenin adına Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1974-cü ildə Həsənov Ağacəfər Hüseyn oğluna verilmiş Я-104664 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azerbaijan British Collage** IX sinfini 2018-ci ildə bitirmiş Rüstəmov Aydın Rəşad oğluna verilmiş C-332846 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 227 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Şahpələngov Orxan Əlyar oğluna verilmiş A-097186 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 24 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Teymurzadə Yusif Natiq oğluna verilmiş AN-417416 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Əzizov Simur Teymur oğluna verilmiş E-166345 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbi 2016-cı ildə bitirmiş Qarayeva Namiqə Namiq qızına verilmiş A-533316 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Bülüdül kənd tam orta məktəbi 2017-ci ildə bitirmiş Məmmədli Qədir İqbal oğluna verilmiş E-058181 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1999-cu ildə Novruzova Sevda Əlişah qızına verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 300 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Əlili Əli Habil oğluna verilmiş E-019983 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Zəngənə kənd tam orta məktəbi 1985-ci ildə bitirmiş Babayev Talib Kənan oğluna verilmiş A-135272 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 278 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Qurbanova (İmanova) Tünzalə Balabək qızına verilmiş A-751821 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 162 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Zamanov Şahbaz Elxan oğluna verilmiş B-683238 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 225 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Salamov Zaur Adil oğluna verilmiş A-026840 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2005-ci ildə Manafov İlham Haris oğluna verilmiş B-037311 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 44 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Şirinov Sənan Malik oğluna verilmiş A-472063 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 258 nömrəli tam orta məktəbin IX sinfini 2020-ci ildə bitirmiş Məcidova Nigar Cəlil qızına verilmiş C-362356 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Fizika-riyaziyyat və informatika təmayüllü Liseyi** 2011-ci ildə bitirmiş Qarayev Osman Əzizağa oğluna verilmiş A-005425 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2018-ci ildə Məlikova Şəbnəm Kamil qızına verilmiş C-009853 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Alar kənd 1 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Mustafayeva Nuridə Şəmsəddin qızına verilmiş A-321730 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Kürdlər kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Məmmədova Gülşən Söhbət qızına verilmiş 346825 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 1 nömrəli tam orta məktəbi 1978-ci ildə bitirmiş Məmmədov Güləli Nüsrət oğluna verilmiş AU-212986 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1990-cı ildə Əsədullayeva Sevinc Cabir qızına verilmiş УВ-I-113149 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Neft Texnikumu** tərəfindən 1989-cu ildə Muradov Nurağa Nəsir oğluna verilmiş HT-I-545845 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 277 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Səmədov Tərlan Arif oğluna verilmiş A-683760 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2007-ci ildə Əliyev Anar İqbal oğluna verilmiş B-104722 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 125 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Atakişiyev Salman Zəfər oğluna verilmiş A-206303 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Yerli Sənaye Texnoloji Texnikumu** tərəfindən 1987-ci ildə Abbasov Mahir Cəmil oğluna verilmiş ИТ-034040 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

# “Bir baxışda təhsil”



İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD ) 2020-ci il üzrə “Bir baxışda təhsil” (Education at a Glance) adlı növbəti hesabatını dərc edib. Sentyabrın 8-də Parisdə OECD-nın virtual iclasında təqdim olunmuş 486 səhifəlik hesabatda bir sıra ölkələrdə təhsil sistemlərinin strukturu, maliyyəsi və effektivliyi barədə məlumatlar verilir. Bu nəşrdə təqdim olunan 100-dən çox diaqram və cədvəl, həmçinin təhsil məlumat bazasında mövcud olan linklər təhsil müəssisələrinin fəaliyyətinin nəticələri haqqında əsas məlumatları - müxtəlif ölkələrdə təhsilin rolu, təhsildə iştirak və proqresin əldə olunması, təhsilə qoyulan maliyyə resursları, müəllimlərin durumu, tədris mühiti, məktəblərin təşkili kimi məsələləri ehtiva edir.

## OECD: “Məktəb təhsilinin pozulması bacarıqların itirilməsinə gətirib çıxaracaq”

**Oruc MUSTAFAYEV**

Hesabatda qeyd olunur ki, COVID-19-un yayılması dünyanın hər yerində ictimai səhiyyənin misli görünməmiş böhranı, ciddi insan əzab-əziyyətlərinə və tələfata yol açıb.Virusa yoluxanların sayının eksponent artması və xəstəliyin ciddi fəsadlarının dramatik nəticələri ona gətirib çıxardı ki, xəstəxanalar və tibb işçiləri həddindən artıq böyük bir yükün altına girdilər və səhiyyə sektoruna xeyli ağırlıq yarandı. Hökumətlər bütün fəaliyyət sektorlarını bağlamaqla və geniş məhdudiyyətlər qoymaqla xəstəliyin yayılması ilə mübarizə apardıqca böhran ölkələrə uzun illər təsir göstərəcək ciddi iqtisadi problemə çevrilir. OECD-nin son iqtisadi proqnozuna görə, hətta ən nikbin ssenarilər belə, sərt tənəzzülün olacağını proqnozlaşdırır. İkinci infeksiya dalğasından qaçmaq mümkün olsa belə, qlobal iqtisadi fəallıq 2020-ci ildə 6%-ə düşəcək və OECD ölkələrində orta işsizlik 2019-cu ildəki 5,4%-dən 9,2%-ə qədər artacaq. İzolyasiya rejiminə qayıtmağa gətirib çıxaracaq təkrar yoluxma baş verərsə, vəziyyət daha da pisləşəcək.

### İtirilmiş bacarıqlar

OECD-nin hesablamalarına əsasən, koronavirus nəticəsində məktəblərin bağlanması səbəbindən itirilmiş bacarıqlar dünya iqtisadiyyatının çökməsinə səbəb olacaq. Məktəb təhsilinin pozulması bacarıqların itirilməsinə gətirib çıxaracaq ki, bu da dünyada iqtisadi istehsalın həcmini əsrin sonuna qədər 1,5 faiz azaldacaq. ABŞ üçün bu, 15,3 trilyon dollar həcmində iqtisadi zərər təşkil edəcək. Növbəti tədris ilində təhsil sisteminin pozulması davam edərsə, bu rəqəm daha da artacaq. “Təlimdə itki, bacarıqların itirilməsinə gətirib çıxaracaq, insanların bacarıqları isə onların performansına bağlıdır”, - deyə hesabatda bildirilir.

### Təhsilin həlledici əhəmiyyəti

Hesabatın təqdimat mərasimində çıxış edən OECD-nin baş katibi Anxel Qurria qeyd edib ki, COVID-19 böhranı bütün dünyada təhsil sistemlərində çoxsaylı çatışmazlıqları və qeyri-bərabərliyi ortaya qoydu. Hökumətlər öz iqtisadiyyatlarını və insanların həyatını yenidən bərpa etməyə başladıqca, hər bir gəncin təhsilini davam etdirə bilməsi, məktəbdə uğur qazanması və cəmiyyətə töhfə verməsi məqsədilə təhsilə uzunmüddətli dövlət yatırımlarının prioritet olaraq qalması vacibdir. 2017-ci ildə OECD ölkələrində ibtidai və ali təhsilə ayrılan xərclər ümumi dövlət xərclərinin orta hesabla 11%-ni təşkil edib, bu rəqəm Yunanıstanda təxminən 7%, Çilidə 17%-ə qədər olub. “Təhsil sistemlərinin gücləndirilməsi bu böhrandan çıxmağı və gəncləri uğur qazanmaq üçün lazım olan bacarıq və səriştələrlə təmin etməyi planlaşdıran hökumətin diqqət mərkəzində olmalıdır. Böhranın bir çox ölkələrdə təhsildə aşkar edilmiş qeyri-bərabərliyi dərinləşdirməməsi üçün hər cür səy göstərilməlidir. Hazırkı böhran irimiqyaslı dağıntıların öhdəsindən gəlmək bacarığımızı yoxlayıb. İndi biz miras olaraq daha davamlı bir cəmiyyət qurmalıyıq”, - deyə baş katib bildirib.




### Böhran peşə təhsili sektoruna ciddi zərbə vurub

Hesabata görə, böhran xüsusilə texniki peşə təhsili sektoruna ciddi zərbə vurub. Təcrid dövründə iqtisadi və sosial həyatın əsasını təşkil edən bir çox fəaliyyətlər peşə təhsili ixtisaslarından asılı olduğu üçün bu, ciddi narahatlıq doğurur. Orta hesabla bu gün OECD ölkələrində gənclərin valideynlərindən daha yüksək orta peşə təhsil və akademik universitet dərəcəsi almaq şansı daha azdır. Qazanc da aşağıdır: yüksəkdərəcəli peşə təhsili olan böyüklər orta ixtisas səviyyəsinə malik olanlar kimi eyni qazanc əldə edirlər, lakin onlar OECD ölkələrində orta hesabla ali təhsilli yaşlılardan 34% az qazanırlar. Hökumətlər gənclərə daha cəlbedici peşə təhsili və bacarıqları vermək üçün səylərini artırmalıdır. Buraya işəsaslı öyrənmənin gücləndirilməsi və özəl sektorla əlaqələrin genişləndirilməsi daxil olmalıdır. Hazırda OECD ölkələrində orta peşə təhsili müəssisələrinin şagirdlərinin yalnız üçdə biri kombinə olunmuş məktəb və iş proqramlarında iştirak edir.

Tələbələrin peşə təhsilindən ali məktəbə keçidinin sadələşdirilməsi də əsas amildir və təhsilin nəticələrini yaxşılaşdıra bilər. Bu gün peşə təhsili məktəblərində 10 tələbədən təxminən 7-si nəzəri cəhətdən daha yüksək dərəcələrə doğru irəliləməyə imkan verən proqramlar üzrə təhsil alır.

### Universitetlər yeni gerçəkliyə sərt bir nəzər salmalıdırlar

Virtual forumda çıxış edən OECD-nin təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxer bildirib ki, beynəlxalq tələbələr kilitlənmənin başlanğıcında xüsusilə ağır şəkildə zərər çəkiblər. Növbəti tədris ili üçün xarici tələbə sayındakı hər hansı bir azalma, universitetlərin təklif etdiyi təməl təhsil xidmətlərinə zərbə vuracaq, eyni zamanda yerli tələbələrə göstərilən maddi dəstəyə, elmi-tədqiqat və inkişaf fəaliyyətlərinə dolayı yolla təsir edəcək.

Beynəlxalq tələbələr OECD ölkələrində orta hesabla 6% təşkil etmələrinə baxmayaraq, Avstraliya, Lüksemburq və Yeni Zelandiyada ümumi tələbə sayının 20 və ya daha çox faizini əhatə edir. Beynəlxalq tələbə mobilliyi doktorantura səviyyəsində xüsusilə yüksəkdir, burada orta hesabla hər beş tələbədən biri elmi dərəcə almaq üçün xaricə gedir. Baxmayaraq ki, Kanada və ya Böyük Britaniya kimi ölkələr viza qaydalarını sadələşdirib və ya tələbələrə kampusda qalmağa icazə veriblər, “hər yerdə belə olmayıb”. Avstraliya Kanada, Böyük Britaniya və ABŞ potensial olaraq böyük itkilərə məruz qalıb. O, xəbərdarlıq edib ki, tələbələr “onlayn kurslar istehlak etmək üçün çox pul xərcləmək və öz vaxtlarını sərf etmək niyyətində deyillər. “Onlar öz professorları ilə müzakirələr aparmaq, laboratoriyalarda tədqiqatçılarla işləmək və kampus sosial həyatını yaşamaq, böyük insanlarla görüşmək üçün xarici universitetlərə gedirlər. Əgər bu şeylər baş vermirsə, hesab edirəm ki, universitetlər çox çətin bir zamanla qarşılaşacaqlar. Qısa müddətdə, online dünya çox əhəmiyyətli olacaq. Amma əgər universitetlər sadəcə bilik yayırlarsa, onlar öz dəyərli təkliflərini itirirlər”,-deyə A.Şleyxer əlavə edib.

A.Şleyxer hesab edir ki, “biliklərin çatdırılması və akkreditasiya dəyişdirilməlidir, çünki insanların öyrənmə təcrübəsi qazanması üçün bir çox alternativlər olacaq. Buna görə də düşünürəm ki, universitetlər həqiqətən bu yeni reallığa sərt nəzər salmalıdırlar”.

## OECD hesabatında hansı məqamlara diqqət yetirilir?

**1. OECD ölkələrində təhsilin dövlət maliyyələşdirilməsi**

“Böhranın təhsilə təsiri” bölməsində qeyd olunur ki, COVID-19-un yayılması dünyanın hər yerində şok dalğalanma yaradıb. Böhranın uzunmüddətli nəticələri aydın olmasa da, pandemiya dövlət təhsil xərclərinə təsir göstərə bilər, çünki vəsaitlər səhiyyə sektoruna və iqtisadiyyata yönəldilir.

- Pandemiyadan əvvəl, dövlət xərclərinin 11%-i təhsilə yönəldilib.
- 2020-ci ildə qlobal iqtisadi fəallığın ən azı 6% azalacağı gözlənilir.

*Bəzi ölkələr qısamüddətli dəstək tədbirləri tətbiq ediblər:*

- Rəqəmsal təlim cihazlarının çatdırılması;
- Tələbə və məktəblərə maliyyə dəstəyi;
- Avadanlıqların təhlükəsizliyini və təmizliyini təmin etmək üçün vasitələr.

**2. Beynəlxalq tələbə mobilliyi**

- Bütün OECD ölkələrində ali təhsil müəssisələrinin tələbələrinin 6%-i əcnəbilər və ya əcnəbi tələbələrdir;
- Bu nisbət doktoranturada 22%-ə qədər artırılır;

Distant təhsil-xaricdə təhsil təcrübəsində ən pis əvəzdir.

*Tələbələr aşağıdakıları əldən buraxırlar:*

- xarici əmək bazarlarına çıxış və şəbəkələrin yaradılması;
- beynəlxalq əməkdaşlıq.

Az sayda əcnəbi tələbə kontingenti bəzi ali təhsil müəssisələrinin maliyyələşdirilməsi modelinə əhəmiyyətli təsir göstərə bilər. Əcnəbi tələbələr milli universitetlərlə müqayisədə xarici ali məktəblərdə daha artıq təhsil haqqı ödəyirlər.

*Böhran özünü nədə göstərdi:*

- öyrənmə davamlılığında;
- beynəlxalq tələbələrin təhlükəsizliyi və hüquqi statusunda;
- tələbələr tərəfindən xaricdə təhsilin diplom almaq üçün dəyər kimi qəbul edilməsində.

**3. Məktəbdə tədris vaxtının itirilməsi**

*OECD-nin 46 ölkəsində və tərəfdaş ölkələrdə COVID-19 nəticəsində təhsil müəssisələrində tədris vaxtının itirilməsi:*

2020-ci il, fevral: - Çin məktəbləri bağlayan ilk ölkə oldu, tezliklə digər ölkələr də eyni addım atdılar;

2020-ci il, mart: - Mart ayının sonuna qədər 46 ölkə bütün və ya bəzi məktəbləri bağladı;

2020-ci il, iyun: - İyun ayının sonuna qədər OECD ölkələrində və tərəfdaş ölkələrdə məktəblərin bağlanma müddəti 7 həftədən 19 həftəyə qədər idi.

Bu dövrlərdən bəziləri məktəb tətillərini əhatə edirdi. Bəzi ölkələr hətta vaxt itkisini minimuma endirmək üçün məktəb illərini yenidən təşkil etdilər.

**4. Məktəblərin bağlanması şəraitində şagirdlərin təhsillərini davam etdirməsi**

*Ölkələr müxtəlif uzaqdan öyrənmə resurslarından istifadə ediblər:*

- tədris paketləri;
- radio və televiziya təhsili;
- online təlim resursları.

*Online platformalardan,demək olar ki, bütün OECD ölkələrində və tərəfdaş ölkələrdə istifadə edilib. Bu alətlərə daxildir:*

- Öyrənmək istədiyiniz halda təhsil məzmunu;
- Virtual konfrans meydançalarında real zaman rejimində dərslər;
- Valideynlər və öyrənənlər üçün online dəstək xidmətləri;
- Sərbəst formal dərslər.

**5. Müəllimlərin rəqəmsal öyrənməni dəstəkləmək üçün hazırlıqları**

*Müəllimlər informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadənin öyrənilməsinə yüksək ehtiyac olduğunu bildirirlər:*

- 60% müəllim İKT sahəsində ixtisasartırma keçib;
- 18% bu sahədə inkişaf üçün daha yüksək tələbat hiss etdiyini bildirib;
- Müəllimlər öz inkişafları üçün uzaqdan öyrənməyə çox da güvənmirlər;
- 36% onlayn kurslarda və ya seminarlarda iştirak etdiyini bildirib;
- Müəllimlərın yarıdan çoxu kurslarda və ya seminarlarda şəxsi iştirakları barədə məlumat veriblər.

**6. Məktəbləri nə zaman və necə açmalı?**

*Pandemiya şəraitində yenidən açılma risklərinin idarə olunması üzrə addımlar:*

- kadr heyəti üçün risk qiymətləndirməsinin aparılması;
- aydın sosial məsafə protokollarının inkişaf etdirilməsi;
- sağlamlıq vəziyyəti nəzərə alınmaqla sinifdə iştirak siyasətinin yenidən nəzərdən keçirilməsi;
- müəllim və işçi heyətinin məktəblərin yenidən açılmasına hazırlığını təmin etmək.

*Məktəblər açılarkən istifadə oluna biləcək iki mühüm imkan:*

- uzaqdan təhsilin təhsilalanların səriştələrinə təsirini qiymətləndirmək;
- uzaqdan öyrənmə üçün infrastruktur və potensial yaratmaqda davam etmək.

**7. Siniflərin ölçüsü məktəblərin yenidən açılması üçün kritik parametrdir**

*Təhsilalanlar və müəllim heyəti arasında təhlükəsiz məsafənin saxlanması aşağıdakılardan asılıdır:*

- sinif ölçüsü və sərbəst siniflərin mövcudluğu;
- sinifdə tələbələrin sayı;
- Sinifdə sosial məsafə - 1-2 metr, bu məsafə virusun qarşısının alınması səviyyəsinə uyğun nizamlanır.

OECD ölkələrində ibtidai sinfin orta ölçüsü:16 (Kosta Rika), 21 (orta göstərici), 31 (Çili).

**8. COVID-19 izolyasiyası zamanı peşə təhsili**

- Orta məktəbin yuxarı sinif şagirdlərinin 42%-i peşə təhsili və peşə hazırlığı sistemində təhsil alır, onlardan hər üç nəfərdən biri kombinə edilmiş məktəb və iş proqramları üzrə oxuyur.
- peşə hazırlığı sistemində tədris proqramının 25-90% iş yerində təşkil olunur;
- Sosial məsafə və obyektlərin bloklanması bunu çətin və ya qeyri-mümkün edir;
- Şirkətlərin iqtisadi bərpa üçün mübarizə aparması səbəbindən, ehtimal ki, peşə hazırlığında əlçatan stajkeçmə daha az olacaq.

Sənədin “Nəticə” hissəsində qeyd olunur ki, COVID-19-dan sonra həyat bərpa mərhələsinə qədəm qoyduqda, təhsil sistemlərinin və xüsusilə də həyat qabiliyyətli cəmiyyətlərin möhkəmləndirilməsində peşə təhsilinin rolu barədə düşünmək çox vacib olacaq. Təhsil sistemləri cəmiyyətin gələcəyi üçün zəruri olan bilik və bacarıqların inkişafında planlaşdırmanın mərkəzində olmalıdır. Real dəyişikliklər tez-tez dərin böhranlarda baş verir və bu məqam özündə hər şeyin “norma”ya qayıdacağı vaxtda status-kvoya qayıda bilməyəcəyimizi əks etdirir. Baxmayaraq ki, bu böhran, o cümlədən təhsil üçün dərin dağıdıcı nəticələrə malikdir, onun əvvəlcədən müəyyən edilmiş nəticələri yoxdur. Məhz bu pozuntulara bizim kollektiv və sistemli reaksiyalarımızın xarakteri onların bizə necə təsir edəcəyini müəyyən edəcək. Bu mənada pandemiya da Davamlı İnkişaf Məqsədlərinə sadiqliyi bərpa etməyə çağırışdır. Bütün gənclərin məktəbdə uğur qazanmaq və cəmiyyətin inkişafına töhfə verəcək bilik, bacarıq, yanaşma və dəyərləri inkişaf etdirmək imkanına malik olmasını təmin etmək qlobal gündəliyin və təhsil vədlərinin əsasını təşkil edir.